www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 aprel 2015-ci il Çərşənbə axşamı № 72 (6100) Qiyməti 40 qəpik

Xəbər

**Bakıda avtobus piyadanı vurub öldürdü**

yazısı səh.14-də

## Gündəm

**Vəzifəli şəxslər dövləti yeyib-dağıdıb - rəsmi hesabat**



Hesablama Palatası ilginc korrupsiya sənədi açıqladı: Dövlət qurumlarında 17,1 milyon manatlıq yeyinti aşkarlanıb

yazısı səh.5-də

**AzTV-də ciddi ixtisarlar başlayıb**

yazısı səh.3-də

**İŞİD-ə qoşulan azərbaycanlılar məhkəmədə ilginc ifadələr verdilər**

yazısı səh.4-də

**"Palıdlı Sahil"lə bağlı yeni məqamlar ortaya çıxdı**

yazısı səh.3-də

**YAP-la AMİP eyni qurumda təmsil olunacaq**

yazısı səh.6-da

**AŞ PA-da "100 illik" qarşıdurma - Strasburqda erməni - türk çəkişməsi gözlənilir**

yazısı səh.7-də

**Türkiyədə twitter və youtube qapadıldı**

yazısı səh.3-də

**Müsavat Divanı mitinq qərarı vermədi**

yazısı səh.7-də

**Səudiyyə nefti bahalaşdırdı**

yazısı səh.8-də

**Estetik əməliyyatların görünməyən tərəfləri; ilginc detallar**

yazısı səh.12-də

**Bakı sakini benzin içib özünü yandırmaq istədi**

yazısı səh.14-də

**AZAL-ın Bakı-Berlin reysi indidən fiaskoya uğradı**

yazısı səh.15-də

## Prezident Əliyevin Ərəbistana səfərinin pərdəarxası

# AZƏRBAYCAN İQTİDARININ "ƏRƏB AÇILIMI"

Hakimiyyət sakit görünsə, müxalifətin mitinqlərini görməzdən gəlsə də, yeni bir böhranla üzləşməmək üçün təcili önləmlər almaqdadır; Səudiyyə Ərəbistanına səfər mümkündür ki, Moskva və Tehranda qısqanclıqla qarşılansın; amma daha bir sensasion versiya da var...



yazısı səh.6-da

# Putin üçün "Şah və mat"... və Azərbaycana yeni təhlükə

9 may - yubiley töreninin boykot edilməsinin ardınca Kreml Qərbdən daha bir zərbə alıb; rusiyalı analitikə görə, İran amilinin əldən çıxması Moskvanın postsovet məkanında imperiya ambisiyalarını gücləndirəcək...

yazısı səh.9-da



*Vəfa Quluzadə:*

**"Tehran Ukrayna-Rusiya qarşıdurmasında öz məqsədinə çatdı"**

yazısı səh.8-də



*Mirmahmud Mirəlioğlu:*

**"Bizim artıq Milli Şuralıq işimiz qalmayıb"**

yazısı səh.10-da



**Bakıda saxta dollar hazırlayan Belçika vətəndaşları tutuldu**

yazısı səh.2-də

## Bakıda saxta dollar hazırlayan Belçika vətəndaşları tutuldu



**Azərbaycanın daxili işlər orqanları tərəfindən cinayətkarlıqla mübarizə sahəsində daha bir uğurlu əməliyyat tədbiri həyata keçirilib və nəticədə külli miqdarda saxta əsginaz dövriyyədən çıxarılıb. Bu barədə "Report"a Daxili İşlər Nazirliyindən (DİN) məlumat verilib. Belə ki, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının əldə etdikləri əməliyyat məlumatı əsasında Kamerunda anadan olmuş Belçika vətəndaşları Maput Martial və Hongla Samuel 10 min saxta ABŞ dollarını 5 min ABŞ dollarına satarkən saxlanılıblar.**

Onların Xırdalan şəhərindəki kirayədə yaşadıqları evdən əlavə 10 min saxta ABŞ dolları, 1 ədəd rəngli printer və müxtəlif kimyəvi maddələr aşkar edilərək götürülüb. Araşdırmalar zamanı onların Azərbaycanda keçiriləcək Avropa Oyunları qabağı çoxsaylı turistlərin gələcəyini və xarici valyutanın daha çox istifadə olunacağını nəzərə alaraq saxta ABŞ dolları hazırlamaq və dövriyyəyə buraxaraq külli miqdarda gəlir əldə etmək niyyətində olduqları müəyyən edilib. Faktla bağlı Baş idarənin İstintaq şöbəsində cinayət işi başlanıb.

## Avropa Oyunları ərəfəsində əfv gözlənilir

**Mərhum dövlət başçısı Heydər Əliyevin doğum günü və "Bakı 2015" Avropa Oyunları öncəsi amnistiya aktının imzalanacağı haqda müxtəlif məlumatlar yayılır. Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Siyavuş Novruzov modern.az-a açıqlamasında məlumatlara aydınlıq gətirib: "Müəyyən vaxtlarda Azərbaycanda amnistiya olub. Amma sözügedən ərəfədə amnistiya gözlənilmir. Bunun üçün qanunvericilik təşəbbüsü də yoxdur".**

Deputat qeyd edib ki, hazırda növbəti əfvlə bağlı işlər gedir: "Bildiyiniz kimi, ənənəvi olaraq bayramlar və xüsusi günlərdə cənab prezident İlham Əliyev əfv sərəncamı imzalayır. Çox güman ki, bu dəfə də əfv sərəncamı imzalanacaq".

Hüquq müdafiəçisi Novella Cəfəroğlu da may ayında amnistiya yox, əfv sərəncamı gözlədiklərini bildirib.

Xatırladaq ki, Azərbaycan prezidenti İlham Əliyev bu il martın 18-də sonuncu dəfə əfv sərəncamı imzalayıb. Sərəncam 101 məhkuma şamil olunub. Onlardan 90 nəfər həbsdən buraxılıb, 7 nəfərin cəriməsi bağışlanıb, 4 nəfər isə islah işlərindən azad olunub.

## Türkiyə "Eurovision 2015"ə qatılmayacaq

**Türkiyə "Eurovision 2015" mahnı müsabiqəsində iştirak etməyəcək."Eurovision"un mətbuat xidmətindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, bu il iştirak edəcək ölkələr arasında Türkiyənin adı yoxdur: "Türkiyə Yayım Şirkəti olan TRT yarışma üçün iştirakını vaxtında təsdiqləmədiyinə görə "Eurovision 2015"-də iştirak etməyəcək".**

Qeyd edək ki, 2013-cü ildə səsvermə və püşkatma sisteminə etiraz edən Türkiyə yarışmaya qatılmayacağını açıqlasa da, bir müddət əvvəl TRT-nin baş direktoru Şenol Göka Avropa Yayım Birliyinin üzr istəməsi və TRT-nin tələblərini qəbul etməsindən sonra ölkənin yenidən müsabiqədə iştirak edəcəyini açıqlamışdı.

## Avropa İttifaqının komissarı Azərbaycana gəlir

**Avropa İttifaqının (Aİ) Avropa qonşuluğu siyasəti və genişlənmə üzrə komissarı Yohannes Han sabah Azərbaycana səfər edəcək. Avropa İttifaqının (Aİ) Bakıdakı nümayəndəliyindən APA-ya verilən məlumata görə, səfər aprelin 9-na kimi davam edəcək.**

Azərbaycanda keçiriləcək görüşlər zamanı Avropa Qonşuluq Siyasəti İcmalı üzrə davam edən məsləhətləşmələr, "Şərq tərəfdaşlığı" üzrə Riqa sammiti və Azərbaycanla Avropa İttifaqı arasında ikitərəfli münasibətlər ətrafında müzakirələr aparılacaq.

Xatırladaq ki, bu, Yohannes Hanın Avropa İttifaqının Avropa qonşuluğu siyasəti və genişlənmə üzrə komissarı vəzifəsinə təyin olunmasından sonra Bakıya ilk səfəridir.


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# "Bu mühitin şəffaflığa ehtiyacı var"

Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun Azərbaycan üzrə məruzəsində hüquq sistemindəki korrupsiyadan bəhs edilir

**"Xoşagəlməz təsirin və siyasi müdaxilənin aradan qaldırılması Azərbaycanda qanunvericilik və məhkəmə hakimiyyətində korrupsiyanın ləğvinin ən mühüm şərtidir".**




Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (QREKO) aprelin 2-də dərc edilmiş Azərbaycan üzrə məruzəsində gələnən əsas nəticə bundan ibarətdir. (TURAN)

Bu, parlament üzvləri, hakimlər və prokurorlar arasında korrupsiyanın profilaktikası üzrə Azərbaycandakı vəziyyətin qiymətləndirilməsi haqqında dördüncü hesabatdır.

**QREKO-nun press-relizində deyilir ki, Azərbaycan Konstitusiyasında müstəqillik və hakimiyyət bölgüsü prinsipləri əksini tapıb, amma icra hakimiyyəti qanunvericilik və məhkəmə hakimiyyətinə, o cümlədən prokurorluğa güclü təsir göstərir:** "Bütün bu mühitin şəffaflığa ehtiyacı var və korrupsiyaya və siyasi sifarişlərin yerinə yetirilməsinə meyllidir. Parlamentin deputatlarına gəlincə, onlar ölkə prezidentinin rəhbərlik etdiyi partiyaya mənsubluqları və ya loyallıqları ilə fərqlənirlər. Zəif müxalifət Azərbaycanın siyasi sisteminin xüsusiyyətidir. Bir tərəfdən bunun səbəbi siyasi fəaliyyəti və parlament nəzarətini xeyli məhdudlaşdıran qanunverici məhdudiyyətlərdədir. Hakimlər və prokurorlar bilavasitə və ya dolayısıyla prezident tərəfindən təyin edilir, bir halda ki, Məhkəmə Hüquq Şurası - məhkəmələrin özünüidarə orqanı Ədliyyə Nazirliyinə tabedir. Bu qurum qanunvericilik və məhkəmə hakimiyyətinin fəaliyyətinə qanunsuz təsir və siyasi müdaxilə üçün şərait yaradır, böyük korrupsiya riskləri yaradır. İkinci amil deputatların fəaliyyəti və əmlakı haqqında məlumatlara nəzarətin olmaması, maraqların toqquşmasıdır".

2005-ci il tarixli əmlakın bəyan edilməsi haqqında qanun indiyədək icra edilmir. Bu, məmurların və deputatların əsl gəlirlərini gizlətməyə imkan verir.

Bundan başqa, ictimaiyyət 2012-ci ildə şirkət təsisçiləri və sahibləri haqqında məlumat almaq imkanından məhrum edilib.

Həll edilməsi zəruri olan digər problemlər deputatlar, hakimlər və prokurorlar üçün peşə etikası məcəllərinə uyğun davranış standartlarının işlənib hazırlanması və tətbiqidir"...

Hazırda Azərbaycan da daxil olmaqla, 48 Avropa ölkəsi QREKO-nun üzvüdür.

## Masallıda "yaşıl soyqırım"



**Masallı şəhərində çoxillik, yaşlı ağacların amansız şəkildə məhvinə start verilib. Musavat.com-un cenubnews.com-a istinadən verdiyi xəbərə görə, rayon polis şöbəsinin qarşısından Olimpiya Kompleksinə qədər olan, magistral yolun kənarlarındakı ərazilərdə hazırda qızğın ağackəsmə işləri gedir.**

Xəbərdə bildirilir ki, sözügedən ərazidə tikintilər davam etdikcə yaşıllıqlar da sürətlə azalır.

Təbii ki, rayon rəhbərliyinin razılığı olmasaydı, belə "yaşıl soyqırım" həyata keçirmək, rayonda yeganə yaşıllıq yeri olan ərazidə ağacların kütləvi şəkildə məhv edilməsinə heç kim cürət eləməzdi.

## Lal-kar oğlunu öldürənə prokuror 20 il iş istədi

**Bakı Ağır Cinayətlər Məhkəməsində oğlunu qətl etməkdə təqsirli bilinən Eldəniz Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib. APA-nın məlumatına görə, prosesdə məhkəmə istintaqının başa çatması barədə qərar qəbul edilib. Dövlət ittihamçısı çıxış edərək, təqsirləndirilən şəxsin 20 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Proses aprelin 9-da davam etdiriləcək.**

Qeyd edək ki, ötən il iyulun 21-də Qobu sakini Eldəniz Məmmədov ailə münaqişəsi zəminində 14 yaşlı lal-kar oğlu İbrahim Məmmədovu bıçaqla qətlə yetirib.

# Zərrəçəkənlər "A.M.A.Y. Abdulla"ya qarşı iddiaları olmadığını dedilər

Abdulla Abdullayev: ""Texnikabank"ın monitorinq keçirməsinə maneə ola bilməzdi"



**Bazar ertəsi Bakı Ağır Cinayətlər Məhkəməsində A.M.A.Y. şirkətlər qrupunun rəhbəri Abdulla Abdullayev və təqsirləndirilən daha 5 nəfər üzərində məhkəmə prosesi davam edib. Prosesdə ittiham tərəfinin "zərərçəkən" kimi tanıdığı şəxslər dindirilib, amma onlar da aprelin 3-də dindirililən həmkarları kimi özlərini zərərçəkən kimi tanımadıqlarını deyiblər.**

Zərərçəkənlər A.M.A.Y. rəhbəri A.Abdullayevə qarşı hər hansı iddiaları olmadığını deyiblər. Yeganə tələblərinin Atatürk prospekti 78/80-37-dəki 18 mərtəbəli binada tamamlanma işlərinin başa çatdırılaraq dövlət komissiyası tərəfindən təhvil alınması olduğunu deyiblər. A.Abdullayev keçən məhkəmə prosesində olduğu kimi, yenə də binanın tam tikilib təhvil verilməməsinə günahkar kimi ölkə prokurorluğunu ittiham edib.

Daha sonra 2009-2011-ci illərdə "Texnikabank"dan götürülən kreditlərlə bağlı bankın nümayəndəsi kimi çıxış edən hüquqşünas Ruslan Umudovun dindirilməsi davam edib. Həmin vaxt A.M.A.Y.-ın törəməsi olan 34 firma adıçəkilən bankdan 40 milyon manata yaxın kredit götürüb. Kredit təminatlı olub, belə ki, götürülən kreditlərin əvəzinə A.M.A.Y.-ın qeyri-yaşayış sahələri girov qoyulub. Həm də qoyulan girovlar dəyərinə görə götürülən məbləği iki dəfə üstələyib. Firmalar həmin maliyyə vəsaitlərini 2012-2013-cü illərdə tam şəkildə banka ödəyib. "Texnikabank"ın nümayəndəsinə məsələ mülki olduğu halda nədən bankın məhkəməyə deyil, Korrupsiyaya qarşı Mübarizə İdarəsinə müraciət etdiyi sualı ünvanlanıb. R.Umudov bunu kredit götürən tərəfin verilən maliyyə vəsaitlərinin montorinqini aparmağa imkan verməməsi ilə əlaqələndirib. Öz növbəsində, A.M.A.Y. rəhbəri A.Abdullayev "Texnikabank" rəhbərlərinin daim A.M.A.Y.-da olduqlarını, hər hansı monitorinq keçirmək təşəbbüsü göstərmədiklərini nəzərə çatdırıb. Qeyd edib ki, bankın monitorinq keçirməsinə hər hansı maneə olmayıb və ola da bilməzdi. Sonda bank nümayəndəsi R.Umudov "Texnikabank"ın A.M.A.Y.-a və ya törəmə şirkətlərə hər hansı iddia və tələbləri olmadığını nəzərə çatdırıb.

A.Abdullayev ittiham tərəfinin irəli sürdüyü çirkli pulların yuyulması ittihamının məhkəmə baxışına çıxarılması üzərində təkid edib.

Hakim Ə.Hacıyev növbəti məhkəmə prosesini aprelin 7-nə təyin edib.

## QHT Şurası məlumatlandırma sessiyası keçirib

**Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasında 2015-ci ilin birinci maliyyə müsabiqəsi çərçivəsində maliyyələşdirilən insan hüquqları, demokratiya və şəffavlıq məsələləri istiqamətləri üzrə layihələrin rəhbərlərinin iştirakı ilə məlumatlandırma sessiyası keçirilib.**

Şuradan musavat.coma verilən məlumatda bildirilir ki, toplantıda çıxış edən Şura Katibliyinin icraçı direktoru Fərasət Qurbanov layihələrin icrasında effektiv nəticənin əldə olunması, büdcənin idarə edilməsi, yeni hesabatlılıq qaydaları və layihələrin qiymətləndirilməsi metadologiyası ilə bağlı fikirlərini çatdırıb.

Şura Katibliyinin əməkdaşları Elnur Bağırlı və Mirzağa Zahidov layihələrin idarə olunması, hesabatlılıq, nəzarət və monitorinq məsələləri ilə bağlı təlimatları QHT rəhbərlərinin diqqətinə çatdırıblar. Sessiyada QHT rəhbərləri layihələrin icrasının müxtəlif istiqamətləri, o cümlədən təlimlərin təşkili, hesabatların hazırlanması ilə bağlı sualları səsləndirib. Toplantının sonunda QHT təmsilçilərini maraqlandıran suallar cavablandırılıb.

## Məhkum özünü doğradı

**Bir neçə gün əvvəl Ədliyyə Nazirliyi yanında Penitensiar Xidmətin 7 saylı cəzaçəkmə müəssisəsində intihara cəhd olub.**

AzNews.az xəbər verir ki, məhkumlardan biri həbsxana rəhbərliyinə etiraz əlaməti olaraq, damarlarını kəsib. Zərərçəkmişin yaxınlarının dediyinə görə, o, həbsxana rəhbərinin onu "kars"a salmasına etiraz edib: "Hazırda onun vəziyyəti ağırdır. Qorxularından xəstəxanaya da aparmayıblar. O da çoxlu qan itirib. Hazırda onun vəziyyəti kritikdir".

Məsələ ilə bağlı Penitensiar Xidmət heç bir münasibət bildirməyib. Qurumun mətbuat xidmətindən deyilib ki, hadisə barədə yalnız sorğu vasitəsilə cavab verilə bilər. Lakin aznews.az rəsmi sorğu göndərdikdən sonra nə ona cavab verilib, nə də edilən saysız-hesabsız telefon zənglərinə.

**Başsağlığı**

**Rauf Arifoğlu və Yeni Müsavat qəzetinin kollektivi qəzetin sadiq oxucusu və dostu Çingiz Özgürə anası Səkinə xanımın vəfatı ilə başsağlığı verir.**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# İqtisadiyyatımızda voleybol xalları

**Fikir verirsinizsə, hakimiyyət bəzi stereotiplərdən imtina edib, artıq yenilərini məngirləyib. 1993-cü ildən başlayaraq təxminən 15 il ərzində hər uğursuzluğun, hər çatışmazlığın günahkarı kimi AXC-Müsavat cütlüyünün bir illik hakimiyyəti göstərilirdi. İndi iqtidar deyir ki, Qarabağın azad edilməsinin və digər problemlərin günahkarı mən özüməm. Nə mən səhv yazdım, nə də siz səhv anladınız. Bəli, iqtidar deyir ki, bütün günahlar mənimdir. Özü də rəsmi şəkildə.**

Bunu harda və nə vaxt dediyini yazmamışdan əvvəl, icazənizlə sizə çoxdan bildiyim bir lətifəni danışım.

Nənə nəvəsindən soruşur ki, güldanı kim sındırıb. Nəvə də deyir ki, atam. Nənə bunun necə baş verdiyini soruşur. Nəvə deyir ki, atamla anam dalaşırdılar. Anam güldanı götürüb atama atdı. Atam aşağı əyildi və güldan çilik-çilik oldu. Əgər o əyilməsəydi, güldan onun döşünə dəyib xalçanın üstünə düşəcəkdi və sınmayacaqdı. Bax belə, hörmətli oxucular.

İndi də YAP-ın dediklərinə baxaq. O deyir ki, ölkəmizin analoqu olmayan inkişafı ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Polşa və s. bu kimi ölkələrin yuxularını qaçırıb. Bizim inkişafımızı gözləri götürmür, paxıllanırlar, ona görə də bizə tələlər qururlar, problemlər yaradırlar, məkrli planlar cızırlar və s. Deməli, uzaqgörən, müdrik daxili və xarici siyasət nəticəsində önə çıxmağımız başımıza bəla olub. Əgər biz də Ermənistan kimi zəif, acından ölən ölkə olsaydıq, bizi nəinki özlərinə rəqib və təhlükə mənbəyi görməzdilər, əksinə, yazıqlayıb kömək edərdilər. Üst-başımızın tozunu çırpardılar, burnumuzun fıtdığını silərdilər, cibimizə noğul qoyardılar. İndi gördünüzmü bizə problem yaradan kimiymiş? Hələ 3-4 il bundan qabaq həmin o dövlətlər yığışıb bizim iqtidara minnətçi düşdülər ki, amanın bir gündür, bir az yavaşlayın, day dalınızca yüyürməkdən təngnəfəs olmuşuq, bir az da belə getsə, çatlayacağıq. Bax, heç olmasa onda gəlib ayağımızı tormoza qoymasaq da, qazdan qaldıraydıq. Bunu etmədik. Gərək ki, məşhur xalq mahnısında belə deyilirdi: “Aləm mənə düşmən olmuş, Əsməri sevdiyim için...” Bu mahnını siyasi-iqtisadi müstəvidə anlamı belə olmalıdır: “Aləm bizə düşmən olmuş, bərk getdiyimiz için...” Necə deyərlər, sürmə yüz, yaşa yüz!

Söz düşmüşkən, YAP-ın iqtisadi uğurlarının nədən ibarət olduğu haqda bir belə təhlil aparaq. O deyir ki, düzdür, müəllimlərə, həkimlərə, hərbçilərə hələlik düz-əməlli maaş, təqaüdçülərə və əlillərə normal təqaüd verə bilmirik, əvəzində çoxlu körpü, fontan, park tikmişik, xeyli binanın üzünə alkopan çəkmişik, bir o qədərinin də üzünü qaşımışıq, hərbi büdcəmiz Ermənistanın ümumi büdcəsindən çoxdur və s.

Bir dəfə anası oğlundan soruşur ki, atan nərdivandan yıxılanda nə dedi? Oğul da soruşur ki, işlətdiyi söyüşləri də deyimmi? Anası deyir ki, söyüşləri çıx, yerdə qalanını de. Uşaq bir az fikirləşib deyir ki, atam heç nə demədi. Yəni büdcəmizdən nefti çıxandan sonra yerdə heç nə qalmır. Mən dünyada elə bir əfəl hökumət tanımıram ki, ölkəsinin neftini sata, neftdən gələn pulları xərcləyə bilməsin. Deyirlər, Herodot tarixin atasıdır. Herodotdan üzü bu yana bütün tarixçilərin yazdıqlarını oxumuşam. Hələ rast gəlməmişəm kimsə desin ki, nefti Azərbaycan torpaqlarının altına yapçıların ulu babaları doldurublarmış.

Yəqin ki, voleybol oyununda xalların necə sayılmasından xəbəriniz var. Hər top itkisi rəqibə xal qazandırır. Bir dəfə hansısa voleybol turnirini izləyirdim. Qadın voleybolçular yarışırdılar. Turnirin favoriti autsayderlə görüşürdü. Oyunun bir seti 25-11 hesabi ilə favoritin xeyrinə qurtardı. Oyunu izləməmiş adam elə bilərdi ki, uduzan komanda çarpışıb heç olmasa 11 xal qazanıb, amma elə deyildi. Həmin komandanın qazandığı 11 xalın hamısı qalib komandanın topu servislə oyuna daxil edərkən, auta vurduğu toplar hesabına verilən xallar idi. Yəni güclü komanda topu itirdikcə avtomatik olaraq zəif komandaya xallar yazılırdı. Bax, YAP iqtidarının öyündüyü xallar da məhz o cür xallardır. Onlar qazanılmış xallar yox, “darmavoy” (müftə) xallardır. Bununla öyünmək üçün adamda analoqu olmayan məsuliyyətsizlik lazımdır ki, bəziləri bundan heç korluq çəkmirlər.

İstəyirəm söhbətə burada nöqtə qoyum. Çünki erməni dəyirmanına xeyli su tökdüm. Bir az da artırsam dəhnə dağılar, dəyirmana ümumiyyətlə su getməz. Həm də eşitmişəm ki, həbsxanadan erməni dəyirmanına su tökmək milli mental dəyərlərimizə çox ziddir.

❑ **Tofiq YAQUBLU**

# “Palıdlı Sahil”lə bağlı yeni məqamlar ortaya çıxdı

## Hadı Rəcəbli ailə biznesinə daxil olan restorandan niyə imtina edir?

**Lənkəranın “Palıdlı sahil” İstirahət Mərkəzində əməliyyat keçirilməsi və 5 nəfər gəncin həbs olunduğu haqda məlumat vermişdik. Həbs edilənlərdən birinin adını da yazmışdıq. Bu şəxs 2004-cü ildə “Ginnesin Rekordlar Kitabı”na adı düşmüş Lənkəranın Aşağı Nüvədi kəndinin sakini, 18 yaşlı Ələsgər Rəhim oğlu Həsənzadə olduğu müəyyənləşib. Ə.Həsənzadə 1 saat 45 dəqiqə ərzində barmaqlarının ucu ilə sinəsini yerə vurmamaq şərti ilə 3 min dəfə qalxıb-enib.**

Onun 7 yaşında göstərdiyi bu rekord “Ginnesin Rekordlar Kitabına” düşüb. Çünki Həsənzadəyə qədər dünyada 7 yaşdan aşağı heç kim belə bir rekorda imza atmayıb. Mənbəmiz “Palıdlı sahil” İstirahət Mərkəzinin sahibinin Milli Məclisin Sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli olduğunu da qeyd etmişdi. Hadı Rəcəbli isə obyektin ona aidiyyəti olmadığını bildirib: “Hadi Musa oğlu Rəcəblinin mülkiyyətində heç bir sahibkarlıq obyekti yoxdur. Buna qədər də olmayıb, indi də yoxdur. Dünən gecə mətbuatdan bu barədə xəbər oxudum. Doğrudur, Lənkəranda cinayətkarlığa qarşı ardıcıl mübarizə aparılır. Mən tərəfdən bunlar alqışlanır, müdafiə olunur. Lənkəranda yüzlərlə yer var. Onlarla mehmanxana var. Bunun Hadi Rəcəbliyə nə dəxli var? Mən onların nə özünü, nə də ailələrini tanıyıram. Hadi Rəcəbli işlədiyi dövrdə daxili işlərin Lənkəran Polis Şöbəsinə bir dəfə də olsun zəng etməyib. Bunu inzibati orqanlardan hər kəs soruşa bilər”. Hadi Rəcəbli barəsində yazılar davam edərsə, məhkəməyə müraciət edəcəyini də qeyd edib.

Maraqlıdır ki, ümumdünya elektron axtarış sistemi (google, yandex) vasitəsilə “Hadı Rəcəbli ”Palıdlı Sahil" sözləri yazıb “axtar” düyməsini vurmaqla Lənkənrandakın obyektlə bağlı məlumat əldə etmək olar. Məsələn, bu linkdə - http://azinterkom.com/news/media/168306-hadi-rcbli-gnclri-v-jurnalistlri-quotpaldl-sahilquot-toplad-fotolar.html - deputatın 2013-cü ilin fevralında “Palıdlı Sahil”də tədbirdə iştirakı haqda məlumat və fotolar təqdim olunur.



Hadı Rəcəbli “Palıdlı Sahil”də




“Palıdlı Sahil”in deputatın biznes imperiyasına daxil olması haqda infoqrafika

Bu linkdə - http://www.meydan.tv/az/site/photos/5129/had-r-c-blinin-ail-biznesi-nfoqrafika.htm isə “Palıdlı Sahil”in deputatın biznes imperiyasına daxil olduğu iddia edilir.

Digər tərəfdən də hazırkı oliqarxik quruluşda vəzifə sahiblərindən hansınınsa mal-mülklərini öz adına rəsmiləşdirməsi də ağlasığmazdır. Nəqliyyat nazirindən tutmuş Baytarlıq İdarəsi rəisinə qədər hər hansı vəzifəli rəsmən bu ölkənin kasıb şəxsi ola bilər, amma faktiki bunun belə olmadığını hər kəs bilir. Yəqin ki, hörmətli deputat Hadı Rəcəbli özü də bu haqda məlumatlı olmamış deyil...

❑ **E.HÜSEYNOV**

# Türkiyədə twitter və youtube qapadıldı

## Məhkəmə şəhid edilən prokurorun görüntülərinin internetə sızmasını əsas gətirərək iki böyük şəbəkəyə girişi yasaqlayıb

**Aprelin 6-da Türkiyədə twitter, youtube və facebook kimi sosial şəbəkələrə giriş məhdudlaşdırılıb. Daha sonra facebook şəbəkəsinə girişə qoyulan məhdudiyyət götürülsə də, digər iki şəbəkə qapalı olaraq qalıb.**

Qeyd edək ki, Türkiyə mətbuatının yaydığı məlumatda qeyd olunur ki, İstanbul 1-ci Sülh Cəza Məhkəməsi hakimi Bəkir Altunun imzaladığı qərara əsasən şəhid prokuror Mehmet Səlim Kirazın girov götürülməsi anlarının görüntüləri səbəbi ilə geniş sosial media məhdudiyyəti tətbiq olunub.

Prezidentin sözçüsü İbrahim Kalın sosial şəbəkələrə girişin prokuror Mehmet Səlim Kirazın görüntüləri ilə əlaqədar məhdudlaşdırıldığını, lakin hazırda hər hansı problemin olmadığını bildirsə də, mətbuat bunun əksini sübut edib. Belə ki, Provayderlər Birliyindən "Hürriyet" qəzetinə bildiriblər ki, məsələ ilə bağlı məhkəmə qərarı onlara gəlib çatıb. Bildirilib ki, hazırda qərarın Türkiyənin əsas internet provoyderlərinə təqdim edilməsi davam edir. Artıq ilk olaraq TTNET şəbəkəsinin qərarı aldıqdan sonra şəbəkələrə girişi qadağan etdiyi bildirilir.

Məhkəmə qərarının prokurorun girov götürülmə anının sosial şəbəkələrdə yayılmasının qarşısının alınması məqsədilə verildiyi bildirilir. Vəkil Burçak Ünsal “Hürriyyət”ə açıqlamasında bildirib ki, məhkəmə qərarın prokurorun xilas edilməsi əməliyyatı və şəhid olması kadrlarının internetə düşməsi səbəbindən verilib. Vəkil qeyd edib ki, məhkəmənin qərarı ilə 170 URL ünvanına daxil olmaq imkanları məhdudlaşdırılıb. Eyni zamanda vəkil qeyd edib ki, bütövlükdə xidmətin qadağan edilməsi üçün 5651 sayılı qanunun 9(4) maddəsinə əsaslanmaqla yeni bir məhkəmə qərarı verilməlidir.

❑ **KƏNAN**

# AzTV-də ciddi ixtisarlar başlayıb

## Hökumətin media siyasətində nələr dəyişir?

**Azərbaycan Dövlət Teleradio Verilişləri Qapalı Səhmdar Cəmiyyətində işçilərin ciddi ixtisarı başlanıb. Bu barədə qurumun keçmiş əməkdaşı Kamal Almuradlı sosial şəbəkədəki profilində yazıb. O qeyd edib ki, telekanalda ixtisarlar yeni təyin olunmuş baş proqram direktoru Elsevər Dünyamalıyevin göstərişinə əsasən aparılır: “Elsevər Dünyamalıyev göstəriş verib ki, hər redaksiyanın işçilərinin əlli faizi ixtisar olunsun, həmçinin yerdə qalan işçilərin maaşlarından 50-80 manat arası pul tutulsun.**

Ortaya sual çıxır, bəs yaxşı, bu işçilər lazım deyildisə, nəyə görə işə götürülüb. Əgər lazımdırsa, niyə işdən çıxarılır?”

Bu ilin yanvar ayından bəri isə AzTV-də işçilərin aylıq əmək haqlarının gecikdirilməsi barədə mətbuatda tez-tez məlumatlar yer alırdı. Onlara əmək haqlarının yubanmasının səbəbləri bəlli deyil. İşçilərə mühasibatlığın pulları banka köçürməsi, amma bankın pulları buraxmaması barədə bildirilib. Bankdan isə onların hesabına pulun daxil olmadığı deyilib.

AzTV-də manatın devalvasiyası söhbəti çıxandan işçilərin ixtisar edilməsi gözlənilirdi. Məlumata əsasən, xüsusilə dublyaj studiyalarında və texniki işçilər arasında ixtisarların aparılacağı və bəzi yaradıcılıq verilişlərinin bağlanacağı barədə də qeyri-rəsmi xəbərdarlıqlar edilmişdi.

AzTV-nin timsalında baş verən bu hadisə ümumən media sektorunda son bir neçə ayda yaşanan ciddi ixtisar, büdcənin azaldılması ilə bağlı mənzərəni də yada salmağı mütləq edir. Təxminən bir ay öncə bir gündə 6 saytın bağlanması, ciddi işçi ixtisarı hakimiyyətin media siyasətində fərqli taktika yürütdüyünü göstərir. Neft qiymətinin aşağı düşməsi, qarşıdan gələn Bakı Avropa Oyunlarına sərf olunan milyonlar media sektorunda ixtisarlarla müşayiət olundu. Bunun hökumətin bir çox media layihələrinə təsirsiz ötüşməyəcəyi gözlənilir.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 72 (6100) 7 aprel 2015



# Bir səfərin izi ilə...

Hüseynbala SƏLİMOV

**Külək əslində heç nəyi ayırmır, ağına-bozuna baxmadan hər şeyi qabağına qatıb qovur. Bakı da küləklər şəhəridir. Amma Bakı indi taleləri, yolları ayırır. Ötən həftə rusiyalı kinorejissor N.Mixalkovun Bakıya gəldiyini və rejissorlar üçün ustad dərsi keçdiyini eşidəndə ağlımıza gələn ilk fikir bu oldu... Düşündük ki, bəli, bu səfərdə kimsə, nəsə çatmır... Elə telesüjetdə də həmin o çatmayan epizodu axtarmağa girişdik. Amma o, görünmədi...**

Kim idi o görünməyən kəs?.. Deyim ki, bir ara Mixalkovla onun münasibətlərinin pozulması haqqında da danışırdılar. Bəlkə o görünməyən kəs buna görə "yox"a çıxmışdı?..

Qərəz, kim idi o adam? O, "Səhranın bəyaz günəşi"ndən, "Bir cənub şəhəri"ndən və "Günəşdən usanmışlar"dan tanıdığımız və sevdiyimiz Rüstəm İbrahimbəyov idi...

"Tanıdığımız" sözünü işlətdik. Amma bir anlığa duruxduq: onu həqiqətən də tanıyırqmı?..

Ruslar deyir ki, bir xalis rus filmi var - "Səhranın bəyaz günəşi", onun da ssenarisini qeyri-rus, azərbaycanlı yazıb... Elə bu vaxta qədər Bakı haqqında da bir xalis film çəkilib - "Bir cənub şəhərində"... Onun da ssenarisini İbrahimbəyov yazıb...

Yox, onu hələ də tanımırıq. Əslində onu tanımağa macal tapmadıq. İmkan vermədilər buna. Hələ də düşünürük ki, onu bu ölkədə yaxşı qarşılamadılar, yaxşı münasibət göstərmədilər. Və o da inciyib nəhs bir ildə - 2013-cü ildə siyasətə gəldi...

Bu, bir az gülməli, bir az da ağlamalı idi. Onun siyasətə gəlişi bəlkə kimdəsə hansısa ümidlər yaratmışdı, amma bizə bu, məzəli görünürdü...

Ona görə ki, siyasətçi Rüstəm İbrahimbəyov lazım deyildi bizə, rejissor və ssenarist İbrahimbəyov lazım idi...

Fikirləşirdik ki, o, Bakıda maraqlı kino layihələri edəcək və bu şəhərin üzücü, darıxdırıcı atmosferi azacıq da olsa, təzələnəcək...

Ona görə belə deyirik ki, Zoriy Balayan üslubundakı filmlər, sənədli verilişlər bezdirib bizi. Yox, demirik ki, onlar hamısı gərəksizdir, amma bu işlərin faydası hələ də bizə aydın deyil, başa düşmək olmur ki, bununla kimi təşviq-təbliğ etmək istəyirlər?..

Qərəz, İbrahimbəyovun maraqlı layihələri olmalı idi. Biri yadımdadır, polyak rejissoru K.Zanussini dəvət etmişdi Bakıya...

Amma ən maraqlısı kino evi ilə bağlı deyilənlər idi. Təəssüf ki, həmin kino evi tikilmədi...

Adamlar var ki, onlar Bakıda olanda Bakı şəhərə oxşamağa, şəhərə bənzəməyə başlayır. Amma başqa vaxt düşürsən bu şəhərin canına, piyada ora vurursan özünü, bura vurursan... Amma bu boyda şəhərdə gizlənmiş şəhəri tapa bilmirsən...

N.Mixalkovu çox yüksək səviyyədə qarşıladılar. Düz də elədilər. Kişi Rusiya Kinematoqrafiya İttifaqının başçısıdır. Amma onun kimi elə bizim özümüzün də kino adamımız var - Rüstəm İbrahimbəyov...

Bilirsiniz, avtoritar hakimiyyətlər çox qəribə şeydir. Bir dəfə eşidəndə ki, bəs Türkmənistanın prezidenti oxumağa başlayıb, buna heç təəccüblənmədik...

Bu adamları hər gün o qədər tərifləyirlər ki, onlar da başlayırlar inanmağa ki, guya hamıdan istedadlıdırlar, Tanrının seçdiyi bəndələrdirlər: oxusalar hamıdan yaxşı oxuyar, şəkil çəksələr hamıdan yaxşı çəkər, hətta istəsələr kino işini də hamıdan yaxşı bilərlər...

Ona görə də belə ölkələrdə İbrahimbəyov kimi adamlara yer tapılmır... Bəlkə də kimsə onu bizdən yaxşı tanıdığını düşünür. Ola bilər. Belə iddiamız yoxdur və ola da bilməz.

Siyasətçi İbrahimbəyova münasibətimizi dedik. Bəlkə elə "o biri İbrahimbəyovlar" da belədir - bütün bəndələr kimi qüsurlu, bir az paxıl, bir az da tamahkar?..

Bunda işimiz yoxdur, çünki bizi bir İbrahimbəyov maraqlandırır - kino adamı, sənət adamı İbrahimbəyov. O sənət adamı ki, onu da bu gün rejissorlar, artistlər arasında görmək istərdik. Amma o, görünmədi. Böyük ehtimalla ona görə ki, onun görünməsi "məsləhət deyil"di...

Sənətçilər Tanrının xoşbəxt insanlarıdı. Onlar Tanrının xoş vədəsində dünyaya gəliblər. Bir daha deyirik ki, siyasətçi İbrahimbəyov haqdakı fikrimiz bəlkə də qıcıq yaradacaq. Məsələn, ona görə ki, Fransada qondarma erməni "soyqırım"ını təftiş etməyi yasaq edən bədnam qanun qəbul edilində o, həmin ölkənin ordenindən imtina etdi. Amma Fransa titulları başqalarında da vardı və onlar bunu etmədilər...

Nə demək olar? Bəlkə də hər şey başqa cürdür və ya başqa cür də ola bilərdi. Gəl, belə oldu, çünki bu ölkə belə ölkədi. Bəlkə də ona görə belədi ki, Bakı da küləkli şəhərdi. Küləkdə isə ağaclar əyri bitir...

# İŞİD-ə qoşulanlar məhkəmədə ilginc ifadələr verdilər

## Suriyada döyüşən azərbaycanlılar özlərini təqsirli bilmədilər; "Biz insanlıq borcumuzdan çıxmaq üçün ora getmişdik"

**Aprelin 6-da Bakı Ağır Cinayətlər Məhkəməsində Suriyadakı döyüşlərdə iştirak etməkdə təqsirləndirilən 6 nəfərin məhkəmə prosesi davam etdi. Hakim Ənvər Seyidovun sədrliyi ilə keçən məhkəmə təqsirləndirilən şəxs Tural Həsənovun vəkili Elmar Süleymanovun vəsatəti ilə başladı. Vəkil təqsirləndirilən şəxslərin dəmir "qəfəs"dən çıxarılıb müdafiəçilərinin yanında əyləşdirilməsi ilə bağlı vəsatət verdi. Dövlət ittihamçısı vəsatətin əleyhinə çıxış etdi.**

Hakimlər yerində müşavirə edərək vəsatəti rədd etdilər.

Daha sonra prokuror təqsirləndirilən şəxslərə qarşı ittiham aktını elan etdi. Bu maddələr üzrə təqsirləndirilən şəxslərin heç biri özünü təqsirli bilmədi. Onların valideynləri də etiraz səslərini ucaltdılar, övladlarının günahsız yerə həbs olunduğunu bildirdilər.

Hakim etirazlar davam edərsə, əlavə tədbirlər görəcəyini söylədi. Bundan sonra zalda sakitlik yarandı.

Proses təqsirləndirilən şəxslərin ifadələri ilə davam etdi.

**Ruslan Mustafayev ifadəsində Suriyaya yardım etmək üçün getdiyini bildirdi:** "2013-cü ilin sentyabrında avtobusla getdim. Oktyabrın 2-də qayıtdım. Az müddət Suriyada qaldım. Heç bir qruplaşmanın üzvü olmamışam. Yaranan vəziyyəti görüb geri qayıtdım. Mən ora gedəndə vəziyyət qarışmamışdı. Artma şəhərində olmuşam. Daşıdığım ad "Əbu İsmayıl" olub. İkinci dəfə ölkə xaricinə çıxmaq istəyəndə saxlanıldım. Bu dəfə Türkiyəyə işləmək üçün gedirdim. İstintaqda mənə qarşı irəli sürülən əlavə maddələrlə razı deyiləm".

Hakimin "Suriyaya güllə qabağına getmək olarmı" sualına təqsirləndirilən şəxs cinayət olduğunu bilmədiyi üçün getdiyini söylədi.

**"Abu Hüseyn" ləqəbli Namiq Məmmədov ifadəsinə proses iştirakçılarını salamlamaqla başladı:** "Bizi MTN həbs edib. Orada hansısa yollarla istənilən izahata qol çəkdirirlər. Bunu hamı təsdiq edə bilər. Müstəntiq mənə aidiyyəti olmayan suallar verirdi. 2013-cü ilin oktyabrında İstanbula, oradan Suriyaya getdim. İki aydan sonra qayıtdım. İstintaqda əvvəlcədən əlbir olmaqla, mütəşəkkil cinayətkar dəstə yaratmaq ittihamını boynuma qoymaq istədilər. İttihamda olanların çoxunun mənə aidiyyəti yoxdur. 27 dekabrda ölkəyə qayıtmışam. İttihamda adı olan Musab Azərini tanımıram. Amma tamam başqa şeylər yazılıb. Suriyadakılara yardım etmək üçün 5 min civarında Ruslana pul vermişəm. İttihamda İŞİD-lə bağlı olan hissələr sübut olunsun, istənilən cəzasını çəkməyə hazıram".

**Daha sonra "Abdulhakim" ləqəbli Elvin Əliyevin ifadəsi dinlənildi:** "2013-də İstanbula, oradan da Suriyaya getdim. 12 yaşımdan xəstəyəm. MTN-də məni bərk sıxdılar. Böyrəklərimə vurdular. Amma həkimə tamam başqa şeylər yazdırıblar. Məcbur edirdilər ki, qol çək. Təlimlərdə iştirak etməyimlə bağlı. Bizə sübutsuz maddələr tətbiq etdilər. Xahiş edirəm ki, siz ədalətli olun. Qarabağ müharibəsi vaxtı bizə də çeçen, əfqanlar kömək edib. Biz də insanlıq borcumuzdan çıxmaq üçün Suriyaya getdik".

Ənvər Seyidov ifadəni yarımçıq kəsərək, çeçen və əfqanların Azərbaycanda döyüşlərdə pul müqabilində iştirak etdiklərini bildirdi.

**Ardınca E.Əliyev girov götürülməsindən danışdı:** "Yanvarın 29-da ölkəyə qayıtdım. Suriyada rəhbərimiz Musab Azəri olub. Orada əsir düşdüyümə görə ölkəyə gec qayıtdım. Bazarda olduğum vaxt qəflətən hücum oldu. Bəşər Əsədin tərəfdarları idi. Əsir alınaraq, 20 gün saxlanıldım. Başqa qrupun adını verdiyim üçün azad olundum. Ondan sonra Azərbaycana gəldim. Həbs olunduğum vaxt ifadəni mənə döyə-döyə yazdırdılar. Dəhşətli işgəncələr verdilər".

**Digər təqsirləndirilən şəxs Tariyel Mustafayev:** "Bayaqdan burada nağıllara qulaq asıram. 1999-cu ildən qeydiyyatdayam. Ruhi xəstəyəm. Suriyaya müalicə olunmaq üçün oktyabrın 5-də getmişəm. Müalicə almışam. Nə deyirəmsə, sözün düzünü deyirəm. Olduğum yer döyüş bölgəsi deyil. Sərhəd zonadır. Dövlət ciddi qoruyur. Yanvarda Azərbaycana qayıtdım. Namaz qıldığım üçün bizə vəhhabi adı verdilər. İndi də terrorist damğası vurulur. Mənə 100 il verilsə belə, sözün düzünü deyəcəm. 33 ildə bir dəfə də olsun, polis və dövlət əleyhinə çıxmamışam. İndi hamı mənə vəhhabi deyir. Güzgüdə özümə baxanda sual verirəm, bu cinayətləri törədən mənəm? 4 maddəni üzərində daşıyan bin Ladenəm? Uşağa desən gülər. Müstəntiq rəhmli olmadı. Namuslu bir insanam. Qardaş deyiriyim xəstə bir adamın evinə gedəndə Ruslanı orada tanıdım. Yoldaşım Türkiyədə xəstə idi. Ölkəyə qayıtması üçün Ruslandan pul istədim. Pul əsnasında bir dəfə telefon danışığımız olub. Bundan başqa heç bir əlaqəm olmayıb".

**Təqsirləndirilən şəxs istintaq zamanı işgəncələrə məruz qaldığını, təhdid edildiyini bildirdi:** "Yenə də qorxmadım. Cavablarını verdim. Məni evə buraxdılar. Bir müddətdən sonra şəxsiyyət vəsiqəmi götürmək üçün MTN-ə dəvət olundum. Atamla getdim. Binanın önündə atama dedim ki, vəsiqəni götürüb çıxıram. O çıxan, bu çıxan, hələ də çıxıram... Cavid Quliyev içəri girən kimi mənə bildirdi ki, bura gələnlər cəza çəkmək üçün gəlirlər. Məni orada saxladılar. Sonra qəzetdən oxudum ki, 26 nəfərlik dəstə olub. Həyat yoldaşıma zor tətbiq edərək, qol çəkdiriblər. 11 aydır balamı qucağıma ala bilmirəm. Taleyimizlə maraqlanan yoxdur. Müalicə olunduğum yerlərin adı var. Ruhi xəstə olduğum faktdır. Amma nəzərə alan yoxdur".

**Ardınca "Faruk" ləqəbli Fərid Muradov ifadə verdi:** "2013-cü ildən ibadətlə məşğulam. Allah yolunda kömək etməyi borc bilmişəm. Suriyada Xalid adlı azərbaycanlı ilə tanış olmuşam. Gedərkən bütün borclarımı ödədim. Fikirləşdim ki, ailəni pis vəziyyətdə qoymayım. Çünki hər şey ola bilərdi. Gücüm çatdığı qədər orada kömək etmişəm. Azərbaycana qayıtdıqdan 4-5 ay sonra MTN-ə çağırıldım. Əlimə qandal vurdular. İfadəm təsdiqini tapsa, buraxacaqlarını dedilər. Təklikdə qalmaq çox ağır idi. Ailəmlə belə görüşə bilmirəm. Mənimlə birlikdə olan şəxslərin heç birini tanımıram.




Ruslanla yalnız yol yoldaşı olmuşam. Nə etmişəmsə, dinimdən dolayı etmişəm. İŞİD-lə heç bir əlaqəm olmayıb. Heç bir cinayət belə törətməmişəm".

**"Abu Rauf" ləqəbli Tural Həsənov isə ifadəsində dedi ki, 20 günlüyə Suriyaya gedib:** "Yanlış insanlar olduğunu görüb qayıtdım. Yaralılara yardım etmək üçün getdim. Artma şəhərində olmuşam. Təlimlərdə olmamışam. Suriyada nə kömək etmişəmsə, açıqlamalı deyiləm. Əqidəm uğrunda işlər görmüşəm. Orada milyonlarla insanın köməyə ehtiyacı var. Amma Azərbaycanda bu qədər insan köməksiz deyil. Ölkəyə könüllü qayıtmışam".

Xatırladaq ki, Suriyada baş verən hadisələrdə iştirak etmək ittihamı ilə ölkəmizdə 40-a yaxın şəxs həbs edilib. Onların barəsində Cinayət Məcəlləsinin 214-cü (terrorçuluq), 218-ci (cinayətkar birlik), 279-cu (qanunda nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) maddələri ilə cinayət işi qaldırılıb.

❑ **Cavanşir ABBASLI**
**Foto müəllifindir**

YENİ MÜSAVAT

N 72 (6100) 7 aprel 2015

**Hesablama Palatası sensasion hesabat açıqlayıb. Qurumun dövlət orqanlarında apardığı yoxlamaların nəticələri elan edilib və bəlli olub ki, Azərbaycanda dövlət qurumunun vəzifəli şəxsləri tərəfindən dövlətə külli miqdarda ziyan vurulub. Hesabatda qeyd edilir ki, aşkarlanan pozuntular əsasında tərtib olunan materiallar araşdırılması məqsədilə aidiyyəti üzrə müvafiq orqana göndərilib.**

# Vəzifəli şəxslər dövləti yeyib-dağıdıb - rəsmi hesabat

## Hesablama Palatası ilginc korrupsiya sənədi açıqladı: Dövlət qurumlarında 17,1 milyon manatlıq yeyinti aşkarlanıb; qurumun hazırladığı hesabat Milli Məclisdə müzakirə olunacaq

"Trend"in məlumatına görə, dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Genetik Ehtiyatlar İnstitutuna ayrılan vəsaitlərin və büdcədənkənar daxilolmaların icrasına dair, “Aqrolizinq” ASC-yə dövlət büdcəsindən ayrılan və təkrar istifadə edilən vəsaitlərin proqnozlaşdırılması və istifadəsinə dair, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Sosial Təminat Xidmətinin Bərdə rayon əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən dövlət büdcəsindən ayrılan vəsaitlərin icrasına dair və dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşundan və ehtiyat fondlarından 2011-2013-cü illər və 2014-cü ilin I yarımilliyi üzrə Kürdəmir Rayon İcra Hakimiyyətinə ayrılan vəsaitlərin istifadəsinə dair aparılmış nəzarət tədbirlərinin nəticələri Hesablama Palatasının Kollegiyasında müzakirə edilib.

AMEA-nın Genetik Ehtiyatlar İnstitutu, “Aqrolizinq” ASC-nin, ƏƏSMN yanında Dövlət Sosial Təminat Xidmətinin Bərdə rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin və Kürdəmir Rayon İcra Hakimiyyətinin vəzifəli şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə, etibar edilmiş dövlət əmlakından, ayrılmış büdcə vəsaitlərindən qanunsuz istifadə halları, büdcə öhdəliklərinin icra edilməməsi, iş həcmlərinin artırılması halları müəyyən olunub.

Kürdəmir RİH-ə ayrılan vəsaitlərin istifadəsinə dair keçirilən audit nəticəsində vəsaitlərin istifadəsi zamanı dövlət vəsaitlərinin səmərəsiz istifadəsi ilə nəticələnən bir sıra ciddi nöqsanlara yol verildiyi məlum olub. "Report"un xəbərinə görə, hesabata əsasən, 2 halda satınalmalar üzrə mövcud qanunvericiliyin tələblərinə əməl edilməyərək satınalma prosedurları keçirilmədən layihə-smeta sənədlərinin hazırlanmasına vəsait xərclənib, tikinti-quraşdırma işlərinin birbaşa müqavilələrlə yerinə yetirilməsinə müvafiq icazənin olmadığı və vəsait ayrılmadığı halda 6 obyekt üzrə satınalma müqavilələri bağlanılıb, podratçıların ixtisas göstəriciləri araşdırılmayıb.

RİH-dən Hesablama Palatasına mövcud normativ aktların tələbləri pozularaq avans təminatı və avansın istifadə olunmasını əsaslandıran sənədlərin surəti təqdim edilmədən 6 obyekt üzrə podratçı təşkilata avans ödənilib. Ümumilikdə altı obyekt üzrə 13042,1 manat dəyərində inventar və avadanlıqların müvafiq podratçılar tərəfindən quraşdırıldığı, on obyekt üzrə yerinə yetirilməyən 31034 manat məbləğində tikinti işlərinin yerinə yetirilməsi, malların *(işlərin, xidmətlərin)* satınalınması zamanı bu sahəni tənzimləyən qanunvericilik aktlarının tələblərinə tam əməl olunması bildirilib.



Hesabatda o da qeyd olunub ki, işində nöqsanlara yol verən 3 nəfər, o cümlədən RİH başçısının müavini, bir şöbə müdiri və bir böyük məsləhətçi tutduğu vəzifədən azad olunub.

Eyni zamanda məlumatda qeyd olunur ki, borcların uçotdan yayındırılması və digər maliyyə pozuntuları, ünvanlı dövlət sosial yardımlarının, sosial müavinətlərin və təqaüdlərin təyin olunması və ödənilməsində ciddi hüquq pozuntularına yol verilməklə külli miqdarda ödənişlərin həyata keçirilməsi, rəsmi sənədlərlə yalan məlumatların daxil edilməsi və bir sıra digər ciddi nöqsan və çatışmazlıqlara yol verilməklə dövlətə ümumilikdə 17,1 milyon manat zərər vurulması ehtimalı nəzərə alınaraq yuxarıda qeyd olunan təşkilatlar üzrə yoxlama materialları Baş Prokurorluğa göndərilib.

Azərbaycan Dövlət Neft Akademiyasında büdcədən ayrılan vəsaitlər və büdcədənkənar daxilolmalarla bağlı ciddi nöqsanlar aşkarlanıb, iki prorektor, bir neçə dekan və şöbə müdiri ilə yanaşı, 13 nəfər barəsində tədbir görülüb. APA xəbər verir ki, hesabata əsasən, yoxlama zamanı aşkarlanıb ki, ödənişli əsaslarla təhsil alan əcnəbi tələbələrdən təhsil haqqı nağd qaydada yığılaraq banka təhvil verilib, tədris ilinin əvvəlində akademik məzuniyyətə gedən və təhsil haqqının müəyyən hissəsini ödəyən magistrlər üzrə debitor borc hesablanmayıb. Müqavilə şərtlərinə əməl edilməyərək, tələbə sırasından xaric edilmiş birinci kurs tələbələrindən təhsil aldığı müddət üçün təhsil haqqının alınması təmin edilməyib. Kafedralar üzrə artıq laborant ştatı saxlanılıb, doktorantların və dissertantların sayının normadan az olmasına baxmayaraq, doktorantura şöbəsi, artıq kafedralar yaradılıb, tələbə şəhərciyindəki yataqxanalarda qaçqın və məcburi köçkünlər məskunlaşsa da işçilər saxlanılıb və ehtiyac olmadığı halda əcnəbi tələbələrlə iş üzrə dekanlıq yaradılıb, tədris korpusları üzrə artıq ştat vahidləri saxlanılıb. Nazirlər Kabinetinin müvafiq qərarlarının tələblərinə əməl edilməyərək artıq qruplar yaradılaraq müəllimlərə əmək haqqı, habelə akademik borcu olan tələbələrə təqaüd ödənilib.

Büdcədənkənar vəsaitlər üzrə ştatdankənar işçilərin əmək haqqı və əməyin ödənişi ilə bağlı kreditor borc hesablamalarda ilin sonuna az göstərilib, nəqliyyat vasitələri istisna olunmaqla, digər əsas vəsaitlər və uzunmüddətli inventar və avadanlıqların inventarizasiyası müvafiq qaydada həyata keçirilməyib.

Hesablama Palatasının Kollegiyası auditin nəticələrini müzakirə edərək, aşkarlanan nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində qanunvericiliyə uyğun zəruri tədbirlərin həyata keçirilməsi və görülmüş işlərə dair Hesablama Palatasına məlumatın təqdim edilməsi barədə qərar qəbul edib. Həmin qərar icra üçün Təhsil Nazirliyinə və Dövlət Neft Akademiyasına göndərilib. Nəzarət tədbirlərinin nəticələri üzrə Milli Məclisə məlumat verilib.

Neft Akademiyası tərəfindən 32304,9 manat vəsaitin dövlət büdcəsinə bərpası, 16937,8 manat dəyərində maddi dəyərlərin artıqlığının uçota bərpası, 4333,0 manat dəyərində əlavə təmir işlərinin görülməsi, 5194,6 manat dəyərində əsas vəsaitlərin və 957,0 manat debitor və 18794,0 manat məbləğində kreditor borcun uçota alınması, əsassız artırılmış anbar qalığının 34578,0 manat məbləğində azaldılması, artıq və lüzumsuz ştatlar üzrə 211,5 ştat vahidinin ixtisarı, Nəsimi Rayon Mühafizə İdarəsi ilə müqavilə şərtlərinin dəyişdirilməsi, Mülki Mühafizə Xidməti ilə müqavilənin ləğv edilməsi təmin edilib.

Eyni zamanda nöqsanlara yol vermiş 13 nəfər barəsində müvafiq intizam tənbehi tədbirlərinin görüldüyü, o cümlədən 1 dekanın vəzifəsindən azad edildiyi, baş mühasibə və 1 dekana, anbar müdirinə və 2 aparıcı mühasibə şiddətli töhmət, tədris işləri və inzibati - təsərrüfat işləri üzrə prorektorlara, 3 dekana və şöbə rəisinə töhmət elan edildiyi bildirilib. Hesabat aprelin 14 - də Milli Məclisdə müzakirəyə çıxarılacaq.

***

Nəzərə çatdıraq ki, Hesablama Palatası artıq ikinci ildir ki, konkret korrupsiya faktlarını özündə əks etdirən hesabatlar açıqlayır. Quruma Heydər Əsədovun *(hazırda kənd təsərrüfatı naziridir - red.)* rəhbərliyi dövrdə Hesablama Palatası formal bir qurum təsiri bağışlayırdı. 2013-cü ildə quruma Vüqar Gülməmmədov yeni sədr gətirildi. Bəzi ekspertlər qeyd edirlər ki, V.Gülməmmədov hakimiyyət daxilində qruplaşma oyunlarında ciddi iştirakçı olmadığı üçün onun dövründə qurum obyektiv yoxlamalar həyat keçirməyə müvəffəq olub. Eyni zamanda o da iddia edilir ki, V.Gülməmmədov yalnız iki-üç nazir-oliqarxın nəzarətindəki qurumlar istisna olmaqla, bütün dövlət orqanlarındakı maliyyə vəsaitlərinə dair real vəziyyəti rəhbərliyə çatdırmaqda sərbəstdir və ona kimsə təzyiq göstərmir. Ancaq təbii ki, mövcud idarəetmə sistemində yalnız 4 qurumun maliyyə pozuntularına yol verdiyi də inandırıcı deyil. Hər halda, görünən budur ki, hesabatda daha çox yeyinti olduğu şübhə doğurmayan qurumların adlarına rast gəlinmir. Bu səbəbdən iddia olunur ki, məlum hesabatın hazırlanmasında subyektiv meyarlar da rol oynayıb.

❑ **Hazırladı: T.ƏHMƏDLİ**

# Baş Prokurorluqdan Lamiyə Quliyeva açıqlaması

## Sabiq dustaq qadının türmədə necə ana olması ilə bağlı suala hələ də aydınlıq gətirilməyib

**Məhkum Lamiyə Quliyevanın 2014-cü ilin oktyabrında saxlanıldığı 4 saylı cəzaçəkmə müəssisəsində ana olması ilə bağlı Baş Prokurorluqda araşdırmalar davam etdirilir. Bu haqda “Yeni Müsavat”ın sorğusuna cavab olaraq qurumun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov bildirib. Xidmət rəhbəri araşdırmaların nəticəsi haqda ictimaiyyətə əlavə məlumat veriləcəyini açıqlayıb.**

Göründüyü kimi, 3 aydır başlandığı elan olunan araşdırmaların nəticəsi haqda sual isə açıq qalır. Yada salaq ki, bu ilin yanvarında L.Quliyevanın məhbəsdə ikən ana olması haqda məlumat yayılıb. Bundan bir müddət sonra Penitensiar Xidmət məhkum qadının məhkum Elnur Rəsulovun toxum mayesini məktubla ona göndərməsi nəticəsində ana olması haqda məlumat yayıb.

Fevral ayında isə araşdırmalara Baş Prokurorluq da qoşulub. E.Rəsulov prokurorluq əməkdaşlarına ifadəsində Lamiyə Quliyevanın dünyaya gətirdiyi körpənin atası olduğunu etiraf edib. Lakin o, Lamiyə Quliyeva ilə kamerada görüşdüyünü təkzib edib. Deyib ki, Bakı İstintaq Təcridxanasının qadınlar üçün nəzərdə tutulmuş hissəsinə məktubla özünün toxum mayesini yollayıb. Tibdə bu üsul “Ekstrakorporal mayalanma” (EKM) adlanır. İnsanlar arasında “süni mayalanma” kimi tanınır. Ümumdünya tibbi statistik məlumatlara əsasən, EKM tətbiq edildikdən sonra orta hesabla 30-35 faiz hallarda hamiləlik baş verir. Nəzərə alınmalıdır ki, statistik məlumat stasionar şəraitdə həyata keçirilən əməliyyata aiddir. Həkimlərin həyata keçirdiyi əməliyyat zaman belə hamiləliyin baş tutması 30-35 faizdirsə, Lamiyə Quliyeva həbsxana şəraitində müsbət nəticəyə necə nail ola bilib? E.Rəsulovun adından yayıldığı andan yalan olması şübhə doğurmayan bu açıqlamanı L.Quliyeva özü də təkzib edib. Deyib ki, Bakı İstintaq Təcridxanasında saxlanılarkən onunla E.Rəsulovun görüşünə şərait yaradılıb. Mərkəzi Klinik Xəstəxananın ginekologiya şöbəsinin müdiri Mahirə İsmayılova da məktubla ana olma haqda deyilənlərin cəfəngiyyat olduğunu açıqlayıb. Araşdırmaların ləng getməsinin işin ört-basdır edilməsinə xidmət etdiyi haqda məlumatların yayılmasına da səbəb olub.



Lamiyə Quliyeva

Xatırladaq ki, L.Quliyeva və onun nişanlısı olmuş V.Əliyev 2003-cü ilin mayında o dövrdə Şəmkirin icra başçısı olan Aslan Aslanovun oğlu Ruslanı öldürməkdə suçlu biliniblər. L.Quliyeva 10 il, V.Əliyev isə ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum olunublar. L.Quliyevanın həbs müddəti 2012-ci ildə 5 il 6 ay müddətinə uzadılıb. Əgər bu qərar olmasaydı, 15 yaşında həbs olunan məhkum qadın 2013-cü ilin mayında azad olunmalı idi. Bunun əvəzində onu 2015-ci ilin fevralında - məhkum qadının həbsdə ana olması ictimailəşəndən sonra azad etdilər. L.Quliyeva azadlığa çıxandan sonra həbs müddətinin A.Aslanovun sifarişi ilə uzadıldığını bəyan edib.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 72 (6100) 7 aprel 2015

# İqtidarın "ərəb açılımı"



# Prezident Əliyevin Ərəbistana qəfil səfərinin pərdəarxası

## Hakimiyyət sakit görünsə, müxalifətin mitinqlərini görməzdən gəlsə də, yeni bir böhranla üzləşməmək üçün təcili önləmlər almaqdadır; Səudiyyə Ərəbistanına səfər mümkündür ki, Moskva və Tehranda qısqanclıqla qarşılansın; amma daha bir sensasion versiya da var...

**Azərbaycan prezidenti İlham Əliyevin aprelin 5-də Səudiyyə Ərəbistanına gözlənilməz səfəri medianın ən çox diqqət yetirdiyi mövzulardan birinə çevrilib. Bu səfərin Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və baş naziri, Dubayın Əmiri Şeyx Məhəmməd bin Rəşid Əl-Maktumun Bakıya səfərindən dərhal sonra gerçəkləşməsi Azərbaycanın ərəb dünyasının iki lider dövləti ilə münasibətlərinin yeni mərhələsi kimi izah edilir.**

Əsas iddialar bu yöndədir ki, neftin qiymətinin düşməsindən sonra Azərbaycan iqtidarı ərəb dünyasından ölkəmizə investisiya cəlb edilməsi yönündə ciddi fəaliyyətə başlayıb. Prezidentin səfər proqramında kral Salman bin Əbdüləziz əl-Səudun da daxil olmaqla, görüşdüyü şəxslərin siyahısına diqqət edək: krallığın Ticarət Palataları Şurasının sədri, neft və minerallar naziri, maliyyə naziri, İslam İnkişaf Bankı Qrupunun prezidenti... Bütün bu görüşlərdə də müzakirə edilən əsas məsələ iqtisadiyyat, infrastruktur və digər sahələrdə müxtəlif layihələrin həyata keçirilməsi olub.

***

Türkiyə hökumətinin yaxın illərdə sınaqdan keçirdiyi bu strategiya uğur qazandığından indi Azərbaycan hakimiyyəti də Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Qətər kimi zəngin ölkələrlə təmasları sürətləndirib. Üstəlik, Tehranın hərbi nüvə proqramından imtinası regionda İran kimi nəhəng enerji oyunçusunun illərdir tıxanmış yollarını da açacaq ki, bunun da Azərbaycana təsiri qaçılmazdır. Azərbaycan iqtidarının planlarındakı çox iri layihələr, xüsusən Bakının baş planının gerçəkləşməsi neftin qiymətinin enməsi ilə risk altına düşür. Yəni yaxın illərdə xarici kapitala, böyük investisiyalara ciddi ehtiyac duyulacaq ki, bu pulları Azərbaycanın aid olduğu regional qurşağından - Avropadan istəməyin yeri yoxdur. Əvvəla, ona görə ki, Azərbaycan Avropa Birliyinə üzv deyil və qurumla əməkdaşlıqda ehtiyatlı ikitərəfli əlaqələrə üstünlük verir. İkinci bir tərəfdən, investisiyalar yatırımında qoyulan şərtlər ya çox ağırdır *(Yunanıstanın düşdüyü vəziyyəti xatırlayın)*, ya da demokratik institutların yaradılması, şəffaflıq və korrupsiya ilə mübarizə kimi tələblər Azərbaycan hakimiyyəti üçün sərfəli deyil. Bu baxımdan, ərəb dünyasından təcili investisiya cəlb edilməsi iqtisadiyyatımız üçün uzun müddətli "şok terapiyası" hesab oluna bilər.

Artıq hökumət rəsmiləri də ehtiyatla olsa da, manatın ikinci devalvasiyasından danışmağa başlayıblar. İqtidar sakit görünməyə çalışsa da, Bakıda müxalifətin mitinqlərini görməzdən gəlsə də, yeni bir böhranla üzləşməmək üçün təcili önləmlər almaqdadır.

***

Azərbaycan hakimiyyətinin ərəb şeyxləri ilə bu cür fövqəladə təmaslara start verməsinin dünyada baş verən proseslər fonunda o qədər də uyğun zamana dəng gəlmədiyini də vurğulamaq lazımdır. Səudiyyə Ərəbistanı indi dünyanın ən çox diqqətdə olan ölkələrindən biri, bəlkə də birincisidir. Yəməndə şiə husilərin qanuni hakimiyyəti devirməsindən sonra Səudiyyə Ərəbistanı sərhədlərində yerləşən bu ölkəyə hərbi müdaxilə edib. Bu müdaxilə BMT-nin sanksiyası olmadan gerçəkləşib və ilk növbədə Azərbaycanın qonşusu olduğu iki ölkədə ciddi narahatlıq doğurub. Söhbət Rusiyadan və İrandan gedir.

Rusiya ABŞ-ın Fars körfəzində ən sadiq müttəfiqi olan Səudiyyə Ərəbistanının Yəmənə hərbi müdaxiləsini pisləyir və BMT Təhlükəsizlik Şurasının sanksiyası olmadan belə bir əməliyyatların başlanmasını neçə gündür dayandırmağa çalışır. Rusiya əlbəttə ki, Yəməndə bombardmandan ölən vətəndaşları deyil, özünün mənafeyini düşünür. Çünki ABŞ-ın dəstəyi ilə Yəmənə bu cür müdaxilə sabah BMT sanksiyası olmadan Ukraynaya da Amerika qoşunu yeridilməsini mümkün edə bilər. Səudiyyə Ərəbistanı ilə Rusiyanın münasibətləri həm də Suriya məsələsində toqquşub. Səudiyyə Ərəbistanı Kremlə Bəşər Əsədə dəstəkdən çəkinmək üçün hətta astronomik rəqəmdə silah müqaviləsi təklif etmişdi. Amma Kreml Əsəd rejiminin arxasında dayandı və Rusiya sanksiyalara məruz qaldıqdan sonra varlı ərəb ölkələri ondan üz çevirdi. Rusiya məcbur olub Çinə, Amerika ilə düşmən olan iqtisadiyyatı dağılmış Latın Amerikası ölkələrinə (məsələn, Qvatemala və Venesuelaya) üz tutdu.

İran da Yəməndə hakimiyyətə gəlmələri üçün dəstək verdiyi şiə huşilərə müharibə elan edən əzəli düşməni Səudiyyə Ərəbistanını şiddətlə qınayır. Belə bir vəziyyətdə Azərbaycanın dövlət rəhbərinin Səudiyyə Ərəbistanına səfəri mümkündür ki, ölkəmizə heç də xoş münasibəti olmayan iki odioz qonşunun paytaxtlarında - Moskva və Tehranda qısqanclıqla qarşılansın.

***

Bu məqama diqqət çəkən ekspertlərdən biri "Azərbaycan hakimiyyəti investisiyalar məsələsində nə qədər tələssə də, ola bilməz ki, regiondakı vəziyyəti nəzərə almasın" deyə, "Yeni Müsavat"a fikir bildirib. Ekspert hətta bu cür qəfil səfər barədə sensasion iddia da irəli sürüb. **"Rəsmi Bakı indi hətta Yəmən məsələsində Rusiya-İran- Səudiyyə Ərəbistanı arasında vasitəçi ola da bilər və bu versiyanı mümkün hesab edirəm"** deyə, bildirib.

**❑ Xəbər xidməti**

# YAP-la AMİP eyni qurumda təmsil olunacaq

## **Arzuxan Əlizadə:** "Üzvlüyə qəbulla bağlı bir sıra prosedurları keçmişik"

**Yaxın aylarda YAP-la AMİP-in Avropa Xalq Partiyası ilə bu quruma rəsmi üzv olmaq üçün saziş imzalayacaqları gözlənilir. Bu barədə "Yeni Müsavat"a daxil olan xəbərdə deyilir ki, məsələ AMİP rəhbərliyinin mart ayının üçüncü ongünlüyündə Avropaya səfəri zamanı Avropa Xalq Partiyasında keçirilən görüşlərdə müzakirə olunub.**

Xəbəri dəqiqləşdirmək üçün AMİP-in baş katibi Arzuxan Əlizadə ilə əlaqə saxladıq.

"YAP-la AMİP-in Avropa Xalq Partiyasına üzv qəbul ediləcəyi haqda xəbərlər yayılıb. Doğrudurmu? Doğrudursa, niyə məhz YAP-la" suallarına **Arzuxan Əlizadə** belə cavab verdi.

"Biz 7 ildən artıqdır ki, Avropa Xalq Partiyası ilə əməkdaşlıq edirik. AXP-nin Marseldə, Buxarestdə və Dublində keçirilən son üç konqresində iştirak etmişik və bir neçə dəfə həm Brüsseldə AXP-nin baş ofisində, eləcə də Bakıda rəhbərlik səviyyəsində görüşlərimiz olub. Üzvlüyə qəbulla bağlı bir sıra prosedurları keçmişik. Düşünürük ki, yaxın gələcəkdə üzvlüklə bağlı məsələ reallaşacaq. Bunu mart ayında keçirilən son görüşümüzün nəticələrinə əsasən deyirəm. AXP-nin konqreslərində YAP nümayəndələrinin də iştirakının şahidi olmuşuq. Ümumiyyətlə, bizdə olan məlumata əsasən, Azərbaycandan AXP ilə AMİP, bir də YAP əməkdaşlıq edir. Amma YAP-ın AXP üzvlüyünə qəbulu ilə bağlı məsələlərin hansı səviyyədə olması ilə bağlı məlumatsızıq".

**Arzuxan Əlizadə onu da bildirdi ki, AMİP yarandığı dövrdən etibarən beynəlxalq əlaqələrə xüsusi önəm verib və bu gün ölkədə fəaliyyət göstərən siyasi təşkilatlarla müqayisə olunmayacaq dərəcədə əhatəli beynəlxalq əlaqələrə malik partiyadır:** "Partiya 1999-cu ildən dünyanın 80-ə yaxın ölkəsindən 100-ə qədər sağ mərkəz yönümlü siyasi partiyanı özündə birləşdirən Beynəlxalq Demokrat İttifaqının (İDU) tam hüquqlu üzvüdür. Partiyanın lideri Etibar Məmmədov 2005-ci ildən etibarən 3 dəfə ardıcıl olaraq seçilməklə bu nüfuzlu beynəlxalq təşkilatın sədr müavini postunu tutur. Partiya BDİ çərçivəsində bir sıra ölkələrin aparıcı siyasi təşkilatları ilə əməkdaşlıq edir. Bu əlaqələrin davamı olaraq artıq 7 ildir ki, AMİP Avropa Parlamentində ən böyük fraksiya olan Avropa Xalq Partiyası (EPP) ilə də əməkdaşlıq edir. Ötən müddət ərzində partiya rəsmiləri AXP-nin Marsel, Buxarest və Dublində keçirilən qurultaylarında iştirak ediblər. Son 3 il ərzində əlaqələrimiz daha intensiv xarakter alıb. Bu illər ərzində AXP-nin mərhum prezidenti Vilfrid Martens və sabiq beynəlxalq əlaqələr katibi Nikolas Breyk Bakıya səfərləri zamanı AMİP rəhbərliyi ilə görüşlər keçiriblər. Eyni zamanda son üç il ərzində biz də AXP rəhbərliyi ilə görüş məqsədilə Brüsselə səfərlər etmişik və budəfəki sayca üçüncü səfərimiz əlaqələrin möhkəmləndirilməsi baxımından çox əhəmiyyətli idi. Budəfəki səfərimiz bilavasitə AXP rəhbərliyinin rəsmi dəvəti əsasında reallaşdı.

İkitərəfli görüşlər zamanı 7 ildən artıq tarixi olan AMİP-AXP münasibətləri yüksək qiymətləndirildi və bu münasibətlərin inkişafında hər iki tərəfin maraqlı olduğu vurğulandı. Eyni zamanda məxsusi olaraq AMİP-in AXP-yə üzvlük məsələsi və digər ikitərəfli maraq doğuran məsələlər də müzakirə olundu".

**AMİP rəsmisinin dediyinə görə, Gürcüstan və Ermənistanın hər birindən iki siyasi partiya AXP-yə müşahidəçi üzv qismində qəbul olunurlar. Avropa üçün əhəmiyyətliliyinə, iqtisadi potensialına, karbohidrogen ehtiyatlarına və bir sıra digər önəm daşıyan xüsusiyyətlərinə görə regionun aparıcı dövləti olmasına baxmayaraq Azərbaycandan heç bir siyasi təşkilat hələ AXP-də rəsmi təmsil olunmur:** "Bu isə heç şübhəsiz bizi narahat etməyə bilməz. Biz bu məsələni xüsusi olaraq AXP rəhbərliyinin diqqətinə çatdırdıq. Biz siyasət mənsubları olaraq çalışmalıyıq ki, mümkün qədər çox beynəlxalq qurumda təmsil olunaq və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında öz töhfəmizi verək. Budəfəki görüşümüzdə mən AXP-nin yeni rəhbərliyinin bizim yaxın zamanlarda rəsmi statusla AXP-yə üzv olmağımızda maraqlı olduğu qənaətinə gəldim. Yeni Azərbaycan Partiyası da AXP ilə əlaqələrə malikdir və AXP rəsmiləri Azərbaycanı AXP-də AMİP-lə yanaşı, hakim partiya olaraq YAP-ın da təmsil etməsində maraqlı görünürlər. Sadəcə, bəzi kriteriyalar var ki, onlara cavab verilməlidir və yalnız bundan sonra üzvlük rəsmiləşə bilər".

**❑ Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 72 (6100) 7 aprel 2015



# AŞ PA-da "100 illik" qarşıdurması

## Aprelin 24-də ermənilər Avropa Şurasında "soyqırım" tamaşasına hazırlaşır

**Avropa Şurası Parlament Assambleyasının aprelin 24-də keçiriləcək sessiyasında Ermənistan parlament nümayəndə heyətinin həmin gün 100 illiyi qeyd olunacaq "erməni soyqırımı" məsələsini gündəmə gətirəcəyi gözlənilir. Avropadakı erməni lobbisi isə həmin gün Avropa Şurasının binası önündə aksiya keçirməyə hazırlaşır. Bu haqda "Yeni Müsavat"a informasiya verən qaynağın sözlərinə görə, ermənilər Avropa parlamentarlarına soyqırımın tanınması ilə bağlı müraciət hazırlayıb.**

Avropa Şurasının aprelin 20-24-dək davam edən sessiyasının gündəliyinə qondarma soyqırım iddiaları ilə bağlı heç bir məsələ salınmayıb. Avropa Şurasının saytında göstərilir ki, yaz sessiyasının gündəliyində Ermənistanda keçirilən prezident seçkisinin nəticələri, Türkiyə ilə monitorinqsonrası dialoq, gənclərin fundamental hüquqlar əldə etməsi məsələləri daxil edilib. Bundan başqa, sessiyada Avropa Şurasının insan haqları üzrə komissarı son dönəm fəaliyyəti ilə bağlı hesabat verəcək, Almaniya prezidenti və Gürcüstan baş naziri çıxış edəcək. Avropa Şurası Nazirlər Komitəsinin fəaliyyətdə olan sədri, Belçikanın xarici işlər naziri Didye Reynders qurumun qış sessiyasından keçən dövrdəki fəaliyyət barədə hesabat verəcək, ardınca sərbəst dinləmələr olacaq.

Sessiyada Avropa İnsan Haqları Məhkəməsinə yeni üzvlərin seçkisi keçiriləcək, Avropa Şurasının baş katibi Torbyorn Yaqland deputatların ona ünvanlayacağı sualları cavablandıracaq. Avropa Şurasının 2016-2017-ci illər üçün büdcəsi və prioritetləri, İŞİD terror qruplaşmasının insanlığı təhdid edən hərəkətləri müzakirə ediləcək.

Sessiyanın son 2 günündə Avropada insanlara qarşı diskriminasiya halları və qitədə sosial xidmətlər ətrafında fikir mübadiləsi aparılacaq, insan haqları üzrə komissarın rəhbərlik etdiyi qurumun 2014-cü ildəki fəaliyyətinə dair hesabatı dinləniləcək, Monako ilə pozitiv dialoq və digər məsələlər müzakirəyə çıxarılacaq.

AŞ PA-nın yaz sessiyasının gündəliyinə Azərbaycanla bağlı heç bir məsələ salınmayıb. Bu səbəbdən AŞ PA sessiyalarında davamlı iştirak edən bir sıra vətəndaş cəmiyyəti üzvləri Strasburqa getməyəcək, ölkəni yalnız Milli Məclisin qurumdakı nümayəndə heyəti və hakimiyyətə yaxın bir sıra QHT-lər təmsil edəcək.

**İnsan Haqları üzrə Monitorinq Qrupunun üzvü Səidə Qocamanlı "Yeni Müsavat"a açıqlamasında deyib ki, Azərbaycanla bağlı hər hansı məsələnin müzakirəsi gözlənilmədiyindən insan haqları müdafiəçiləri yaz sessiyasına qatılmayacaq:** "Azərbaycanla bağlı məsələ AŞ PA-nın iyun ayında keçiriləcək yay sessiyasında müzakirə ediləcək, ona görə də biz budəfəki sessiyaya qatılmağa heç bir lüzum görmədik. May ayının 28-də Respublika Günü ilə bağlı yenidən əfv fərmanının olacağı ehtimalı böyükdür. Ola bilər ki, Azərbaycanda siyasi məhbus problemi həmin fərmandan sonra müzakirə edilsin".

**Erməni deputatlarının "soyqırım" məsələsini sərbəst müzakirələr zamanı gündəmə gətirəcəyi gözlənilir. Heç şübhəsiz, bu iddialara Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyətindən və Azərbaycan parlamenti üzvlərindən cavab olacaq. "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyir ki, ermənilərin bu məsələdə başarılı olacağı gözlənilən deyil:** "Ermənistan "soyqırımın" 100 illiyi ilə bağlı aktiv fəaliyyətdədir. Ermənistanın həm rəsmi qurumları, həm vətəndaş cəmiyyəti institutları, həm də lobbi fəaliyyəti ilə məşğul olan qurumları müxtəlif ölkələr və təşkilatlara sözün həqiqi mənasında hücuma keçiblər. Erməni lobbisinin bu məsələ ilə bağlı AŞ PA-da uğur qazanacağı inandırıcı deyil. Ola bilər bir qrup erməni deputat "soyqırım" qətnaməsini səsverməyə çıxarmağa cəhd etsin, bununla bağlı konkret təkliflərlə çıxış etsin. Bu yerdə Türkiyə və Azərbaycan nümayəndə heyətlərindən çeviklik tələb olunacaq. Çünki bəzən zalda oturan azsaylı deputatların köməyi ilə də istənilən qətnaməni qəbul etdirmək mümkün olur. Belə hallar AŞ PA praktikasında dəfələrlə olub. Odur ki, Azərbaycan və Türkiyə nümayəndə heyətləri bütün toplantılarda iştirak etməli, ermənilərə fürsət verməməlidirlər".

**Elxan Şahinoğlunun sözlərinə görə, "erməni soyqırımı" məsələsinin AŞ PA-da müzakirəyə çıxarılması qurumla Türkiyə və Azərbaycan arasında narazılıq nöqtəsinə çevrilə bilər:** «Azərbaycan və Türkiyə nümayəndə heyətləri AŞ PA-nın iclasını gözləmədən də indidən AŞ PA-dakı avropalı həmkarları ilə təmaslara başlamalıdırlar. Avropalı deputatlara anlatmaq lazımdır ki, "soyqırım" qətnaməsinin qəbulu nəinki Türkiyə ilə münasibətlərə zərbə vuracaq, bu məsələ Azərbaycanın da mənafelərinə toxunur. AŞ PA Dağlıq Qarabağ məsələsinə həssas yanaşır, bütün sənədlərində Azərbaycanın ərazi bütövlüyünə önəm verir. Deməli, AŞ PA rəhbərliyinə bildirilməlidir ki, "soyqırım" qətnaməsinin qəbulu bu təşkilatın Dağlıq Qarabağ probleminin həllindəki səylərini də heçə endirə bilər".

Bu məsələdə daha bir ilginc məqam var. Avropa Şurasının bütün sessiyaları keçirildiyi ayın son həftəsinə salınır. Yaxın günlərə qədər yaz sessiyasının da aprelin 27-də başlanacağı gözənilirdi. Ancaq sonradan bəlli olub ki, qurum sessiyanın tarixini bir həftə önə çəkib. İnformasiyalı qaynaqlar iddia edir ki, bu məsələdə də erməni diasporunun "əməyi" var.

❑ **Aygün MURADXANLI**

# Müsavat Divanı mitinq qərarı vermədi

**Aprelin 6-da Müsavat Partiyası Divanının iclası keçirilib. Partiyadan verilən xəbərə görə, Divanda qərarların icrası və görülən işlər barədə məlumat verilib. Zəngilan rayon təşkilatının 7 nəfərdən ibarət Təşkilat Komitəsi təsdiq edilib.**

Müsavat Məclisinin son toplantısının səmərəli keçdiyi qeyd olunub. Məclisin sessiyasında müzakirə olunan məsələlər və qəbul edilən qərarların partiyanın cari fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Məclisin sessiyasında müzakirə edilərək əsas kimi qəbul edilən normativ sənədlər Məclis üzvlərinin təklifləri, qeyd və düzəlişləri nəzərə alınmaqla təsdiq edilib. Məclisdə qəbul edilən qərarların icrası ilə bağlı ayrı-ayrı Divan üzvlərinə müvafiq tapşırıqlar verilib.

Divan üzvü Səxavət Soltanlının Gürcüstanda əsas məruzəçi Avropa İttifaqının Genişlənmə və Avropa Qonşuluq Siyasəti üzrə keçmiş komissarı Ştefan Fülenin iştirakı ilə keçirilən "Cənubi Qafqazda gənc siyasətçilərin Forumu" haqqında məlumatı dinlənilib. O bildirib ki, Ş.Fülenin məruzəsinin əsas devizi Avropanın Şərqə doğru genişlənməsi olub. S.Soltanlının Forumda "Anti-diskriminasiya siyasəti" mövzusunda ayrıca məruzə ilə çıxışı Divan tərəfindən yüksək qiymətləndirilib.

İctimai-siyasi vəziyyətlə bağlı İran və Qərb ölkələri arasında imzalanan razılaşma müzakirə olunub. Bu razılaşmanın regionda gedən proseslərə ciddi təsir edəcəyi, Yaxın Şərqdə və Cənubi Qafqazda yeni siyasi şəraitin yaranmasına səbəb olacağı qeyd olunub.

Sonda cari məsələlərə baxılıb.

Divanın iclası barədə yayılan rəsmi məlumatda Müsavatın 19 apreldə mitinq keçirməsi barədə Məclisin 5 aprel sessiyasında irəli sürülən təklif haqda isə informasiyaya rast gəlinmir.

Xatırladaq ki, Müsavat Məclisində başqan müavini Elman Fəttah 19 aprelə aksiya təyin olunmasını təklif edib. Bundan sonra isə 19 apreldə mitinq keçirilməsi ilə bağlı məsələ ciddi müzakirə olunub. Məclis üzvlərinin təklifləri dinlənilib və məsələ barədə Divanda müzakirələr aparılması və bundan sonra son qərarın verməsi razılaşdırılıb.

Divanın dünənki iclasında isə məsələ barədə yekun qərar verilmədiyi yayılan informasiyadan görünür.

❑ **E.SEYİDAĞA**

# Anti-Qərb ritorikası nə vəd edir?



**Azər RƏŞİDOĞLU**

**Azərbaycanda yenə də anti-Qərb çıxışları populyarlaşıb. Bu gün Azərbaycanda müşahidə edilənlər tezliklə ölkədə Qərb dəyərlərini müdafiə etməyin müşkülə çevrilə biləcəyi ehtimalını yaradır.**

Əlbəttə ki, Vaşinqtonun siyasətini tənqid etmək olar və lazımdır. Lakin bunu isterik vəziyyətə çatdırmaq, ABŞ və Qərb ölkələrini Azərbaycanın "bir nömrəli düşməni" kimi qabartmaq xoş olmayan tendensiyaların aktuallığından xəbər verir.

Rəsmi Bakı Qərbin insan haqları ilə bağlı tələblərini düşmənçilik kimi dəyərləndirir. Lakin demokratiya tələbi heç bir halda şəxsi işlərə müdaxilə hesab edilə bilməz. Sadəcə olaraq, Azərbaycanın geopolitik kursunu şimala doğru dəyişdirmək istəyənlər anti-Qərb isteriyası qaldırmaqla Azərbaycanı Rusiyaya təqdim etmiş olurlar.

Bir daha vurğulamaq yerinə düşər ki, Azərbaycan siyasətində yeni "Əliheydər Qarayev"lər peyda olub.

Onlar anlamalıdırlar ki, ruslar gələndə ilk növbədə ölkənin maraqlarını satanları güllələyəcəklər. Yaranan təəssürat ondan ibarətdir ki, Azərbaycanı yenidən əsir düşərgəsinə çevirmək istəyən rusmeyillilər "beşinci kolon" rolunu oynamaqda davam edirlər.

Azərbaycanı Kremlə təhvil vermək arzusunda olanlar unudurlar ki, Rusiya siyasi elitası özü də gələcək perspektivi Avropa ilə əməkdaşlıqda görür. Məhz buna görə də Rusiya siyasi elitası pullarını Avropa banklarında saxlayır. Rusiya siyasi hakimiyyətinin ən yüksək pilləsində təmsil olunan simaların övladları Avropada təhsil alır, orada biznes fəaliyyəti ilə məşğul olur. Avropa daha təhlükəsizdir. Biznes maraqlarına görə, təhsilin və səhiyyənin səviyyəsinə görə, insan kimi yaşamağa görə də Avropa daha təhlükəsizdir. Elə bu amil Azərbaycan məmurlarını da vadar edir ki, övladlarını təhsil üçün Qərbə göndərsinlər. Siyasi karyera qurmaq üçün bizim məmurların övladları məhz Qərb ölkələrində lobbi fəaliyyəti ilə məşğul olurlar. Qərb Azərbaycan siyasi hakimiyyətinin üz tutduğu "xilas kəməri"dir. Rusiya ilə əməkdaşlıq isə təhlükəlidir. Biznes fəaliyyəti qurmaq üçün də yararlı deyil. Digər tərəfdən, Kreml Bakıya təzyiqlərini artırır. Göründüyü kimi, Azərbaycan təklənmiş durumdadır. Belə vəziyyətdə, faktiki olaraq hamının etirazını göz önünə almaq və Rusiyaya doğru addımlamaq gələcək gərginlikdən xəbər verir.

İslahatları həyata keçirməyə, narazı tərəflərin şərtlərini yumşaltmağa yönəlmiş addımlar atmağa siyasi iradə lazımdır.

Bu baxımdan, rəsmi Bakının davranışı çoxsaylı suallar doğurur. Belə ehtimallar da mövcuddur ki, Rusiyanı təzyiqlərə təhrik etmək rəsmi Bakının manevrləridir.

Belə ki, iqtidar daima coğrafi şəraitindən yaraqlanaraq, "düşmən qonşular" əhatəsində yerləşdiyini Qərbə nümayiş etdirib və bunun dividentlərini qazanıb. Hazırda isə Qərbin Azərbaycan iqtidarına təzyiqlərinin artdığı bir zamanda yenidən Rusiya tərəfindən sıxıldığını, bunun isə ABŞ-ın enerji layihələrinə ciddi zərbələr endirdiyini nümayiş etdirmək Bakının aldadıcı manevrləri ola bilər.

Yeni Rusiya Qərbin enerji layihələrinin təminatçısı kimi çıxış edən Azərbaycan hakimiyyətini "bitirmək" istəsə, ikincinin rəsmi Bakıya dəstək verməkdən başqa yolu qalmır. Lakin əgər "Azərbaycan məsələsi"ndə tərəflər razılığa gələlər, vəziyyət daha da ağırlaşa bilər.

Hakimiyyətin seçəcəyi yol hamını düşündürür. Sağlam məntiq və ölkənin gələcəyi Rusiyanın "beşinci kolon"unun təmizlənməsini zəruri edir.

Ehtimal etmək olar ki, Rusiya öz təhdidlərini bundan sonra da davam etdirəcək. Bu təhdidlər rəsmi Bakını qərbyönümlü siyasi kursdan üz çevirməyə vadar etməyə yönələcək. Bu hədələrə isə Qərbin reaksiyası da önəmli olmalıdır. Rusiya faktiki olaraq müstəqil ölkəni işğal ilə hədələyir.

Moskvanın şantajlarının artdığı bir vaxtda Azərbaycanın xarici siyasətində baş verən dəyişikliklər nə dərəcədə məqbuldur? Yoxsa Moskva öz istəyinə çatır?

Rusiyanın təhdidlərinin genişləndiyi bir vaxtda isə Qərblə əməkdaşlıq daha məqbul görünür...

YENİ MÜSAVAT
N 72 (6100) 7 aprel 2015

# Yazı və döyüş haqda kitablar



**Zamin HACI**
**zaminhaci@gmail.com**

**Bu yaxında demək olar eyni vaxtda 2 kitabı oxuyub bitirmişəm, çox bəyəndiyim üçün bu kitablar haqda fikirlərimi dəyərli oxucularla bölüşmək istərdim.**

Kitablardan biri populyar Amerika yazıçısı Stiven Kinq-in “Yazı sənəti” adlı kitabı idi. O birisi isə azərbaycanlı döyüşçü İlham Ağalarovun “Şərti adı: 1020" kitabı. Oxuyub qurtaranda öz-özümə düşündüm ki, görəsən, bu iki kitabı birləşdirən gizli bağlar nədən ibarət idi, axı mən bunları niyə paralel oxuyurdum? Belə baxanda bu müəllifləri bir-birindən minlərlə kilometr ayırır. Stiven Kinq Amerikanın Men ştatında yaşayır, İlham Ağalarov isə Füzuli rayonunun Horadiz qəsəbəsində böyüyüb, yanılmıramsa hazırda Bakıda ömür sürür. Biri peşəkar yazıçıdır, o birisini isə peşəkar da olmasa, zorən peşəkar hərbçi adlandırmaq mümkündür.

Məncə, elə kitabları yaxınlaşdıran ilk növbədə onları peşəkarların yazması idi. İki peşəkar, biri yazı, o biri döyüş sənəti haqda kitab yazmışlar.

Kinq indiyə qədər 350 milyondan çox kitab satmış, qorxu, detektiv, mistika, fentezi kimi ədəbi janrlarda dünyada tanınan kitabların müəllifidir. Bilirəm, bizim camaat kitab oxuyan deyil, o üzdən Stiven Kinqi tanıyanlarımız da ola bilsin azdır. Amma hər halda, Kinqin romanları əsasında çəkilən çox populyar filmləri yəqin hər kəs görübdür: “Parıltı” *(rejissor Stenli Kubrik)*, “Şouşenkdən qaçış” *(bu film uzun illərdir İMDb reytinqində 1-ci yerdə qalır)*, “Yaşıl mil” *(Tom Henksin türmə nəzarətçisi rolunu oynadığı möhtəşəm film)* və sairə.

Bu mənada, Kinqin yazı sənəti haqda, kitab yazmağın sirləri haqda fikirləri məncə hər kəs üçün maraqlıdır. Özəlliklə də yazı-pozu işləri ilə məşğul olanlar üçün.

Çox sevindirici haldır ki, “Yazı sənəti” birbaşa ingilis dilindən - orijinaldan çevrilib və tərcüməçi Kazım Səlimovun əməyini yüksək qiymətləndirirəm. Hətta şişirtmədən yaza bilərəm ki, Kazım bəy mərhum Tehran Vəliyevdən *(Selincerin tərcüməçisi)*, Vilayət Quliyevdən *(Oruellə dilimizdə heykəl yaradan insan)* sonra ingiliscədən ən yaxşı tərcüməçilərimizdən biridir. Səlimov bu tərcümədə nəinki ingilis dilinin, o cümlədən doğma dilimizin də necə deyərlər, cikinə-bikinə bələd olduğunu göstərib, çünki “Yazı sənəti”ndə Kinq bir çox filoloji söz oyunlarından da yararlanmışdır, tərcümə ilə məşğul olanlar belə ifadələri çevirməyin çətinliyini yaxşı bilir. Doğrusu, bu, Səlimovun oxuduğum ilk tərcüməsi idi, ümid edirəm davamı gələcəkdir.

İndi isə döyüş sənəti kitabı haqda fikirlərim... Sözün açığı, Ağalarovun kitabını ilk görəndə bunun da Qarabağ savaşı haqda şablon, trafaret kitablarımızdan biri olduğunu düşünmüşdüm *(Yəqin müəllif inciməz)*. Belə kitablarda adətən müəlliflər özlərini “Rembonun bacısı oğlu”, erməniləri isə qorxaq toyuqlar kimi təsvir edir, hər döyüşdə meydanda azı 80 düşmən meyiti qoyub çıxırlar. Gopun biri-bir qəpiyə olur. Amma 1992-1998-ci illər ərzində Azərbaycan ordusunda könüllü özünümüdafiə dəstəsinin komandirliyindən korpus xüsusi kəşfiyyat bölüyünün komandirliyinə qədər böyük döyüş yolu keçmiş, dəfələrlə yaralanmış, 2-ci dərəcəli Qarabağ əlili İlham Ağalarovun “Şərti adı: 1020" kitabı bütün belə cızmaqaralardan xoş mənada, yerlə göy qədər fərqlənir.

İlk növbədə, mən kitabın bir səmimi ruhda yazılmasını qeyd etmək istərdim. Ağalarov heç nəyi şişirtmir, hansısa döyüş anını təsvir edəndə o anda düşmənin peşəkarlığını da qeyd edir. Eyni zamanda müəllif üstündən 20 ildən çox vaxt keçməsinə baxmayaraq bir çox hərbi sirr xarakterli faktları gizli saxlayır, bu da bir çox diletant müəlliflərə dərs ola bilər. Kitabda yersiz pafos yoxdur. Adı çəkilən qəhrəman döyüşçülərin sonrakı taleyi haqda detallı məlumatlar verilir. Bəzi anlarda Ağalarovun qələmi sanki Heminquey, Remark qələminə dönür, savaşın bədii izahatını aparır. Məsələn, bu sitatlara baxın: “Özü də müharibənin bir özəlliyi də ondadır ki, orada bayram, bazar günləri başqa günlərdən seçilmir. Burada təbiət kimi zaman da başqa meyarlarla ölçülür. Hər dəqiqənin bir hökmü olduğundan həyəcanla dolu günlərin bir-birini əvəzləməsi bilinmir”, “Güllələr başımız üstündə leylək dimdiyi kimi şaqqıldayırdı”, “Hüsniyyə yaramı sarıyanda hönkürüb ağladı, onun üstünə qışqırdım ki, ay qız, bəsdir ağladın, işini gör”, “Barıtın, trotilin iyi tüstüyə qarışıb havaya hopduğundan adamın burnunda döyüş "ətiri" deyilən bir təm yaradırdı" və sairə.

Arzu edərdim Ağalarovun döyüş xatirələrinin ardını da yazsın.

# “ABŞ-İran müharibəsi başlayır” deyənlər Tehran-Qərb razılaşmasından danışdılar

**Rəsmi Tehran illərdir davam etdirdiyi dirənişlərinin məntiqi nəticəsi olaraq böyük bir uğura imza atdı. Azərbaycanın ikinci böyük qonşusunda sevinclə qarşılanan Lozanna anlaşmasının müsbət və mənfi cəhətləri barədə ən müxtəlif rəylər, proqnozlar səslənir.**
**Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər Qərb-İran anlaşmasını mühüm siyasi hadisə kimi qiymətləndirib.**

**Qərb-İran anlaşmasının Azərbaycanın Qərbdə önəminin azalması ilə bağlı iddialarının müəyyən mənada həqiqəti əks etdirdiyini etiraf edən mərkəz rəhbərinin fikrincə, bu anlaşma eyni zamanda Azərbaycan üçün yeni imkanlar açır:** “Azərbaycan da dünyanın yenilənmə istiqamətindən düzgün nəticə çıxararaq ölkəmizin demokratikləşməsi, azad dünya ilə əlaqələrin gücləndirilməsi istiqamətində addımlar atmalıdır. Bu halda Qərb-İran anlaşması Azərbaycanın da maraqlarına köklü dərəcədə faydalı olacaq”.

Bir sıra ekspertlərin qənaətincə isə bu anlaşma İranı özünə “nəfəslik” hesab edən Ermənistana əlavə imkanlar yaradır. Belə ki, işğalçı ölkə müsəlman qonşumuzun əl-qolunun açılması şəraitində daha geniş imkanlar əldə edə bilər. Böyük neft-qaz ehtiyatlarına malik İranın Qərblə dil tapması şəraitində Avropa üçün alternativ enerji mənbəyi sayılan Azərbaycanın önəminin azalacağı, üstəlik, ölkəmizin coğrafi əhəmiyyətinin arxa plana keçəcəyi də təxmin olunur.

ABŞ-İran qarşıdurmasının ən pik dönəmində müharibə anonsları verən, lakin ehtimalları doğrulmayan ekspertlərimizlə də danışdıq.

“Həqiqətən də 2006-2010-cu illərdə Corc Buş dönəmində ABŞ-ın bu məsələni hərb yolu ilə həll etmək planı olub və müharibənin başlanma ehtimalı da çox yüksək olub. Zamanı gələndə, arxivlər açılanda bu barədə faktlar ortaya çıxacaq. Mənim o zaman istifadə etdiyim məlumatlar isə kəşfiyyat məlumatları idi. Bu barədə mən şəxsən məlumatlar almışdım”. **Bu fikirləri politoloq Sülhəddin Əkbər “Yeni Müsavat”a açıqlamasında söylədi. İndiki barış vəziyyətinə gəldikdə, o bildirdi ki, Obama hakimiyyəti dövründə xarici siyasətdə ciddi korrektələr olub:** “Həmin dövrdə ABŞ cəmiyyətində bir yorğunluq da var idi. Bəzi dövlətlərin sərt mövqeyinə baxmayaraq, Obama ”yumşaq güc"dən istifadə etdi və son nəticədə İranla müəyyən razılaşma əldə olundu. Onu da deyim ki, tərəflər indiki situasiyada çox ehtiyatlı mövqe sərgiləyirlər. Çünki hələ hansısa saziş imzalanmayıb. İndiki halda ABŞ-ın özündə də narahatlıqlar var. O baxımdan mən də situasiyaya ehtiyatlı yanaşanlardanam".



**Vəfa Quluzadə:** “Tehran Ukrayna-Rusiya qarşıdurmasında öz məqsədinə çatdı”



**Sülhəddin Əkbər:** “Mənim o zaman istifadə elədiyim kəşfiyyat məlumatları idi”

**ABŞ-İran anlaşmasının konkret nəticələrinə gəldikdə, S.Əkbər hesab edir ki, Azərbaycanın maraqları baxımından birmənalı fikir bildirmək çətindir:** “Bakıdan baxış bucağı altında yanaşdıqda, birincisi, İran neft və qaz ölkəsidir, neft ehtiyatına görə dünyada dördüncüdür. İran enerji bazarında mühüm yer tutur. Bu anlaşma dünya bazarında neftin və qazın qiymətinin kəskin aşağı düşməsinə səbəb olacaq. İkincisi, enerji bazarında Azərbaycanın, o cümlədən Rusiyanın çox güclü rəqibi ortaya çıxacaq, enerji təhlükəsizliyində Azərbaycanın önəmi aşağı düşəcək. Eyni zamanda coğrafi mövqeyimizin önəmi aşağı düşəcək”.

**S.Əkbərə görə, ilk baxışdan belə görünür ki, bu razılaşma Bakı ilə Tehranın münasibətlərini normallaşdırmaq üçün şərait yaradacaq:** “İran-Azərbaycan münasibətlərinin normallaşması üçün şərait yaransa, bu, qonşu ölkənin Azərbaycana yatırım qoymasına imkan verəcək. O cümlədən Azərbaycanın İranla ticarət, iqtisadi əlaqələrini gücləndirmək, enerji layihələrində iştirak imkanları artacaq. Amma digər tərəfdən, İran hələ sanksiyalardan ciddi zərbələr aldığı dövrdə aqressiv xarici siyasət aparırdı. Yəni İran o vəziyyətində belə Suriya, Livan və Yəməndə çox aqressiv xarici siyasət aparır, hərbi əməliyyatları dəstəkləyirdi. Təsəvvür edin ki, sanksiyalardan sonra İran hansı siyasət yürüdəcək. O baxımdan bu məsələ hərtərəfli analiz olunmalıdır. Ən müsbət tərəfi İranın nüvə silahı əldə etməməsi, böyük potensial təhlükənin ortadan qalxmasıdır”.

**Zamanında müharibə proqnozu verən politoloq Vəfa Quluzadə dedi ki, o vaxt ABŞ-İran müharibəsi lap yaxında olub:** “Suriya ilə də müharibə az qala başlayacaqdı. Amerika gəmilərini Suriya sahillərinə çəkmişdi, bir həmləyə Əsəd rejimini məhv edəcəkdi. Ancaq buna getmədi, geri qayıtdı, bu böyük strateji məsələdir. İran o zaman İsrail üçün böyük təhlükə sayılırdı, İsrail də istəyirdi ki, Amerika İranı vursun. Yaxşı ki, baş vermədi. Əgər baş versəydi, dünyada başqa hadisələr yaşanacaqdı. ABŞ başa düşdü ki, əsas təhlükə İran deyil. Çünki İran hələ nüvə silahını yaradacaqdı. Amma sovetlər dövründən qalmış nüvə raketlərinin hamısı Amerika və NATO-ya tuşlanmış vəziyyətdədir. Yəqin ABŞ bunu nəzərə alaraq və Suriyada yeni müharibəni arzuolunmaz sayaraq buna getmədi. Yəni böyük strateji maraqlar İrana zərbə vurmağa qoymadı və Tehran Ukrayna-Rusiya qarşıdurmasında öz məqsədinə çatdı. Amerika bir daha gördü ki, dünyaya əsas təhlükə Rusiyadan gəlir”.

**V.Quluzadə güman etmir ki, bu şərait Ermənistanın faydasınadır:** “Ermənistanın gələcəyi Qarabağ məsələsinin həllindən keçir. Bu həll də Rusiyanın zəifləməsinə bağlıdır”. **Politoloq hesab edir ki, İranla anlaşma neftin ucuzlaşmasına səbəb olacaq və bu da daha çox Rusiyaya ziyandır:** “Biz Rusiya qədər neftdən asılı ölkə deyilik. Bu anlaşmanın Azərbaycana xeyri var, ziyanı yox. İranla Qərbin yaxınlaşması şəraitində Azərbaycanın boru kəmərlərindən İranın da neft-qazı gedə bilər. Üstəlik, İranın Amerika ilə yaxınlaşması Azərbaycana Tehranın sərt tənqidlərini də azaldacaq”.

**❑ E.PAŞASOY**

# Səudiyyə nefti bahalaşdırdı

**Səudiyyə Ərəbistanının Asiya alıcıları üçün endirimləri ləğv eləməsi neftin qiymətini bahalaşdırıb. ANS PRESS-in məlumatına görə, dərhal Brent nefti 3,33% və Texas nefti 3,24% bahalaşıb. Mart ayında “Saudi Aramco” Asiya müştəriləri üçün 2003-cü ildən bu yana ən yüksək endirim tətbiq edib və hər barreli 2,3 dollar ucuzlaşdırıb. Apreldə isə qiymətlər artıb və bu, son üç il üzrə ən yüksək bahalaşma kimi qeyd edilib.**



Səudiyyə Ərəbistanının neft sənayesi naziri Əli əl-Nəiminin sözlərinə görə, dünyada neftə tələbat bərpa olunur və dövlət istənilən müştərinin tələbini yerinə yetirə bilər. O bildirib ki, krallıqda hasilat gündə 10 milyon barrelə çatıb. Hazırda Texas neftinin barreli 50,57 dollara, Brent neftinin barreli isə 56,48 dollara qalxıb.

# Putin üçün "şah" və "mat" və... Azərbaycana yeni təhlükə

**Rusiya prezidenti Vladimir Putin belə görünür, 2-ci Cahan savaşındakı qələbənin 70 illiyi təntənəsini ürəyincə qeyd edib güclü özünüreklama imza ata və bu yubiley tədbirini Qərbə, dünyaya qarşı növbəti "əzələ nümayişi"nə çevirə bilməyəcək.**

## 9 may - yubiley törəninin boykot edilməsinin ardınca Kreml Qərbdən daha bir zərbə alıb; rusiyalı analitikə görə, İran amilinin əldən çıxması Moskvanın postsovet məkanında imperiya ambisiyalarını gücləndirəcək...



Artıq ABŞ və Avropa dövlətlərinin başçıları Rusiyanın Ukraynanın bir parçasını işğal etməsi səbəbindən Moskva tədbirinə qatılmayacağını bəyan ediblər. Böyük ehtimalla, Putin yenə MDB dövlət başçıları, bir də uzağı, Çexiya prezidenti Miloş Zemanın iştirakı ilə özünə təskinlik tapmalı olacaq.

***

Bu azmış kimi, yubiley ərəfəsində Qərb ciddi şəkildə Putinin qanını qaraldan daha bir addım atıb: 3 aprel Lozanna anlaşması ilə o, İranı xeyli dərəcədə Kremlin təsir dairəsindən uzaqlaşdıra və Tehranla 15 illik gərgin münasibətləri yumşaltmağın əsasını qoya bilib. Təbii ki, istək qarşılıqlı olub - yəni hər iki tərəf sanballı siyasi dividentlər əldə edib və uduşdadır, tərəflərin götürəcəyi mühüm iqtisadi, energetik dividentlər də ki, hələ qabaqdadır.

Lozanna anlaşmasının ən böyük zərbəsi isə uzun illər İranın Qərblə gərgin münasibətlərdə olmasından yararlanaraq onu öz yanında saxlamağı bacarmış Rusiyaya dəyəcək. Çünki daha İran amili ABŞ, Avropa əleyhinə işləyə bilməyəcək. Bunu rusiyalı nüfuzlu ekspertlər də görməyə və qiymətləndirməyə başlayıblar.

***

Məsələn, tanınmış politoloq və publisist Andrey Piontkovski özünün "Şah və mat" məqaləsində qeyd edir ki, İranın dünya bazarına qayıtması Kremlin bir sıra ambisiyalarının, o sırada neftin qiymətini qaldırmağa yönəlik israrlı səylərinin üstündən xətt çəkə bilər.

**Politoloq yazır:** "İranın dünyadan 15 illik təcrid dövrü bitir. "Altılıq" ölkələrinin *(ABŞ, Böyük Britaniya, Fransa, Çin, Rusiya, Almaniya)* Tehranla danışıqları onun nüvə proqramlı ilə bağlı çərçivə anlaşmasının imzalanması ilə yekunlaşdı. Bu, o deməkdir ki, bir neçə aydan sonra İran 15 ildir altını çəkdiyi ən sərt iqtisadi sanksiyalardan qurtulacaq və bununla da dünya neft bazarına güclü bir oyunçu qayıdacaq. Bunda ABŞ prezidenti Barak Obama indi güclü şəkildə maraqlıdır".

Yada salaq ki, İran Yaxın Şərqdəki ən böyük neft istehsalçılarından biridir. Dünya neft ehtiyatının 10%-i onun payına düşür. Beynəlxalq sanksiyalar aradan qaldırılarsa, ölkənin neft istehsalı və ixracı bir neçə ay ərzində gündə 1 milyon barelədək qalxa bilər.

**Bu xüsusda ekspert yazır:** "Valyuta aclığı keçirən İran bu qədər nefti bazara çıxarsa - təbi ki, belə lüksdən imtina etməyəcək - o zaman bu, sözsüz ki, neftin qiymətində özünü göstərəcək. Qiymət isə çətin ki, bəzi ekspertlərin proqnoz elədiyi kimi, bir barel üçün 20-30 dollardan aşağı düşsün, amma yüzdə yüz 50 dollardan yuxarı qalxmayacaq".

**Analitik bu proseslərə Rusiyanın təsir göstərmək imkanında olmadığını da xatırladaraq bildirir:** "Hətta Rusiya diplomatlarının İran danışıqlarında iştirakı da sırf simvolik idi. Orada onlardan asılı heç nə yox idi, Rusiya müzakirələrdə, sadəcə olaraq, sifət şişirdirdi. Axı söhbət BMT Təhlükəsizlik Şurasının sanksiyalarından getmirdi - nə vaxt ki, Rusiya daima öz veto hüququndan istifadə edib. Söhbət ABŞ və Avropa Birliyinin sanksiyalarından gedirdi. Putinin bi məsələyə dəxli yox idi".

**Təhlilçi ardınca "Rusiya diplomatiyasının axmaqlığının göz deşdiyini" yazır:** "Bu diplomatiya nüvə məsələsinin nizamlanmasında iştirak eləməklə neçə il Tehranı Təhlükəsizlik Şurasında sanksiyalardan qorudu, ərəb koalisiyasının Yəməndə icazəsiz hərbi qüvvə tətbiq eləməsini pislədi. İstisna deyil ki, Rusiyanın Yəmən böhranına birbaşa dəxli var. Cənubi Yəmən vaxtilə SSRİ-nin ən yaxın müttəfiqi olub. Yəmən Demokratik Respublikası adlandırılan bu ölkədə kommunist yönlü diktatura olub və bu səbəbdən Rusiyanın orada agentura şəbəkəsi yetərincədir. Lakin İran kimi güclü oyunçunun itirilməsi, Moskvanın əlinin olub-olmamasından asılı olmayaraq Yəmən konfliktindən götürülə biləcək bütün mümkün dividentləri sıfırlayır".

"Bütün bunlar, İran amilinin əldən çıxması, əlbəttə ki, Moskvanın bütün postsovet məkanı boyunca, ilk növbədə də Ukraynada imperiya məşqlərinin dəyərini artıracaq", - deyə ekspert şərhinə yekun vurub.

***

Başqa sözlə, qənaət hasil olur ki, digər geosiyasi alanlarda məğlubiyyətlə üzləşən Putin rejimi Qərbdən bunun əvəzini ənənəvi olaraq postsovet məkanında çıxmağa, revanş götürməyə çalışacaq. Deməli, postsovet məkanının "ipə-sapa yatmayan" və ərazisində Kremlin əli ilə separatçılıq ocaqları yaradılmış ölkələri - Ukrayna, Gürcüstan, Moldova, Azərbaycan öz xarici və daxili siyasətlərində, ələlxüsus da rusiyayönlü "5-ci kolon"çulara münasibətdə ikiqat ölçülü-biçili olmalıdır.

Azərbaycan isə yeni situasiyada daha diqqətli olmaq zorundadır. Çünki Gürcüstan, Moldova və Ukraynadan fərqli olaraq, onun Qərblə, Avropa Birliyi ilə formal bağlılığa, assosiasiya sazişi də yoxdur...

Unutmaq lazım deyil ki, dünya - ABŞ və Avropa Putinə neçə vaxtdır "şah" desə də, hələlik "mat" mərhələsi gəlməyib. Fəqət, o, elə də uzaqda deyil.

❑ **Siyasət şöbəsi**

# Dünyanın maliyyə və siyasət paytaxtı - İsveçrə

## Siyasətçilərin, diplomatların və varlıların bu ölkəni seçməsinin ilginc səbəbləri var...

**Aprelin 2-də uzun sürən gərgin danışıqlardan sonra nəhayət İran və "altılıq" (BMT TŞ-nin 5 daimi üzvü + Almaniya) ölkələri arasında razılaşma əldə olundu. Bundan sonra İsveçrənin Lozanna Universitetində İran xarici işlər naziri Məhəmməd Cavad Zərif və Avropa Birliyinin xarici siyasət məsələləri üzrə koordinatoru Federika Moqerini birgə mətbuat konfransı keçirdilər.**



Lozanna Universitetinin salonunda 1923-cü il iyulun 24-də Türkiyə Böyük Millət Məclisi ilə İngiltərə, Fransa, İtaliya, Yaponiya, Yunanıstan, Rumıniya, Bolqarıstan, Portuqaliya, Belçika, SSRİ və Yuqoslaviya nümayəndələri arasında Lozanna müqaviləsi imzalanıb. Beləcə, İsveçrə bir çox beynəlxalq və dövlətlərarası sazişə ev sahibliyi edib. Cenevrə Konvensiyası, Sürix protokolları kimi xeyli populyar olan sənədlər, diplomatik danışıqlar məhz bu ölkədə baş tutub. Bunun isə xüsusi səbəbi var.

Avropanın mərkəzində yerləşən, gözəl təbiətə malik İsveçrə dünyada bankların, bahalı saat markalarının vətəni hesab olunur. İsveçrənin ən mühüm özəlliyi isə heç şübhəsiz ki, tərəfsiz dövlət olmasıdır. Ölkənin tərəfsizliyi ilə bağlı ilk beynəlxalq siyasi hadisə 1815-ci ildə Vyana konqresində qəbul olunan sənəd idi. Bununla da Avropa dövlətləri İsveçrənin müstəqil və tərəfsiz ölkə olmasını qəbul etdilər, buna beynəlxalq təminat verdilər.

1863-cü ildə isə İsveçrədə dünyada tərəfsiz yardım qurumu olan Qızıl Xaç təşkilatı yaradılır. Hazırda bu ölkənin bayrağı Qızıl Xaçın bayrağıdır. İsveçrə Avropa Birliyinin üzvü deyil, BMT-yə isə yalnız 2002-ci ildə üzv olub. 2006-cı ildən bu yana BMT İnsan Haqları Şurası da İsveçrədə yerləşir. Yeri gəlmişkən, BMT-nin Nyu-Yorkdan sonra ikinci əsas ofisi İsveçrənin Cenevrə şəhərində yerləşir. Bundan başqa, BMT Qaçqınlar Təşkilatı (UNHCR) və daha bir çox ofisləri İsveçrədə yerləşir. Həmçinin Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Telekommunikasiya İttifaqı, Ümumdünya Ticarət Təşkilatı da daxil olmaqla 200-ə qədər beynəlxalq qurumun ofisi İsveçrə ərazisindədir.

Hər il yanvar ayında İsveçrənin Davos qəsəbəsində dünya liderlərinin iştirakı ilə beynəlxalq iqtisadi forum keçirilir. Burada Beynəlxalq Basketbol Federasiyası, Avropa Futbol Federasiyaları Assosiasiyası (UEFA), Beynəlxalq Futbol Federasiyası Assosiasiyası (FİFA), Beynəlxalq Buzüstü Xokkey Federasiyası, Beynəlxalq Motosikletçilər Birliyi, Beynəlxalq Olimpiya Komitəsi və 385 bank fəaliyyət göstərir.

Bir qədər əvvəl dünyanın 203 ölkəsindən olan 106,000 müştərinin 100 milyard dollarlıq sərvəti haqda məlumatlar mediaya sızdırılmışdı. Gizli məlumatların gün işığına çıxması ilə HSBC bankının fırıldaqçılara, terrorçular və quldurlara yardım etdiyi və ümumi dəyəri 120 milyard dollarla ölçülən çirkli pulların yuyulması əməliyyatı həyata keçirdiyi ortaya çıxıb. Bankın vergi və qaçaqmalçılıq işlərinə yardım etdiyi şəxslər arasında dünya miqyasında tanınan cinayətkarlar, korrupsiyada ittiham olunan siyasətçilər və iş adamları, eyni zamanda dünya siyasətçiləri, aktrisalar, idmançılar da yer alır.

Ancaq bütün bunlara baxmayaraq, İsveçrə dünyanın ən zəngin adamları və siyasətçiləri üçün ən cəlbedici ölkə olaraq qalır. Bir səbəb deyildi - beynəlxalq təminat. İkinci əsas təminatı isə onun keçilməz coğrafiyasıdır. Əsasən yüksək sıldırımlı dağlardan ibarət olan təbii "səngərlərə" sahib İsveçrənin kənardan müdaxilə ilə işğal olunması xeyli dərəcədə çətindir.

İsveçrənin təhlükəsiz ölkə olmasının daha bir səbəbi isə əhalisinin həddən artıq silahlı olması ilə bağlıdır. 8 milyon əhalisi olan ölkənin hərbi qüvvələri ilə yanaşı vətəndaşlarının demək olar ki, böyük çoxluğu silahlıdır, hətta bəzi məlumatlara görə, İsveçrədə az qala hər evdə silah mövcuddur. Bundan başqa, İsveçrə qanunları bank hesablarının gizliliyinə təminat verir. Yerli qanunlara görə, heç bir bank hesabı sahibinin razılığı olmadan açıqlana bilməz. Bank təhlükəsizliyi ilə bağlı məlumatsız insanlara belə banklar xüsusi məsləhətçi xidmətləri verir.

Bütün bu beynəlxalq və yerli qanunlar dünya varlıları üçün İsveçrəni cəlbedici edir. Dünyanın bir çox ölkələrinin siyasi xadimlərinin məhz İsveçrə banklarında gizli hesablarının olmasının səbəbi bu amillə bağlıdır. Digər tərəfdən, gözəl təbiəti, turizm imkanları planetin hər nöqtəsindən imkanlı insanları, siyasətçiləri bu ölkəyə cəlb edir. Nəticədə dünyanın əksər nüfuzlu qurumları, təhsil ocaqları, idman, maliyyə, siyasi və sair təşkilatlar özlərinə mərkəzi ofis olaraq İsveçrəni seçirlər.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 72 (6100) 7 aprel 2015

**Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlu "Yeni Müsavat" qəzetinə müsahibə verib. O, müsahibəsində partiyanın keçiriləcək qurultayından, partiyadakı vəziyyətdən, həmçinin parlament seçkilərinə hazırlıqdan danışıb.**



# "Bizim artıq Milli Şuralıq işimiz qalmayıb"

## Mirmahmud Mirəlioğlu: "Növbəti qurultayda partiyamızdan mənə rəqib olarsa, buna sevinərəm"

**"19 kişi söz verdik ki, deputat mandatından imtina edək. Sonra heç kim sözünü tutmadı. Dedim heç olmasa mən verdiyim sözün üstündə dayanım"**

*- KXCP sədri olaraq son zamanlar tez-tez bölgələrə səfərlər edirsiniz, müşavirə və görüşləriniz olur. Məqsəd nədir?*

- Bu il KXCP-nin qurultayını keçirəcəyik. Qurultaya qədər də zona müşavirələri, ümumi yığıncaqlar keçiririk. Hər həftənin şənbə və bazar günləri bölgələrə səfərlər edirik və təşkilati işlərimizi görürük. İctimai-siyasi müzakirələrimizi aparırıq.

*- Sədr seçkisi olacaqmı həmin qurultayda?*

- Təbii ki, olacaq.

*- Sizə alternativlər, rəqiblər varmı?*

- Onu təşkilatdan soruşmaq lazımdır. Olacaqsa, mən buna sevinəcəm.

*- Rəqiblərinizin sayı çox olsa, siz namizədliyinizi geri götürə bilərsinizmi?*

- Yox, nəzərdə tutmuşam ki, bu dəfə iştirak edəcəm və yarışacam.

*- Bəs KXCP parlament seçkisinə necə hazırlaşır? Bu il həm də Milli Məclisə seçkilər keçiriləcək...*

- Biz artıq Klassik Xalq Cəbhəsi Partiyası olaraq öz müttəfiqlərimizlə - Demokratiya və İnsan Hüquqları Mərkəzi ilə bir yerdə seçki bloku təsis etmişik. Səkkiz partiya bir aradayıq. Hesab edirəm ki, 2015-ci il parlament seçkiləri ilə bağlı bu səkkiz partiyadan başqa hələ ki seçkiyə start verən və seçkidə təşkilatlanma ilə bağlı iş görən başqa bir qurum yoxdur ölkədə. MSK öz işi ilə məşğuldur, işini görür. Bölgə səfərlərimizdə də ikinci məsələ kimi parlament seçkiləri, orada iştirak, dairələrdən namizədin müəyyənləşdirilməsi kimi məsələlər müzakirə edilir.

*- Milli Şura ilə KXCP-nin münasibətləri necədir? Partiyanın MŞ-dəki üzvlərinin və sədrin qurumu tərk edəcəyi bildirilsə də, bu, hələ baş verməyib.*

- KXCP Milli Şurada üzv deyil, bizim üzvlərimiz orada üzvdür. Bu gün münasibətlər bizim üçün, ola bilsin, MŞ-nın özü üçün də əhəmiyyət kəsb edən məsələ deyil. Xeyli zaman öncə MŞ-nın bizim qərargahda keçirilən sessiyasında məsələyə münasibət bildirdik. MŞ-nin tərkibinin genişləndirilməsi ilə bağlı müzakirələr aparıldı, təkliflər oldu. O təkliflər zamanı belə qənaətə gəldik ki, MŞ-nın tərkibi kənar şəxslərlə genişləndirilsin. Amma təklif ediləndə bəlli oldu ki, genişləndirilmədə nəzərdə tutulan daha çox bir partiyanın üzvləridir.

*- Hansı partiyanın?*

- Orada olan məlum partiyanın... Və biz açıq sözümüzü dedik ki, əgər genişləndirilmə belə nəzərdə tutulubsa, sizin partiyada da yüzə qədər Ali Məclis üzvü var, bizim də partiyanın elə bu qədər Ali Məclis üzvü var. Elə gəlin, biz ümumi şəkildə Ali Məclis üzvlərinin hamısını oraya qəbul edək, olsun genişlənmə. Bununla məsələ həll olunmur. Həmin gün sessiyada bu məsələ gündəlikdən çıxarıldı. Sonradan da bu məsələyə münasibət bildirəndə elə qənaətə gəlindi ki, mən sessiyanı tərk etdim. Bu münasibət sonda da təkrarlandı və mənim Milli Şurada iştirakıma ehtiyac qalmadı. Bizim ki, orada təklifimiz keçmir, orada yeniləşmə yoxdur, biz orada nə səbəbdən olmalıyıq? Orada insanlar var ki, Azərbaycan üçün çox qiymətli insanlardır. Amma Milli Şura öz missiyasını bitirib. Bu, o demək deyil ki, həmin adamlar öz missiyasını bitirib. Bu qurum 2013-cü il prezident seçkilərində təsis olunub. Artıq prezident seçkiləri keçirilib qurtarıb. Bu il parlament seçkiləridir. Daha MŞ-də təmsil olunanlar fəaliyyətlərini necə quracaq, bu, onların öz işidir. Bizim artıq Milli Şuralıq işimiz qalmayıb.

*- Ancaq bu yekun və konkret qərarınız hələ də gözlənilirdi, bunu deməmişdiniz. Bu səbəbdən MŞ-dən nə zaman çıxacağınız aktual idi. Çünki Milli Şuranın mitinqlərində lider olaraq təmsil olunmursunuz, iştirak etmirsiniz...*

- İştirak edənlərin bəyəm nəsə bir söz demək imkanları varmı ki, iştirak etməyənlərdən ötrü belə narahatçılıq keçirənlər olsun? Xeyli müddətdir Azərbaycan siyasi səhnəsində məşhur tezis var, təşkilində iştirak etmədiyimiz tədbirdə iştirak etmirik. Onlar da nəzərdə tuturlar ki, mitinqə gələnlərdən kim əvvəlcədən orada olmayıbsa, təşkildə iştirakı, yoxsa vətəndaş kimi orada iştirak edə bilərlər.

*- Bir müddət əvvəl Müsavat Partiyasının keçmiş və indiki sədri, həmçinin AXP sədri də Milli Şuranın mitinqində tribunaya dəvət edilməmişdilər. Siz də onlar kimi meydanda diqqətsiz qalacağınızdan çəkinirsiniz? Qorxursunuz ki, sizi tribunaya dəvət etməzlər?*

- Heç vaxt. Heç vaxt mənim belə bir qorxum olmayıb. Qorxum bir Allahdandır. Qətiyyən narahat deyiləm. Nə üçün? Bu gün Azərbaycan siyasi səhnəsində olan adamların böyük əksəriyyəti zaman olub ki, iki adam tapıb söz deməyə həsrət çəkiblər. İndi orada, yüzlərlə, minlərlə adam var, biz niyə qorxuruq ki? Öz adamlarımızdır. Hər zaman da tribunada olmaq doğru deyil. Və yaxud başqaları qorxu keçirdir ki, belə bir adam gəlsə, tribuna əldən gedər. O qorxu ola bilsin kimdəsə var, amma məndə yoxdur.

*- İddia var ki, narazılıq səbəbindən KXCP rəhbərliyi MŞ-nin mitinqinə üzvlərinin qatılmasına qarşıdır. Hətta təzyiqlər olur, sonradan danlayırlar ki, niyə mitinqdə iştirak etmisiniz. Bu iddialar doğrudurmu?*

- Qətiyyən. Biz öz adamlarımızı kifayət qədər tanıyırıq. Təbii, elə insanlarımız var ki, mitinq kimin olur olsun, hətta bizə alternativ qurumun, şəxsin olsun, mitinqdə ürəyimizdən keçən şüarlar varsa, iştirak edəcəklər. KXCP-də belə adamlar çoxdur. Biz hətta qərar qəbul etsək ki, iştirak etməyin, adamlar var ki, onlar partiyadan ayrılmaq dərəcəsinə qədər razı olarlar, amma mitinqdən qalmazlar. Bizim şöbə sədrlərimiz var ki, mitinqlərdə iştirak edirlər, təşkil edirlər, adamlar gətirirlər...

*- Yəni sizin iradənizin əksinə olaraq...*

- Xeyr. İradəmizin əksinə deyil. Biz qadağa qoymamışıq. Təbii ki, siz sualı real vəziyyətdən və eşitdiklərinizdən formalaşdırmısınız. Amma orada məsələ nədir - biz nə deyiriksə, onu edirik. Göründüyümüz kimi oluruq. Biz adamlara deyə bilmərik ki, sən niyə getmisən mitinqə? Niyə deməliyik ki? Onlar bizə irad tuta bilirlər hətta - niyə gəlmirsiz deyə. Biz isə bu iradı tuta bilmirik. Sərbəstlik vermişik, kim istəyir iştirak edir. Məsələn, martın 15-dəki mitinqdə həmin gün müşavirədə olmasaydım, iştirak edəcəkdim.

*- Ölkədə seçkiqabağı mühiti necə dəyərləndirirsiniz? Artıq seçki ilinin üç ayı arxada qalıb...*



**"Azərbaycanda bu gün seçkiqabağı mühit yoxdur - ölkənin nəbzi Avropa Oyunlarına köklənib"**

- Azərbaycanda bu gün seçkiqabağı mühit yoxdur. Avropa Oyunları qabağı mühit var. Ölkənin siyasi səhnəsi də, iqtisadi səhnəsi də, hakimiyyətin daxili, xarici siyasəti də, hətta hərbi siyasət də, Qarabağla bağlı məsələlər də o yarışa köklənib. Ona görə də indi seçkidən danışmaq tezdir. Böyük ehtimalla, seçkiyə avqustun sonundan etibarən start veriləcək.

*- Milli Şuranın missiyasının bitməsindən danışdınız. Bundan əvvəl də İctimai Palatada təmsil olunmuşdunuz, sonra bildirildi ki, onun da missiyası başa çatıb. Seçkiqabağı birliklərin missiyası nədir, sizcə - seçkiqabağı birləşib, seçkidən az sonra dava-dalaşla ayrılmalar, sonra yenə zəncirvari proses?*

- İnsan elementar olaraq plan qurur, sabaha aid proqramı yazmaq üçün bugünkü səhifəni çevirir. Azərbaycan siyasətində bu, yoxdur. Hər şey baş-ayaqdır. Məsələn, nizamnamədə göstərilir ki, qurultay olmalıdır, partiya sədr seçkisinə gedir, parlament seçkisinə gedir. Qurumun nə məqsədlə yaradıldığı, nə zaman xitam veriləcəyi də qeyd olunur. Məsələn, 2013-cü ilin prezident seçkiləri ilə bağlı yaradılmış Demokratik Qüvvələrin Milli Şurası.

*- Mirmahmud bəy, gənclər niyə azdır partiyanızda? Niyə gənclər sizin partiyaya gəlmirlər, aktiv deyillər, sayları azdır?*

- Gənclərimiz var, sadəcə, bizim gənclərimiz güclü, başqa partiyaların gənclərindən fərqli, bir az da elmi araşdırma aparan, kitablar yazan gənclərdir. Bizim ruporumuz, təbliğatımız yoxdur. Azərbaycan gənclərinin elmi əsaslarla simvoluna çevrilib Cavid Mehrəliyev. Onu 2011-ci ilin aprel mitinqləri ilə bağlı Bakı Dövlət Universitetindən xaric etdilər, bərpa olunmaq üçün məhkəməyə verdi, sonunda Azərbaycanı tərk etmək məcburiyyətində qaldı. Bu gün ortalığa "Əski Əhəməni yazısı" əsəri ilə çıxıb. Bu, bizim gəncimizin birinin gördüyü iş və bütün Azərbaycan gəncliyinə nümunə olan işdir.

*- Doğru. Amma o, bir nəfərdir. İddialar isə budur ki, kifayət qədər narazılıqlar var gənclərin partiyaya qoşulmaması ilə bağlı. İcazəmi verilmir?*

- Elə bir şey yoxdur. Gənclərimiz var ki, saytlara rəhbərlik edirlər. Gənclərimiz var, xüsusi olaraq bələdiyyə seçkilərində iştirak etdilər, namizədliyini irəli sürdülər, təcrübə qazandılar. Başqa heç bir partiyadan bu qədər gənc bələdiyyə seçkilərində iştirak etmədi. YAP-dan da məcburi getdilər. Gənclərimizin bir qismi xaricdədir. Təbii ki, kütləvi şəkildə Azərbaycanın gəncləri də bir arada deyil. Könül istəyər ki, gənclər doğrudan doğruya bu estafeti qəbul etsinlər. Gənclərimiz var, ancaq kifayət qədər deyil. Sizi və bizi qane edəcək qədər deyil. Bu, reallıqdır.

*- KXCP-nin yeddi partiya ilə birlikdə seçkidə iştirakı yekun qərardır? Ola bilərmi ki, partiyanız boykota getsin?*

- İstənilən məsələ ola bilər. Amma düşüncəmizdə boykot yoxdur. Mən, məsələn, boykotun əleyhdarıyam. Təşkilat qərar qəbul edərkən də mənim də sözüm təsirli ola bilər. Nə üçün? Azərbaycanda kimsənin etmədiyini etdiyimizə görə. Qazandığımız deputat mandatından imtina etdiyimizə görə. Hesab edirəm ki, hətta 1998-ci ildə də boykotunuz doğru deyildi. O zaman da fərd olaraq əleyhinə idik. Amma daxili müzakirələrdən, verilən qərardan sonra ya qərarı yerinə yetirməli idik, ya da çıxıb getməli idik. Boykot o zaman ola bilər ki, təsiri, nəticəsi olsun. AXC vaxtı boykotun təsiri var idi, nəticəyə təsir edə bilirdi. Bu gün həmin boykot nəticəyə təsir edə bilmirsə, nəyisə dəyişdirə bilmirsə, bunu etmək doğru deyil.

*- Bəs iştirakın da nəticəyə təsir etməyəcəyi, edə bilməyəcəyi əvvəlcədən bəllidirsə, bu seçkidə iştirak lazımdırmı?*

- Əsas odur ki, haqq bildiyin işi edirsən. Qısa ömründə tribunada sözünü deyirsən. 1993-cü ildə qiyamdan sonra bizim çıxışlarımızdan, artıq yavaş-yavaş sıralar seyrələndən sonra mandatdan məhrum olanlar, olandan sonra bizə bu sözləri deyənlər bildirirdilər ki, ekranın qabağında oturmuşdum, sən məni infarktdan qurtardın, sağ ol. Sonra həmin adamların özləri gəlib deputat oldular. Və hətta başqa işlər də oldu. Amma mən onlara həmin "sağ ol"u deyə bilmədim. Həqiqətən millətin sözünü deməkdən ötrü tək də olsan, bu işi görmək lazımdır. Mən 2000-ci ildə parlamentdə mandatdan imtina edəndən sonra Elçibəyi yaxından tanıyan adamlar sual verirdilər ki, Elçibəy sağ olsaydı, sən parlamentə gedərdinmi? Mən də dedim ki, bu gün Elçibəy yoxdur və mənə o sözü deyən, təsiredici olaraq deyən yoxdur. Bilirdim parlamentə getmək lazımdır. Həm də bu hərəkətimi də düz sayırdım ki, 19 kişi söz vermişdik. Kişi sözü vermişdik ki, mandatdan imtina edirik. Bir adam sözünün üstündə dayanmadı. Dedim, heç olmasa bir nəfər dayansın. Ancaq seçicilərimin qarşısında borclu qaldım. Hər dəfə Əli Bayramlıya gedəndə, ovaxtkı seçicilərim qarşısında söhbət edəndə deyirəm ki, həyatda borclu olduğum çox adam var, amma sizin qədər borclu olduğum yoxdur.

❑ **Röya RƏFİYEVA**

**Fotolar müəllifindir.**




# “Azərbaycan işğal altındakı rayonları özü boşaltmalıdır”

## **Elxan Şahinoğlu:** “Kreml israr etsə, onda heç olmasa Türkiyə qoşunlarının da bölgədə yerləşdirilməsinə nail olarıq”

**Rusiyanın dünya ilə üz-üzə qaldığı bir şəraitdə, onun himayəsinə sığınan Ermənistanın vəziyyəti getdikcə ağırlaşır. Artıq bu durum ermənilərin özləri tərəfindən davamlı şəkildə etiraf olunur və düşmən ölkənin nisbətən ayıq insanları situasiyanın dəyişməsi üçün cəhdlər göstərir.**

Erməni şərhçi Akop Badalyan Ermənistanın Avrasiya İttifaqına üzvlüklə bağlı yazdığı məqaləsində bildirib ki, Ermənistan böyük “Avrasiya pankası” dövrünə daxil olub.

Şərhçinin sözlərinə görə, Serj Sərkisyan hakimiyyətinin bu ilin əvvəlindən Ermənistanı sürüklədiyi Avrasiya fəlakətinin sonucları artıq özünü göstərir. “170 milyonluq bazar və daha yüksək təhlükəsizlik barədə mif bir neçə ay ərzində dağıldı və bunun sonu görünmür” deyə, şərhçi vurğulayır. (ANS) Onun sözlərinə görə, müstəmləkə səviyyəsinə endirilmiş Ermənistanın iş adamlarına üçüncü ölkələrlə birbaşa əlaqələr qurmaq qadağan edilir: “İnhisarçıların və oliqarxların parçaladığı Ermənistan biznesinə texniki baxımdan Avrasiya İttifaqı tərəfindən böyük maneəçilər yaradılıb”.

**Badalyan deyib ki, ilin əvvəlindən Avrasiya İttifaqına girməklə iqtisadi müstəqilliyini itirmiş Ermənistan biznesi Rusiyadan ikinci zərbəsini alıb. Onun sözlərinə görə, Avrasiya İttifaqına üzvlükdən sonra Ermənistandan Rusiyaya ixracın 100% azalması İrəvana tuşlanan ikinci zərbədir.** “Ermənistan Rusiya ilə imzaladığı müqavilələrlə və Avrasiya İttifaqına üzvlüklə xoş gələcəkdən məhrum olub”. Bu açıqlama ilə isə erməni analitik Aykazn Qaqriyan öz köşə yazısında çıxış edib. (axar.az) Onun sözlərinə görə, müharibə olacağı təqdirdə Rusiya Ermənistanı müdafiə etməyəcək: “Ermənistan iqtisadiyyatının katastrofik vəziyyətdə olması Rusiya yönlü proyektlərə qoşulması ilə bağlıdır. Çoxları təsdiq edir ki, Rusiyanın iqtisadi-maliyyə vəziyyətinin pisləşməsi ona qarşı yürüdülən beynəlxalq sanksiyalarla bağlıdır. Bunun digər ölkələrə, o cümlədən Gürcüstana təsiri ilə bağlı söylənilənlər isə demaqogiyadır. Ona görə ki, bu ölkələrin ən azından hansısa gələcəyi var. Ermənistan Rusiya ilə imzaladığı müqavilələrlə və Avrasiya İttifaqına girməklə bu gələcəkdən məhrum olub”.

***

Göründüyü kimi, İrəvanda anti-Rusiya fikirləri nəinki azalmır, hətta əksinə, artır. Belə bir situasiyada Qərbin İranla dil tapması, böyük anlaşmanın əldə olunması Ermənistanı itirəcəyi barədə Rusiyada narahatlıqlar da yaradır. Bəzi müşahidəçilər hesab edir ki, Rusiya İstanbul sammiti ərəfəsində, Sürix protokollarının imzalanmasından sonra baş verən anlaşma mühitini pozduğu kimi, bu dəfə də ermənilərə sürpriz yaşadacaq.

Maraqlıdır ki, bu ərəfədə Ermənistan xarici işlər naziri Edvard Nalbəndyanın Moskvaya səfəri çərçivəsində aprelin 8-də Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının müzakirə ediləcəyi xəbəri yayılıb. Məlumata görə, Rusiya xarici işlər naziri Sergey Lavrovun təşəbbüsü ilə gerçəkləşdiriləcək səfər barədə qərar Rusiya Dövlət Dumasının sədri Sergey Narışkinin İrəvan səfəri çərçivəsində verilib.


Elxan Şahinoğlu

Bir sıra ekspertlər iddia edir ki, səfər çərçivəsində Ermənistandan qoşunlarının Dağlıq Qarabağ ətrafındakı 7 rayondan çıxarılması tələb ediləcək. İrəvan həmçinin Rusiya qoşunlarının BMT sülhməramlıları kimi regiona yerləşdirilməsinə razılıq verməlidir. ANS-in məlumatına görə, bu, Kremlə imkan verəcək ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) Ukrayna cəbhəsinə paralel cəbhə açılmaqdan xilas ediləcək. Rusiya həmçinin Dağlıq Qarabağın qaytarılması şərti ilə Azərbaycanın da Avrasiya İttifaqına qaytarılması imkanı əldə edəcək. Son zamanlar rus əsgərlərinin Dağlıq Qarabağda “sülhməramlı” qismində yerləşdirilməsi ideyası da yenidən gündəmə gəlib və bu, çox təhlükəlidir.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyir ki, Rusiya Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllində maraqlı deyil:** “Çünki münaqişənin həlli Rusiya üçün Ermənistanın itirilməsi demək olacaq ki, Moskva buna hazır deyil. Ona görə də Kremlin Dağlıq Qarabağ ətrafındakı rayonların azad olunması ilə bağlı Bakıya dəstək verəcəyini gözləmirəm. Belə bir ehtimal edilən dəstəyin əvəzində Kreml bizdən Dağlıq Qarabağda Rusiya qoşunlarının yerləşdirilməsini tələb edəcək ki, bu da bölgəmizin itirilməsinə gətirib çıxaracaq. Azərbaycan işğal altındakı rayonları özü boşaltmağa çalışmalıdır. Əlbəttə, belə olan halda Rusiya Ermənistana və Dağlıq Qarabağ separatçılarına dəstək verəcək. Ancaq Rusiya birbaşa Azərbaycanı da ittiham edə bilməyəcək. Çünki Azərbaycan ordusu Dağlıq Qarabağa hücum etməyəcək, Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmağa çalışacaq. Həmin rayonların Azərbaycana aid olduğunu isə Rusiya da inkar etmir. Azərbaycanın Avropa Birliyi ilə sıx münasibətləri Rusiya ilə alver predmeti ola bilməz. Rusiyanı NATO ilə əməkdaşlıq qıcıqlandırır. Bir də ki, Azərbaycan heç Avropa Birliyi ilə assosiativ anlaşma imzalamağa da hazırlaşmır”. E.Şahinoğlu deyir ki, münaqişənin hansısa mərhələsində bölgəyə sülhməramlı qüvvələr yerləşdiriləcək: “Elə etməliyik ki, həmin qüvvələrin tərkibində Rusiya silahlıları olmasın. Yox, bunu bacarmasaq və Kreml israr etsə, onda heç olmazsa Türkiyə qoşunlarının da bölgədə yerləşdirilməsinə nail olaq. Rusiya hərbçiləri Dağlıq Qarabağın erməni əhalisinin yaşadığı hissədə yerləşdiriləcəksə, Türkiyə hərbçiləri də azərbaycanlıların yaşadıqları bölgələrdə yerləşdirilməlidir”.

Bəs İran-ABŞ anlaşması ermənilərə fayda verəcəkmi, düşmən ölkəni xilas edəcəkmi? Rusiya nə qədər məmnundur bu anlaşmadan?

**E.Şahinoğlu:** “İran-ABŞ anlaşmasının Ermənistana fayda verəcəyini düşünmürəm. Çünki kasıb Ermənistan İran iqtisadiyyatı üçün cəlbedici deyil. Əksinə, İran sanksiyalardan qurtulandan sonra qazını Türkiyə üzərindən Avropaya daşımaq istəyəcək ki, bu Azərbaycanın da xeyrinədir. Çünki İran bu halda TAP və TANAP boru xətlərindən istifadə etmək məcburiyyətində qalacaq. Beləliklə, İran-Rusiya ittifaqı da zəifləyəcək. İran neft və qaz bazarında Rusiyaya rəqib olacaq. Hətta mümkündür ki, Türkmənistan qazı da İran üzərindən Türkiyəyə yön alsın”.

# Azərbaycanın Müdafiə Nazirliyindən işğalçı ölkəyə tutarlı cavab

## “Ermənistan silahları qeyri-leqal yolla əldə edərək işğal olunmuş Azərbaycan torpaqlarında yerləşdirir”

**Azərbaycanın postsovet məkanında ən böyük silah alıcısı olan ölkələrdən olması işğalçı Ermənistanda həyəcan yaradıb. Son günlər düşmən ölkə dünya boyu öz torpaqlarını işğaldan təmizləmək üçün hərbi qüdrətini artıran Azərbaycanın əleyhinə antitəbliğat aparır. Qeyd edək ki, işğalçı Ermənistan və onun havadarları dəfələrlə çıxış edərək Azərbaycanın ifrat dərəcədə silahlandığını iddia edir və rəsmi Bakının qoşulduğu Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilənin (AASQM) şərtlərini kobud şəkildə pozduğunu bildirirlər.**

Azərbaycan Silahlı Qüvvələrinin silahlanmasındakı hərbi və döyüş texnikasının sayı dövlətimizin beynəlxalq qurumlar çərçivəsində imzaladığı sənədlərdə qeyd olunan öhdəliklər və üzərinə götürdüyü tələblərə uyğun olaraq komplektləşdirilir.

Bu barədə “Trend”in sorğusuna cavab olaraq Müdafiə Nazirliyindən daxil olan məktubda qeyd edilir. Nazirlik bəyan edir ki, son illər Silahlı Qüvvələrin yeni və müasir döyüş tankları, zirehli maşınlar, artilleriya qurğuları, döyüş təyyarələri və helikopterləri, digər silah-sursatla təchiz edilməsi, o cümlədən ordunun döyüş hazırlığı səviyyəsini müəyyən edən bütün əsas ixtisaslar üzrə vəzifələrə müqavilə əsasında mütəxəssis hərbi qulluqçuların qəbul edilməsi Ermənistan tərəfini ən çox narahat edən məsələlərdən biridir: “Nəzərə alınmalıdır ki, yeni döyüş texnikasının alınması prosesi tam şəffaf şəkildə aparılır. Azərbaycan BMT-nin Silahların idxal-ixrac əməliyyatları, Avropada Adi Silahlı Qüvvələr haqqında Müqavilə, ATƏT-in Vyana-2011 Sənədi, Qlobal Hərbi Məlumat Mübadiləsi çərçivəsində İllik İnformasiya Mübadilələrində iştirak edir. Yeni silahların alınması ilə paralel olaraq silinmə və ixtisara salınma prosesi də aparılır. Digər iştirakçı dövlətlər tərəfindən Azərbaycan Silahlı Qüvvələrində Silahlara Nəzarət inspeksiyaları keçirilir. 2014-cü ilin sonuna qədər Silahlı Qüvvələrimizdə AASQ Müqaviləsi çərçivəsində müxtəlif üzv dövlətlər tərəfindən 109 dəfə inspeksiya, Vyana-2011 Sənədi çərçivəsində isə 55 dəfə ”Göstərilmiş rayon"un inspeksiyası və 27 Qiymətləndirmə səfəri keçirilib. AASQ haqqında Müqavilənin tələblərini guya Azərbaycanın pozması fikrinin qonşu hərbi-siyasi rejimin müxtəlif vəzifəli subyektləri tərəfindən istənilən yerdə daim səsləndirilməsi bizi təəccübləndirmir və yalnız məsələnin məğzini bilməyən auditoriyaya yönəlib. AASQ Müqaviləsində silahlar üzrə tavanlar keçmiş SSRİ üçün təyin edilib və AASQM-in iştirakçısı olan MDB ölkələri üçün tavanları təyin edən 15 may 1992-ci il tarixli Daşkənd Razılaşması ilə müəyyən edilir. Lakin bu razılaşma Azərbaycan Respublikasında ratifikasiya olunmadığından, dövlətimiz üçün hüquqi sənəd sayılmır. Bu səbəbdən də Azərbaycanın hər hansı tavanları aşmasından söhbət gedə bilməz".


**Hərbi ekspert Üzeyir Cəfərov:** “Düşmənə sayı-hesabı bilinməyən itkilər yaşada bilərik”

**Müdafiə Nazirliyindən bildiriblər ki, bu məsələyə ölkənin təhlükəsizliyinin qorunması, mümkün təhdidlərə hazır olmaq və qarşı tərəfin ehtimal edilən güc fəaliyyətlərinə cavab prizmasından baxılmalıdır:** “Tam əksinə olaraq, məhz Ermənistan beynəlxalq hüquqa və silahlara nəzarət sahəsində mövcud olan normativ aktlara, xüsusilə tez-tez istinad etdikləri AASQ haqqında Müqavilənin müddəalarına məhəl qoymadan ordusu üçün silahları qeyri-leqal yolla əldə edərək işğal olunmuş Azərbaycan torpaqlarında yerləşdirir. Həmin silahlar qeydiyyatdan keçmir, İnformasiya Mübadiləsində elan olunmur, xarici inspeksiya qrupları tərəfindən yoxlanılmır. Bu, artıq təkcə Azərbaycan üçün yox, region və Avropa təhlükəsizliyi üçün də böyük təhdiddir, eyni zamanda Ermənistana qarşı istənilən qəti sanksiyaların tətbiq edilməsi üçün beynəlxalq ictimaiyyətə gözəl fürsət yaradır”.

**Hərbi ekspert Üzeyir Cəfərov “Yeni Müsavat”a dedi ki, Azərbaycan, ümumiyyətlə, düşmənin iddialarına fikir verməməlidir:** “Ermənistanın bu sayıqlamaları illərdir davam edir. Onlar ”oğru elə qışqırdı ki, doğrunun bağrı yarıldı" prinsipi ilə çıxış edir. İşğalçı ölkə 1994-cü ildən bəri qanuni və qeyri-qanuni yollarla silahlanıb. Ona görə də bu gün ermənilərin Azərbaycanı günahlandırması, əvvəla, gülüncdür, ikincisi də nədən onlar unudurlar ki, Azərbaycanın silahlanmasının səbəbkarı məhz Ermənistanın özüdür. Azərbaycan bu qədər vəsaiti torpaqları işğalı altında olduğu üçün silah-sursata sərf edir. Ona görə də ermənilər günahı özlərində axtarsın. İkincisi də erməni kimdir ki, Azərbaycana nə qədər, hansı silahı almaq olar, ya olmaz deyə, göstəriş verirlər. Bundan sonra Azərbaycan yenə də müasir silahlar alacaq. İşğalçıların nə qədər başı, bədəni salamatdır, Ermənistana çəkilsə, daha yaxşı olar. Bununla onlar itkilərin qarşısını xeyli almış olacaqlar". **Hərbi ekspert dedi ki, Müdafiə Nazirliyinin son bəyanatı sıradan, adi bir bəyanat deyil:** “Orda bəyan olunub ki, erməni ordusunun 70 faiz şəxsi heyətini sıradan çıxara bilərik. Bu, çox ciddi məsələdir. Çünki Azərbaycanın arsenalında olan ən müasir silahlar ona imkan verir ki, biz çox qısa müddətdə düşmənə sayı-hesabı bilinməyən itkilər yaşadaq. Ermənilər o itkiləri yaşamaq istəmirsə, tezliklə torpaqlarımızı boşaltsınlar. Əks təqdirdə, Azərbaycan desə də, deməsə də ən müasir silahlar alacaq. Azərbaycan bir sıra önəmli müqavilələr çərçivəsində 20-ci əsrin ən müasir, o cümlədən 21-ci əsrdə hələ uzun müddət istifadə oilunacaq həm artilleriya, həm hərbi hava qüvvələri, hava hücumundan müdafiə silahları əldə edəcək. Buna ermənilərin heç bir şübhəsi olmamalıdır”.

YENİ MÜSAVAT
N 72 (6100) 7 aprel 2015

# Burun əməliyyatından niyə ölürlər?

## Estetik əməliyyatların görünməyən tərəfləri; ilginc detallar

**Martın 18-də Azərbaycanda burun əməliyyatı zamanı ölüm hadisəsi baş verib. Hadisənin yaşandığı özəl klinikanın - "StarMed"in fəaliyyəti dayandırılıb. Hekayəyə diqqət: Azərbaycan Maliyyə-İqtisad Kollecinin tələbəsi olan Mürsəlova Leyla Namiq qızı burnundan əməliyyat olunmaq istəyib. Lakin tələbə qıza əməliyyat üçün narkoz verilən kimi o, dünyasını dəyişib. İlkin olaraq, qızın narkozun dozasının yüksək olması səbəbindən öldüyü ehtimal edilir.**

Həmin faktla bağlı Yasamal Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, ölümün səbəblərinin müəyyənləşdirilməsi məqsədilə məhkəmə-tibbi ekspertizası təyin edilib, əməliyyatı aparan həkim və klinikanın digər həkimləri iş üzrə dindirilib.

Və bu, Azərbaycanda ilk belə hadisə deyil. Ölkəmizdə uğursuz, eləcə də ölümlə nəticələnən plastik cərrahiyyə əməliyyatları dəfələrlə baş verib və bunun səbəbləri hər zaman müzakirə mövzusu olub.

Yadınızdadırsa, müğənni Reyhan Müslümova artıq çəkidən azad olmaq istəyərkən dünyasını dəyişmişdi. Mərhum müğənni şəkər xəstəsi olduğu üçün əksər həkimlər bu əməliyyatdan imtina etmişdilər. Amma əməliyyata razı olan cərrah 2002-ci ildə mart ayında Bakıdakı 5 saylı xəstəxanada liposaksiya əməliyyatı keçirməyə çalışmış və nəticədə sənətçinin şəkəri yüksələrək komaya düşmüş, həyatını itirmişdi. Cərrah Məhəmməd Xəlilov isə törətdiyi əmələ görə bir neçə il işindən uzaqlaşdırılmışdı.

İngiltərənin 34 yaşlı modeli Alisiya Douvall 71 dəfə plastik əməliyyata girib və 1 milyon funt sterlinq xərcləyib. O, anesteziya olmadan 260 dəfə botoks etdirib. Lakin istədiyi nəticəni hələ də əldə edə bilməyib. Model xanım bu qədər əməliyyatdan sonra özünü gözəl hesab etmədiyini deyib. Model onu dayandırmadığına görə həkimləri günahlandırıb.

Araşdırmalar müəyyən edir ki, ümumiyyətlə, ölüm riski bütün əməliyyatlar üçün keçərlidir. Amma bu risk estetik əməliyyatlarda da özünü göstərir. Burun, döş və üz gərdirmə kimi əməliyyatlar zamanı əgər xəstədə hər hansı sistematik bir problem yoxdursa, ölüm riski 10 min nəfərdən birində və ya ikisində özünü göstərə bilər. Amma liposaksiya, yəni yağ aldırma əməliyyatlarında bu faiz mində bir, ya da mində iki ola bilər. Liposaksiya əməliyyatlarında yağ parçacıqlarının damarları tıxaması nəticəsində yağ embolisi baş verə bilər ki, bu da ölüm səbəbidir.

Xəstənin qan, ürək, diabet, revmatizma və damar kimi xəstəlikəri və ya uşaqlıqdan gələn bir anormallığı ola bilər ki, bu da ölüm səbəbidir. Bu problem əməliyyata qədər ortaya çıxmamış və əməliyyat onu tətikləmiş ola bilər. Xəstəni əməliyyata alanda bunları yaxşı təhlil etmək lazımdır.

Estetik cərrahlar bir qayda olaraq qeyd edirlər ki, plastik əməliyyat heç də cərrahi bıçaqla həyata keçirilən bir makiyaj deyil, ona ciddi yanaşmaq lazımdır. Bundan başqa, yağ aldırma əməliyyatını da xəfifə almaq olmaz. Çünki bu zaman insanın bədənindən 3 litrdən artıq yağın çıxarılmasından söhbət gedir. Bu isə həcm etibarilə bir insanın qolu qədərdir. Bu tip əməliyyatlarda estetik cərrahla anestezioloqun məsuliyyət payı eyni qədərdir.



Emboli təhlükəsinin yüksək olduğu əməliyyat yağ aldırmadır. Bunun qarşısını almaq üçün öncə ideal xəstəni tapmaq lazımdır. Hazırda insanlar liposaksiyanı bir çəki vermə vasitəsi kimi görür, həkimlər də artıq yağı alırlar. Bir dəfədəkindən artıq yağ alınanda emboli, qanama, təzyiq düşməsi, ölüm riski özünü göstərir.

Estetik cərrahların gəldiyi nəticə isə budur ki, arzuedilməz nəticələrin yaşanmaması üçün düzgün həkim, düzgün xəstə və doğru diaqnoz çox önəmlidir.

Bunlara diqqət edilərsə, heç bir neqativ nəticədən söhbət gedə bilməz. Əsas şərt xəstənin həkim nəzarətində olmasındadır. Məsələn, bəzi həkimlər xəstələrinə "günorta liposaksiya etdirin, axşam işinizə gedin" kimi məsləhətlər verir. Halbuki bu, şişirdilmiş və qeyri-ciddi yanaşmalardır. Burada həkim qədər xəstənin də günah payı böyükdür. Çünki insan öz həyatı ilə qumar oynanılmasına icazə verməməlidir.

**Plastik əməliyyat keçirəcək şəxslərə aşağıdakı məsləhətlər verilə bilər:**

*- Xəstə həm gözləntiləri, həm də əvvəldən keçirdiyi xəstəliklərlə bağlı açıq olmalıdır;*

*- İstifadə etdiyi bütün dərmanlar barədə həkiminə tam məlumat verməlidir;*

*- Aspirin kimi qan sulandırıcı dərmanlar əməliyyatdan bir həftə öncə kəsilməlidir;*

*- Əməliyyatı həyata keçirəcək həkim yaxşı araşdırılmalı və seçici olmalıdır;*

*- Xəstəyə böyük vədlər verən həkimlərlə bağlı ciddi araşdırma aparılmalıdır;*

*- Anestezioloqun da cərrah qədər önəmli olduğu yaddan çıxarılmamalı və xəstə əməliyyatdan öncə anestezioloqla mütləq görüşməlidir.*

❑ **Sevinc TELMANQIZI**

# Sentyabradək 6 yaşı tamam olmayan uşaqlar I sinfə götürüləcəkmi?

## 6 yaşı sentyabrın 16-dan dekabrın 31-dək tamam olan xüsusi istedadı ilə fərqlənən uşaqların valideynləri də elektron müraciət edə bilər




**Martın 5-dən etibarən ümumtəhsil məktəblərinin 1-ci siniflərinə qəbul üçün valideynlərin elektron ərizələrinin qeydiyyatı başlayıb. Qeydiyyat zamanı valideynlərin üzləşdiyi və onları narahat edən bir sıra məqamlar ortaya çıxıb. Bunlardan biri də 6 yaşı sentyabr, ya da dekabrda tamamlanacaq uşaqların qəbulunun hansı şərtlərlə aparılacağı ilə bağlıdır. Məlumata görə, öncə 6 yaşı tamam olan uşaqlar məktəblərdə yerləşdiriləcək. Bundan sonra əgər yer qalarsa, 6 yaşı bitməmiş uşaqların da qəbulu aparılacaq. Bu da bir çox valideynlərin narahatlığına səbəb olub. Bunları nəzərə alaraq Bakı Şəhər Təhsil İdarəsinə bir neçə sualla müraciət etdik:**

***- 6 yaşı dekabrda bitəcək olan uşaqlar hansı prosedurdan keçməlidir?***

- Valideyn (digər qanuni nümayəndə) uşağının təhsil almasını arzu etdiyi məktəbi müəyyənləşdirməli və elektron sistemdə onu siyahıya daxil etməlidir. 6 yaşı sentyabrın 16-dan dekabrın 31-dək tamam olan xüsusi istedadı ilə fərqlənən uşaqların valideynlərinin (digər qanuni nümayəndələrinin) elektron ərizələrinin qeydiyyatı qəbul müsabiqə əsasında keçirilən müəssisələrə, lisey və gimnaziyalara martın 15-dən aprelin 15-dək, ümumtəhsil məktəblərinə isə iyulun 1-dən 31-dək aparılacaqdır.

***- Məktəbəqədər hazırlıq kurslarını məktəbdə alan uşaqlara daha çox üstünlük veriləcəyi bildirilir. Bu nə dərəcədə doğrudur?***

- Valideyn uşağını məktəbə hazırlıq qrupunda oxuduğu məktəbə qeydiyyatdan keçə bilər. Seçim üçün ərazi məhdudiyyəti qoyulmur.

***- Məktəb seçimləri içərisində 3 məktəbin adının yazılmasına icazə verilir. Bu şərt nəyə uyğun qoyulub? Uşaq evindən uzaq bir məktəbə düşsə, yenidən seçim etmək mümkün olacaqmı?***

- Yalnız 1 məktəbə sorğu yerləşdirmək mümkündür. Valideyn, sadəcə, ona çətinlik yaradan və evindən uzaqda yerləşən məktəbi seçməyə bilər. Valideynin əvəzinə məktəb nə proqram, nə də idarə tərəfindən seçilmir. Bu seçimi valideyn edir və özü prioritetlərini müəyyənləşdirməlidir.

Xatırladaq ki, qeydiyyat valideynin (digər qanuni nümayəndənin) özü tərəfindən onlayn və ya istəyi əsasında hər bir məktəbdə yaradılacaq elektron sənəd qəbulu komissiyasında, ya da Bakı şəhərinin hər inzibati rayonunda fəaliyyət göstərəcək alternativ sənəd qəbulu komissiyası tərəfindən aparılır. Müsabiqənin nəticələrinə görə, həmin lisey və gimnaziyalara qəbul edilməyən uşaqların valideynləri (digər qanuni nümayəndələri) elektron sistemdə yenidən ümumtəhsil məktəbi seçmək hüququna malikdirlər.

Təhsil Nazirliyi 2015/2016-cı tədris ilindən etibarən ilk olaraq Bakı şəhərində fəaliyyət göstərən ümumtəhsil məktəblərinin, lisey və gimnaziyaların I siniflərinə uşaqların qəbulunda optimal və səmərəli icra mexanizmi yaratmaq məqsədilə həmin prosesin elektron sistem vasitəsilə həyata keçirilməsini qərara alıb.

❑ **Günel MANAFLI**

# "Zülfüqar qılıncı" haqda bilmədiklərimiz...

## Hacı Şahin Həsənli: "Onun qeyri-adi quruluşa malik olduğu təsdiqlənməyib"

**İslamda ədalətin rəmzi sayılan dini əşyalardan biri də İmam Həzrəti Əlinin qılıncı - "Zülfüqar qılıncı"dır. İnsanlarda "Zülfüqar qılıncı" ilə bağlı ən geniş yayılmış təsəvvür onun haça uclu olmasıdır. Bu gün də "Zülfüqar qılıncı"nın rəmzi olaraq hazırlanan suvenirlərdə, bəzək əşyalarında iki haçalı qılınc təsvir olunur. Ancaq əslində bu təsəvvür də doğru bildiyimiz yanlışlar sırasına daxildir.**




"Zülfüqar qılıncı"nın yaranması və Həzrəti Əliyə necə çatması haqqında da müxtəlif hədislər mövcuddur. Bəs əslində İslama həyat verən bu qılıncın tarixçəsi necədir və hazırda harada saxlanılır?

**Məşədi Dadaş məscidinin axundu Hacı Şahin Həsənli** "Yeni Müsavat"a müsahibəsində bildirdi ki, "Zülfüqar qılıncı" haqqında müxtəlif hədislər mövcuddur, ancaq günümüzə qədər gəlib çatan məlumatların bir qismi yanlışdır: "Mövcud olan hədislərdən biri odur ki, həmin qılıncın düzəldildiyi dəmir Həzrəti peyğəmbərə qeyri-adi yolla, mələk vasitəsilə verilib. Peyğəmbərimiz isə ondan iki qılınc düzəltdirib, biri özündə qalıb, digərini isə İmam Əliyə hədiyyə edib. Digər bir tarixi mənbədə isə qeyd olunur ki, "Zülfüqar qılıncı" adi bir dəmirdən düzəldilib və iki ədəd hazırlanıb. Həzrəti peyğəmbər bunlardan birini özünə götürüb, digərini isə Həzrəti Əliyə verib. Onun ucunun iki haçadan ibarət olması tarixi mənbələrdə təsdiqini tapmır. İnsanlar arasında bu qılınc haqqında haça uclu olması təsəvvür yayılsa da, əslində belə olmayıb, adi bir qılınc olub.

"Zülfüqar" sözünün mənası "iki fəqərəli" deməkdir. Yəni bir dəmirdən iki qılınc düzəldildiyi üçün iki hissəli qılınc kimi tanınır. Tarixi baxımdan Zülfüqarın qeyri-adi quruluşa malik olduğu təsdiqlənməyib. Əslində o cür bir qılıncla döyüşmək də çətindir. Sonradan bu cür rəvayətlər yaranıb, ancaq həqiqəti əks etdirmir. Həzrəti Əli "Xəndək" döyüşündə "Zülfüqar qılıncı" ilə düşməni məğlub edən zaman peyğəmbərə Cəbrayıl tərəfindən nazil olub ki, "Əlidən güclü fateh, Zülfüqardan kəskin qılınc yoxdur".

**Orijinal "Zülfüqar qılıncı"nın hazırda harada saxlanılmasına gəlincə, ilahiyyatçı bildirdi ki, həmin qılınc hazırda 12-ci imam Mehdidədir:** "Məhəmməd Peyğəmbər (ə) o qılıncı Həzrəti Əliyə bağışlayıb, ondan sonra qılınc İmam Həsənə, daha sonra İmam Hüseynə və imamət əlaməti kimi digər imamlara ötürülüb. İndi isə imamət rəmzi kimi bu qılınc 12-ci imamdadır. Tarixi mənbələrdə belə qeyd olunur".

**İlahiyyatçı "Zülfüqar"ın İstanbulda Topqapı sarayında saxlanılması haqqında iddiaların tarixi əsasının olmadığını bildirdi:** "Bu muzeydə və başqa hansısa muzeylərdə saxlanılan qılıncın "Zülfüqar" olması öz təsdiqini tapmayıb. "Zülfüqar qılıncı" imamət rəmzi kimi hazırda 12-ci imam Mehdidədir. Qılıncın ölçüsü ilə bağlı konkret hədis yoxdur, ancaq çox şişirdilmiş məlumatlar da yayılır. Bu çox qeyri-adi ölçü və çəkidə bir qılınc olmayıb. Sadəcə, çox kəsərli bir qılınc olub, Həzrəti Əli İslamın müdafiəsini bu qılıncla həyata keçirib. Bu qılınc haqqında peyğəmbər tərəfindən "Əlidən güclü fateh, "Zülfüqar"dan kəskin qılınc yoxdur" ifadəsinin işlənməsi də onun dəyərini göstərir. Ancaq görünüşcə qeyri-adi bir qılınc olmayıb. "Zülfüqar qılıncı" ədalət rəmzi olaraq ədəbiyyatda işlədilir. Bu qılıncı rəmzi ifadə edən suvenirlər də hazırlanır, insanlarda saxlanılır. Təbii ki, insanlar buna tapınmır, səcdə eləmir. Sadəcə, müəyyən dəyərləri, ədaləti, şücaəti simvolizə edir".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 72 (6100) 7 aprel 2015



# “İgid odur atdan düşə, atlana....”

## Əməkdaşımız atçılıq mərkəzində gördüklərindən və eşitdiklərindən yazır

**Atçılıq Azərbaycanda qədim dövrlərdən mövcud olub. Türk dünyasında at həmişə döyüşçü üçün silahdaş və vəfalı dost hesab edilib. Qarabağ atları isə bu baxımdan daha məşhur olub. Ümumiyyətlə, hesablamalara görə, hazırda dünyada mövcud olan 260 cins atın ikisi Azərbaycana məxsusdur. Bunlar “Dilbaz” və “Qarabağ” atlarıdır. Azərbaycanda 69 min 984 baş at var. Onların 20-22 faizi “Qarabağ”, 14 faizi “Dilbaz”, 8, 10 faizi “Quba yorğası” və “Kiçik Qafqaz”, həmçinin Şirvan atları, 1 faizi əsl ingilis və ərəb cins atlarına məxsusdur. Lakin təəssüflə qeyd etmək lazımdır ki, bu gün Qarabağ atlarının sayı azalmaqdadır. Bu səbəbdən bu növ atların sayının çoxaldılması yöndə işlər aparılır.**









Atçılığın inkişafı üçün paytaxtda bir neçə atçılıq mərkəzi yaradılıb. Məlumata görə, Bakı şəhərində təxminən 10-a qədər atçılıq mərkəzi fəaliyyət göstərir.

### “At igidin yaraşığıdır...”

**“Yeni Müsavat”ın əməkdaşları atçılıq mərkəzlərinin birində, “Elit hourse club”da oldular. Mərkəzdəki atları 4 ildir ki, atçılıqla məşğul olan Pənah Əlizadə təqdim etdi. Onun sözlərinə görə, mərkəzdə əvvəllər Qarabağ atları olsa da hazırda bu növ at saxlanılmır:** “Əsasən, qarışıq cinslər, yeni ərəb, ingilis, Argentina və s. növlərdə olan atlardır. Yarış atları daha hündür və təhlükəli olur. Hər bir atın özünəməxsus ləqəbləri də var. Məsələn, Sahil, Alarts, Samiyə, Zedapiri, Felena, Araz, Al-Sakir, Alex, Karabas, Şəlal, Lora, Vkusnyaşka, Sweet , Ak-kula, Vivian və s. At həvəskarı olan sadə vətəndaşlar da mərkəzin xidmətlərindən istifadə edə bilirlər. Sakit, bir qədər ləng atlar müştərilər üçün nəzərdə tutulub. Burada uşaqların çapması üçün poni atları da saxlanılır. Böyüklər yarım saat at çapmaq üçün 20 manat, uşaqlar üçün nəzərdə tutulan poni atları üçün 15 manat ödənilir”.

### Varlı insanların bahalı atları

**Pənah Əlizadənin sözlərinə görə, mərkəzdə şəxsi atlar da saxlanılır və qiymətləri kifayət qədər bahadır:** “Mərkəzimizdə şəxsi atların saxlanılması xidməti də var. Bu atlar müqavilə əsasında yerləşdirilib və digər atlar kimi onlara da qulluq göstərilir”. Atçılıq mərkəzinin əməkdaşı ata necə qulluq edilməsindən danışıb:

“Mehtərlər hər gün onların yerlərini təmizləyir, xüsusi qulluq edir, saçlarını darayır, təxminən 45 gündən bir nallayırlar. Elə at var ki, tullanmağı sevmir və daha çox yeriməyə üstünlük verir ki, bu zaman nal çox istifadə olunduğundan tez sıradan çıxır. Lakin bu da atların özlərindən asılıdır. Elə at var ki, özü öz ayağını yaxşı qoruyur”.

**“Nal vurulmazsa nə baş verər” sualımıza Pənah Əlizadə bu cür cavab verdi:**

“Nal atın dırnaqlarını qoruyur. Əgər nal vaxtında dəyişdirilməsə, atın dırnağı böyüyür, uzanır və qırılır. Bu atın sağlamlığı üçün təhlükədir. Yeni nal vurulmazdan əvvəl köhnə nal sökülür, atın dırnaqları təmizlənir. Nal dəmirdən və ya alüminiumdan hazırlanır. Alüminium material daha yüngül olduğundan atın ayağına o qədər də ağırlıq vermir, bu səbəbdən atçılar atlarını nalladarkən daha çox alüminium materiala üstünlük verirlər. Daşlıqda çapılan atın bütün dırnaqlarına, digərlərinə isə təkcə ön ayaqlarına nal vurulur. Nal vurularkən yeddi dəmir mismardan istifadə edilir”.

“Niyə məhz yeddi mismar?” Sualımıza mərkəzin əməkdaşı cavab olaraq bildirdi ki, bu qayda dədə-babalardan bizə gəlib çıxan yeddi rəqəminin inancı ilə bağlıdır.

### Atı çapma qaydaları

**Mərkəzdə olarkən xeyli sayda hündür atlar gördük. Müsahibim bildirdi ki, onlar yarış atlarıdır. Bu cür atlar yeni at çapmağı öyrənənlər üçün təhlükəlidir. Daha hündür atlar da var idi ki, müsahibimin sözlərinə görə, onlar yalnız bəzək üçün yarışlardan əvvəl cıdıra çıxardılan filiz atlardır:** “Onlar çox bəzəkli, saçları uzun, ayaqları daha çox tüklü olan atlardır. Bu atlar demək olar ki, minilmir”.

### Azadlıq hissi...

**4 ildir ki, atçılıqla məşğul olan Pənah Əlizadə atçılığın çətinliklərindən də danışdı:**

“Hər bir atın özünəməxsus xarakteri, xasiyyəti, kaprizləri var. Məsələn, bir atın sevdiyini o birisi qətiyyən sevmir. Lakin hamısının sevmədiyi bir şey var-yorulanda getmək istəmirlər. Məcbur edəndə isə öz kaprizlərini göstərirlər. Lakin gündəlik hesabat var ki, onlar bunu keçməlidir. Hər bir at azadlığı çox sevir və çalışır ki, qaçıb rahat gəzinti etsin. Bir müddət atçılıq işindən uzaqlaşdım. Lakin görəndə ki, at çapmadan dayana bilmirəm, yenidən işimə geri döndüm. Ata aludə olduqdan sonra onlardan ayrı düşmək çox çətindir”.

**Müsahibimiz əməkdaşlarımızı üç aydır ki, minilməyən Al-Sakir adlı bəyaz və yaraşıqlı ərəb atını göstərdi. Məhz bu atı çapmaq istəyimizi bildikdə təlimçi bunun çox təhlükəli olduğunu dedi:**"Təxminən üç aya yaxındır ki, bu at çapılmır. At çapmağı öyrənənlər üçün bu at çox təhlükəlidir, o hər an üstündəkini yerə ata, xəsarət yetirə bilər".

**Bu zaman P.Əlizadə ata mindi. Ərəb atı elə o an yerindən fınxırdı. Atı saxlamaq olmurdu. Təlimçi güc -bəla ilə üstündə dayanırdı, at dayanmadan dəlilik edir, sanki minilməyini qəbul edə bilmirdi. Təlimçi atla bacara bilmədiyini görüb özünü yerə atmağa məcbur oldu. Atı heç cürə saxlamaq olmurdu. Birtəhər atı sakitləşdirib öz yerinə geri qaytardıqdan sonra Pənah Əlizadə yenidən atlar barəsindəki söhbətini davam etdirdi:** “Gördüyünüz bu cür atları yenidən çapılmağa hazır vəziyyətə gətirmək çətindir...İşlədiyimiz müddətdə dəfələrlə atdan yıxılmışıq, yaralanmışıq, lakin atlara olan sevgimiz azalmır. Əksinə, günü-gündən onlara daha yaxın oluruq”.

**Çapmaq üçün təlimçi bizə daha sakit atlardan birini təklif etdi və necə minməyin və çapmağın qaydaları haqqında danışdı:** “Mehtərlər tərəfindən at yəhərlənir və çapılmağa hazır vəziyyətə salınır. İlk növbədə uyğun geyimdə olmaq lazımdır. Çalışmaq lazımdır ki, daha rahat şalvar, ayaqqabı geyinilsin və mümkün qədər dəbilqədən istifadə edilsin. Atın heç vaxt arxa tərəfinə keçmək olmaz, hər an təpik ata bilər, bu çox təhlükəlidir. Ata mindikdən sonra yüyəni xüsusi tələb olunan qaydada, yəni möhkəm tutmaq lazımdır. Ayaq ilə ata toxunan kimi at yerindən tərpənir”.

**Beləliklə, təlimçinin müşayiəti ilə ata mindik. Qeyd edək ki, ilk dəfə at çaparkən insanda bir qədər qorxu hissi yaranır, lakin zamanla bu qorxu aradan qalxır. Təlimçi bildirdi ki, ata ayaqla nə qədər bərk toxunsaq bir o qədər iti yeriyər. Çapdığımız atın erkək, yoxsa dişi cinsli olması ilə maraqlandıq. Təlimçinin dediyi söz bizi çox təəccübləndirdi. Onun sözlərinə görə, bütün mərkəzlərdə olduğu kimi burda da erkək atlar axtalanır:** “Bu, bir qaydadır. Yarışlarda iştirak edən erkək atların hamısının cinsiyyət orqanları axtalanır. Səbəbi isə budur ki, onların fikirləri yalnız cıdırda olsun. Doğrudur, bu, atlara pis təsir edir, lakin qaydalara əməl etmək lazımdır. Nadir hallarda hansısa atın növünü davam etdirmək üçün axtalanma prosesi edilmir”.

### At çapmaq sağlamlıqdırmı?

**Mərkəzin əməkdaşı at çapmağın insana olan xeyrindən danışdı. Onun sözlərinə görə, mərkəzə daha çox onurğa problemi olan insanlar müraciət edir:** “Sağlamlıq baxımından deyə bilərəm ki, çəki hər zaman dəyişməz qalır. Yəni kilo almaq ehtimalı az olur. Getdikcə atlara olan maraq artır. Mərkəzə hər gün daha çox insanlar gəlir. Onların arasında xarici vətəndaşlar da az deyil. At çapmaq onurğaya müsbət təsir edir. Elə ailələr var ki, onlar mütəmadi olaraq at çapmağa gəlirlər”.

### At yarışları

**Təlimçi əməkdaşımıza keçirilən at yarışlarından da danışıb:**

“Demək olar ki, hər ay mərkəzimizdə yarışlar, polo və Konkur oyunları təşkil edilir. Yarışlara maraq çox böyükdür...Mən özüm də yarışlarda iştirak edirəm. Lakin atım son zamanlar məni yarışlarda dilxor edir(gülür). İnanıram ki, gələcək yarışlarda mənim də atım qaliblər sırasında olacaq”.

### Qarabağ atlarının sayı artırılır

Xatırladaq ki, ötən il Qarabağ at cinsinin qorunması ilə bağlı ölkə prezidenti sərəncam imzalayıb. Sərəncama əsasən, Qarabağ atı cinsinin inkişaf etdirilməsi və bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsi, o cümlədən bu sahədə elmi-tədqiqat işlərinin aparılması, mütəxəssislərin hazırlanması, müvafiq kitabların buraxılması, reyestr, cins atların pasportlarının, qeydiyyat formalarının, həmçinin normativ-hüquqi sənədlərin hazırlanması, genetik fondun qorunması məqsədilə 2014-cü il dövlət büdcəsində nəzərdə tutulan Prezidentin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyinə iki milyon manat ayrılıb.

❑ **Xalidə GƏRAY**



# 11 il öncə törədilən dəhşətli qətlin üstü açıldı

**Respublikanın hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində uzun müddət bağlı qalmış daha bir ağır cinayətin üstü açılıb.**

Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərindən musavat.com-a verilən məlumata görə, 20 yaşlı Şəki şəhər sakini Xəyalə Mövsümovanın 2004-cü il oktyabrın 10-da xəbərsiz itkin düşməsi faktı üzrə müxtəlif fərziyyələr ətrafında çoxsaylı istintaq və əməliyyat-axtarış tədbirləri həyata keçirilib. Şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Məlumatda bildirilir ki, 2013-cü il sentyabrın 27-də Şəki şəhəri, B.Vahabzadə küçəsindəki yarımçıq tikilinin zirzəmisində insan skeleti aşkar edilib. Ekspertizadan sonra həmin skletin Xəyalə Mövsümovaya məxsus olması müəyyən edilib.

Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun bilavasitə rəhbərliyi və nəzarəti altında Şəki Şəhər-Rayon Polis Şöbəsi və rayon prokurorluğu əməkdaşlarının həyata keçirdikləri istintaq-əməliyyat tədbirləri nəticəsində X.Mövsümovanı qətlə yetirməkdə şübhəli bilinən Bakı şəhərində yaşayan əvvəllər dəfələrlə məhkum olunmuş 1982-ci il təvəllüdlü Ramil Salamov 2015-ci il aprelin 4-də şübhəli şəxs qismində tutulub.

Aparılmış istintaqla müəyyən edilib ki, R.Salamov 2004-cü il oktyabrın 10-da tanışı X.Mövsümovanı şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı qəsdən öldürmək məqsədilə adıçəkilən yarımçıq tikiliyə gətirib və boğaraq qəsdən öldürüb.

R.Salamov cinayətin izlərini itirmək məqsədilə bir gün sonra yenidən həmin yerə gələrək meyiti basdıraraq gizlədib və əynindəki paltarları da çıxararaq zibillikdə yandırıb.

R.Salamov 2015-ci il aprelin 5-də Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində rayon məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyüməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra

**Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Lerikdə 77 yaşlı kişinin evindən cəbbəxana aşkarlanıb

**Daxili İşlər Nazirliyi evindən xeyli silah-sursat aşkar edilmiş şəxsin görüntülərini yayıb. APA TV-nin məlumatına görə, Lerik Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Nurəvud kənd sakini, 77 yaşlı Qurbanəli Babayevin evindən 1 ədəd nömrəsi silinmiş "Naqan" markalı tapança, 1 ədəd kustar üsulla hazırlanmış tapança, 1 ədəd idman tapançası, 1 ədəd qundağı kəsilmiş və 3 ədəd lüləsi kəsilmiş və nömrəsi silinmiş ov tüfəngləri, 3 ədəd kustar üsulla hazırlanmış bıçaq, 67 ədəd müxtəlif çaplı patron, 1,5 kiloqram qırma, 75 ədəd giliz və tüfəng üçün lülə və qundaqlar aşkar edilərək götürülüb. Faktla bağlı araşdırmalar davam edir.**



## 86 yaşlı kişi evində yandı

**Binəqədidə mənzili yanan ev sahibi ölü tapıldı. ANS TV-nin məlumatına görə, yanğın paytaxt sakini 86 yaşlı Yeqorov Aleksandr Konstatinoviçə məxsus evdə qeydə alınıb. Evin ümumi sahəsi 65 kv.m-dir. Hadisə zamanı isə birmərtəbəli 2 otaqlı evin 1 otağının yanar konstruksiyaları 20 kv.m sahədə yanıb.**

Əraziyə FHN-in yanğın söndürən maşınları və canlı qüvvəsi cəlb olunub. Fövqəladə Hallar Nazirliyinin saytının yaydığı xəbərə görə, yanğının qarşısı alındıqdan sonra içəridən ev sahibi Aleksandr Yeqorovun yanmış meyiti yanğınsöndürənlər tərəfindən aşkar edilib. Evin qalan hissəsi isə yanğından mühafizə olunub. Hadisənin səbəblərinin ekspertizaların rəyindən sonra dəqiqləşəcəyi bildirilir.

## Avtobus piyadanı vurub öldürdü

**Bakıda marşrut avtobusu yol-nəqliyyat hadisəsi törədib. Sabunçu Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə aprelin 5-də saat 22.00 radələrində Bakıxanov qəsəbəsində qeydə alınıb.**

Bakı şəhər sakini Ramiz Quliyev idarə etdiyi "Daewoo" markalı 113 saylı xətt avtobusu ilə yolu keçən paytaxt sakini Reyhan Nurullayevanı vurub. Piyada aldığı xəsarətdən hadisə yerində ölüb. Faktla bağlı Sabunçu Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓ Əla tələffüz və güvənlə danışmaq
- ✓ Real ingiliscə söhbətlər

BONUS english EXPLOSION

*dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34





## Masallıda dəhşətli qəza: sürücü öldü

**Masallıda ölümlə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş verib. Cenubnews.com xəbər verir ki, Bakı-Astara yolunun Masallı rayon ərazisindən keçən hissəsində, Musaküçə kəndi dairəsi yaxınlığında, Masallı rayon Musaküçə kənd sakini Talıb Qardaş oğlunun idarə etdiyi "VAZ 21011" markalı 44 BH 130 dövlət nömrə nişanlı avtomobil Bakı istiqamətində hərəkətdə olərkən əks istiqamətdən gələn "SHACMAN" markalı yük maşını ilə toqquşub.**

Güclü zərbə nəticəsində minik avtomobili deformasiyaya uğrayıb, sürücü hadisə yerində dünyasını dəyişib. Maşında sıxılaraq qalan sürücü, Masallı rayon Musaküçə kənd sakini Talıb Qardaş oğlunun meyiti FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşları tərəfindən çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

Faktla bağlı Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat şöbəsində araşdırma aparılır. Qəzanın dəqiq səbəbləri isə aparılan avtoekspertizanın rəyindən sonra məlum olacaq.

## Bakı sakini benzin içib özünü yandırmaq istədi

**Bakıda gənc oğlan özünü öldürmək istəyib. "Qafqazinfo"nun verdiyi xəbərə görə, hadisə Bakı Beynəlxalq Avtovağzal Kompleksinin qarşısında baş verib. Əsəb xəstəliyindən əziyyət çəkən gənc özünü yandırmaq istəyib. Amma bundan öncə o həm də benzin içib. Bakı sakini, 1994-cü il təvəllüdlü İ.Əzizov özü ilə gətirdiyi plasmas qabda olan benzinin yarısını içib, qalanını isə üzərinə tökərək özünü yandırmaq istəyib.**

Bu zaman ətrafdakı adamlar tərəfindən intiharın qarşısı alınıb. İ.Ə Toksikologiya Mərkəzinə yerləşdirilib.

## Azərbaycanda nazirliyin laboratoriyası yandı

**Ucar rayonunda güclü yanğın hadisəsi baş verib. ANS PRESS-in bölgə müxbirinin verdiyi məlumata görə, hadisə dünən səhər saatlarında Kənd Təsərrüfatı Nazirliyinin Ucar rayon idarəsinin inzibati laboratoriya binasında qeydə alınıb.**

Əraziyə FHN-in Ucar yanğından mühafizə xidmətinin canlı qüvvəsi və texnikası cəlb olunub və qısa zaman ərzində yanğının qarşısı alınıb. Hələlik yanğının hansı səbəbdən baş verdiyi məlum deyil. Faktla bağlı araşdırma aparılır. Üç mərtəbədən ibarət olan inzibati binanin inşasına ötən ilin son aylarında başlanılıb və bu ilin may ayında isdifadəyə verilməsi gözlənilirdi.

Xatırladaq ki, bina istifadəyə verildikdən sonra Kənd Təsərrüfatı Nazirliyinə tabe olan bir neçə şöbələrin də bu binaya köçürülməsi nəzərdə tutulurdu. İdarə binasında laboratoriya, bitki kabinetləri, turşu və qələvilərin saxlanması, analitik əməliyyat, bitki və toxumçuluq otaqları mövcuddur. Əlavə olaraq idarənin həyətində dərman preparatlarının saxlanma anbarı və KTN-ə məxsus maşınların saxlanılması üçün qaraj da nəzərdə tutulub. KTN-in, 56 rayonda bu cür idarə binası tikilir.

**Elan**

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**

**Əlaqə nömrəsi: +79283706928**

**Azərbaycanda aviabilet qiymətlərinin çox baha olması ilə bağlı “Yeni Müsavat” dəfələrlə yazıb. Son olaraq Novruz bayramı ərəfəsində bu astronomik qiymətlər vətəndaşların diqqətini çəkdi. Çünki müqayisəli təhlil göstərdi ki, AZAL-ın monopolistliyi bu sahədə ciddi problemlərin yaranmasına səbəb olur.**

# AZAL-ın Bakı-Berlin reysi indidən fiaskoya uğradı

## Almaniyanın paytaxtına Bakıdan 437 AZN-ə yox, dördqat ucuz qiymətə uçmaq mümkündür; ilginc müqayisə, fərqli qiymətlər...

Son iki həftədə isə sosial şəbəkələrdə bu mövzu xüsusən aktuallaşıb. İnsanlar bəzi uçuşların qiymətini digər aviaşirkətlərlə müqayisə edərək ortaya ilginc nəticələr qoyur. Bir neçə misalı yada salaq:

Bakı - London 736 AZN (AZAL), Tiflis-London 401 AZN(LOT),

Bakı-Frankfurt 766 AZN (AZAL), Tiflis-Frankfurt 280( LOT)

Baki-Paris 594 AZN (AZAL), Tiflis-Paris 313 (MAU)

Baki-Moskva 443 AZN(AZAL), Tiflis-Moskva 253 (MAU)

Baki-Milan 395 AZN (AZAL), Tiflis-Milan 239 (Alitalia)

Bakı-İstanbul 236 AZN (AZAL), Tiflis-İstanbul 152 (Pegasus)

Daha bir ilginc yenilik isə mayın 2-dən etibarən istifadəyə veriləcək Bakı-Berlin reysi ilə bağlıdır. Bugünlərdə sosial şəbəkələrdə Berlinə Bakıdan yox, Tiflisdən uçmanın maddi baxımdan daha əlverişli olması ilə bağlı Meydan TV-nin hazırladığı bir sxem paylaşılmışdı. Orada qeyd edilib ki, AZAL şirkətinin Bakı-Berlin reysi ilə bilet 437.83 AZN məbləğindədir. Halbuki Tiflis-Berlin reysi ilə, Pegasus şirkəti 128.50 AZN-ə bilet almaq mümkündür. Bunu etmək istəyən azərbaycanlılar qatarla 30 AZN ödəyib, Tiflisə gedə, 26.22 AZN-ə Tiflisdə bir gecə 3 ulduzlu hoteldə qala, 23.26 AZN-ə Tiflisdə 3 dəfə yemək yeyə, 23.26 AZN-ə Tiflisdəki kükürd hamamına baş çəkmək olar. Və bütün bunlar üçün biletlə birgə toplam 231.24 AZN ödəmək kifayətdir. Gördüyünüz kimi, Berlinə Bakıdan yox, Tiflisdən uçmaq birgünlük istrahət və yemək, hoteldə qalma xərcləri ilə birgə ikiqat ucuz qiymətə başa gəlir.

“Yeni Müsavat” AZAL şirkətinin saytına daxil olub, may ayı üzrə Bakı-Berlin və Berlin-Baki reysinin qiymətləri ilə maraqlanıb. Qiymətlərdən məlum olub ki, Bakı-Berlin reysi üzrə bilet qiymətləri günlərdən asılı olaraq, 392.33 AZN, 228.32 AZN, 437.83 AZN olaraq dəyişir. Berlin-Bakı reysi üzrə bilet qiymətləri isə 245.76 AZN, 466.67 AZN, 421.07 AZN-dir.

**AZAL-ın mətbuat xidmətinin rəhbəri Məhərrəm Səfərli “Yeni Müsavat”a açıqlamasında dedi ki, onlar qiymət artımına yol verməyiblər. Bakı-Berlin-Bakı reysi üzrə bilet qiymətləri normativlərə uyğundur:** “Azərbaycan Hava Yollarına məxsus təyyarələri nə Pegasus, nə də digər şirkətlərinki ilə müqayisə etmək olmaz. Bizim təyyarələrimiz daha komfortludur, servisimiz isə yüksək səviyyədədir. Biz biletlərin qiymətini artırmamışıq. Sadəcə, avro bahalaşdığı üçün ola bilər ki, fərqlə hiss olunsun”.




**Müsahibimiz dedi ki, son günlər mətbuatda AZAL-a qarşı kampaniyanın başlanmasını müşahidə edir və bunu doğru hesab etmir. AZAL rəsmisi dedi ki, hətta bəzi media orqanlarında “AZAL dövlət büdcəsini talayır” tipli yanlış məlumatlar yayılır və bununla da ictimaiyyəti aldadırlar:** “Bunu yazanlar anlamırlar ki, AZAL özəl şirkətdir, dövlət büdcəsinin bu məsələyə hər hansı aidiyyəti yoxdur. MDB məkanında "Boinq 787" təyyarəsi ancaq bizdədir. Pegasusun təyyarəsi bizimki kimi ola bilməz. Texniki cəhətdən daha üstündür. Qiymət fərqi xidmətin keyfiyyətinə görədir, bizim bütün təyyarələrimiz hamısı təzədir”.

**AZAL-ın sabiq prezidenti Ədalət Əliyev isə yaranmış bu vəziyyəti adi bir misalla təsnif etdi. Dedi ki, kimsə mələfə tikmək üçün öncə tikiş maşını almalıdır. Bu maşını 1000 manata da almaq olar, 2 milyon manata da:** “Təbii ki, bu zaman hər iki maşınla tikilən mələfələrin qiyməti fərqli olacaq. İnsanlar da 1000 manatlıq maşınla tikilən mələfələrə üstünlük verəcəklər. Mənim bu situasiyaya uyğun başqa cavabım yoxdur”.

**Ə.Əliyev hesab edir ki, indiki halda monopoliyanın qarşısını dövlət qanunlar vasitəsilə almalıdır. Bundan başqa, neftin qiymətinin ucuzlaşmasını da nəzərə alanda bilet qiymətlərinin artırılmasında məntiq görmür:** “Deyirlər ki, bizim təyyarələrdə təhlükəsizlik daha yüksək səviyyədədir və sair. Təhlükəsizlik məsələlərində tələb eynidir. İstəyir köhnə təyyarə olsun, istəyir yeni. O tələblərə bütün aviaşirkətlər eyni dərəcədə əməl edir. Yemək, servis məsələlərini önə çəkirlər. O yeməklərin toplam qiyməti nə qədər ola bilər? 10-12 dollar. Bu, qiymətlərin bu qədər yüksək olmasına səbəb olmalıdır?”

❑ **Sevinc TELMANQIZI**

# Qanlıgöldəki maşın bazarı “qan ağlayır”

## Bakı Avtomobil Satış Mərkəzində əvvəlcə rublun düşməsi, indi isə manatın ölməsi durğunluq yaradıb; satan da, alan da narazıdır








**Avtomobil bazarında vəziyyət ürəkaçan deyil. Satıcılar alıcı azlığından, alıcılar isə qiymətlərin yüksək olmasından gileylənirlər. Bu da bazarda durğunluğun yaşanmasına gətirib çıxarır. Alıcı qüvvəsi əvvəlki aylarla müqayisədə xeyli aşağı düşüb. Bazar günü Qanlıgöl ərazisində, Badamdarda yerləşən Bakı Avtomobil Satış Mərkəzində olarkən apardığımız müşahidələrimiz və araşdırmalar belə deməyə əsas verir.**

Bazarda sovet istehsalı olan avtomobillərlə digər ölkələrdən gətirilənlər arasında xeyli fərq var. Belə ki, sovet istehsalı olan maşınların qiyməti çox düşüb. Ancaq alıcısı da azalıb. Ümumilikdə sovet istehsalı avtomobillərə maraq azalıb. İndi insanlar yanacaq sərfiyyatı daha qənaətli və təhlükəsiz avtomobillərə həvəs göstərir.

Yanvarın 1-dən etibarən mühərrikin həcminə görə avtomobillərə tətbiq edilən yeni vergilərin müəyyənləşdirilməsi xaricdən gətirilən avtomobillərin qiymətinə xüsusi təsir göstərib. Bazara gələn azsaylı alıcılar da qiymətlərin yüksək olmasından narazıdırlar.

“Hamı gəlib maraqlanır gedir. Satış çox zəifdir. İki aydır maşını gətirmişəm, qalıb burda, sata bilmirəm. Məndə "Priora"dır. 8 minə verirəm. Əvvəl 10 min manata satırdım. Qiymət dəyişib. Manatın ölməsi də çox təsir edib,"- deyə satıcı Vüsal bildirir.

Ancaq ondan fərqli olaraq bazara gələn alıcı Namiq qiymətlərin qalxmasından şikayətlənir. Deyir ki, məsələn, “Kia Rio” markalı işlənmiş maşınlar əvvəl 8-9 minə tapmaq olardısa, indi 10-11 mindən aşağı yoxdur. “Chevrolet Aveo” da 11 mindən aşağı tapılmır.

Satıcılar deyirlər ki, daha əvvəl rus rublunun aşağı düşməsi maşın bazarında durğunluğa səbəb oldu. İndi isə manatın ucuzlaşması bu durğunluğu pik həddə çatdırdı. Hər kəs gözləmə mövqeyindədir, artıq kimsə əmlakını satmaq istəmir, səbəbi isə odur ki, uduzacağından qorxur.

Lakin elanlarda qoyulan qiymətlər dollar ekvivalentinə uyğun dəyişdirilir. Dolların bahalaşmasının maşının qiymətinə təsir etmədiyini deyən satıcılar bazarda yenə də alıcı qıtlığından gileylənir. Hətta “Opel Astra” markalı maşınlar da bahalaşıb.

Avtomobil bazarı üzrə ekspertlər deyirlər ki, manatın devalvasiyası, maşınların dollarla satılması qiymət artımına gətirib çıxarıb. Dollar ekvivalentində qiymət artımı baş verməsə də, manat ekvivalentində qiymət artımına gətirib çıxarıb. Əvvəl 15 min dollara satılan avtomobil əgər 12 min manat təşkil edirdisə, indi həmin maşın yenidən bazara 15 min dollara təklif olunur.

Bu artıq 15 mindən bir qədər artıq manat deməkdir. Ekspertlər hazırda bazarda durğunluq olduğunu, müştərilərin qiymətlərin aşağı düşəcəyini gözlədiklərini bildirir.

Bundan başqa, manatın ucuzlaşması avtomobillərin qiymətləri ilə yanaşı, onların ehtiyat hissələrinin və təmir xərclərinin artmasına da təsir göstərib. Təmirçilər qiymətlərin 10-20 faiz bahalaşdığını bildirir. Ehtiyat hissələri isə təxminən 20-30 faiz bahalaşıb.

Onu da deyək ki, “Toyota”, “Hyundai”, “KİA”, “Cehvrolet” brendlərinin Azərbaycandakı rəsmi distribüterlərindən verilən məlumata görə, avtomobillərin qiymətinin artırılmasına səbəb nəqliyyat vasitələrinin xarici ölkədən dollarla alınıb gətirilməsi və Azərbaycanın milli valyutasının ucuzlaşmasıdır. Distribüterlərin məlumatına görə, modelindən və markasından asılı olaraq avtomobillərin qiyməti 30-40% artıb.

Yeni “Mercedes E 200" maşının köhnə qiyməti 52 000, yeni qiyməti 68 000 manatdır. ”KİA Optima"nın köhnə qiyməti 27 900, yeni qiyməti 34 900 manat edir. “Chevrolet Aveo”da köhnə qiymət 15 450, yeni qiyməti 18 270 manat civarındadır.

Maşın bazarında müşahidə apararkən 2015-ci ilin buraxılışı olan avtomobillərə də rast gəldik. Öyrəndik ki, bu ilin istehsalı olan “Mitsubishi” markalı avtomobilin qiyməti hazırda 47 min manatdır. Mühərrikinin həcmi böyük olan bu avtomobillərin gələn aylarda qiymətinin artacağı istisna deyil. Maşın salonları isə kredit təklifləri də irəli sürür.

Məsələn, “KİA” salonunda bu maşının “Rio” markalı 2014-cü il istehsalı üçün 4 min manat ilkin ödəniş, banka isə 36 ay ərzində 430 manat kredit ödənişi təklif edilir. Təqribən maşın 18-19 min manata başa gəlir.

Odur ki, söhbətləşdiyimiz alıcıların əksəriyyəti maşınlara baxıb keçirlər. Onlar bu qiymətlərin maydan sonra dəyişəcəyinə ümid edir. Elə avtomobil elanlarına göz atmaq da kifayətdir. Məsələn, 2009-cu il buraxılışı olan “Hyundai” markalı avtomobilin qiyməti 10 min dollar olub. 10 min dollar manatın devalvasiyasına qədər 7844 manat idi. İndi 2200 manat bahalaşma var. Ekspertlərin fikrincə, Azərbaycanda maşın bazarı yoxdur.

Son bir ilin hadisələri göstərir ki, avtomobil bazarında inhisarçılıq meylləri həddən artıq yüksəkdir. Bir qrup şəxs avtomobil bazarındakı kiçik və orta sahibkarların üstündən keçib, onları yox eləməyə çalışır. Ümumiyyətlə, avtomobil bazarındakı xırda və orta sahibkarların uzaqlaşması müşahidə edilir. Kəsəsi, maşın bazarı “qan ağlayır”, üstəgəl də “od tutub yanır”. Alıcıların çoxunun dediyi kimi, qoy hələ Avropa Oyunları qurtarsın, görək nə olur...

❑ **E.SALAMOĞLU**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 72 (6100) 7 aprel 2015




QOÇ - Yaxşı olar ki, son bir həftədə yığdığınız yorğunluğu məhz bu təqvimdə əridəsiniz. Yoxsa səhhətinizdə ciddi fəsadlar baş qaldıra bilər. İş istiqamətində dönüş yaratmağınız vacibdir.

BUĞA - Ulduzların düzülüşü yalnız ailə üzvlərinizlə rahatlıq tapacağınızı bəyan edir. Digər ünvanlarda, ələlxüsus da həmkarlarınızla davranışlarda hər şey tərsinə cərəyan edə bilər.

ƏKİZLƏR - Perspektivlərinizi reallaşdırmaq üçün müəyyən xərcə düşməkdən qorxmayın. Çünki bu barədə düşündükləriniz gerçəkləşsə, özünüzü xoşbəxt sanacaqsınız. Ümidli olun.

XƏRÇƏNG - Qarşılaşdığınız hər bir hadisəyə soyuq başla yanaşın. Çünki hər hansı emosional reaksiyanız bütün planları poza bilər. Bu gün enerjiniz bol olduğundan heç nədən çəkinməyin.

ŞİR - Astroloji göstəricilər qətiyyən darıxmayacağınızdan xəbər verir. Çünki sevdiyiniz insanların əksəriyyəti ətrafınızda olacaq. Keçmişdə olan xoşagəlməzlikləri tez-tez xatırlamayın.

QIZ - Bu gün qeyri-adi hansısa hadisə baş verməyəcək. Yaxşı olar ki, dincələsiniz. İnsanlarla davranışlarınızda və fəaliyyətinizdə yeni nüanslar əmələ gələcək. Qonaqlıq da mümkündür.

TƏRƏZİ - Qarşınıza təzadlı bir gün çıxsa da, hadisələrin inkişafı boyu öz aktivliyinizi artırmalısınız. Reallığı qiymətləndirməyə çalışın. Saat 15-dən sonra qazanmaq ehtimalınız böyükdür.

ƏQRƏB - Nəhayət ki, sizin dövranınız da gəlib çatdı. Bütün Göy qübbəsi müdafiənizə qalxdığından qarşınıza qoyduğunuz hər bir ədalətli iş xoş sonluqla qurtaracaq. Səfərə çıxmağa dəyər.

OXATAN - Ulduzlar məsləhət görür ki, bu gün aldığınız bütün dəvətləri təxirə salıb dincəlməklə məşğul olasınız. Əks təqdirdə ailə üzvlərinizlə aranızda xoşagəlməzliklər baş qaldıra bilər.

OĞLAQ - Ümumi yorğunluğunuzu nəzərə alıb maraqlı guşələrdə istirahətə can atın. Məhz bu addımınız ümumi narahatlığınıza son qoya bilər. Nahardan sonra yeni xəbərlər eşidəcəksiniz.

SUTÖKƏN - Hər mənada düşərli ərəfədir. Vaxtilə buraxdığınız səhvlərdən, eləcə də sizə qarşı törədilən haqsızlıqlardan bir daha nəticə çıxarın. Günün uğurları sizdən yan keçməyəcək.

BALIQLAR - Ulduzların düzümü bu təqvimdə bəzi problemlərlə baş-başa qalacağınızı bəyan edir. Amma təmkin göstərməklə sabit vəziyyət yaşaya bilərsiniz. Tələbkarlığınızı zorakı müstəviyə keçirməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**



## Zeytun yağının faydaları

Zeytun yağının əsas tərkib hissəsi doymamış yağ turşularıdır. Bu yağ turşuları qanda sağlamlıq üçün zərərli xolesterinin səviyyəsini endirirlər, faydalı hissəsinin miqdarı dəyişməz qalır. Buna görə də insan orqanizmində həyat üçün mühüm elementlərin balansını təmin edir. Bu gün bütün dietoloqlar zeytun yağının faydalarından danışırlar. Hələ qədim Yunanıstanda zeytun yağının insan orqanizminə təsirini bilib onu maye qızıl adlandırırdılar. Doymamış yağ turşuları ilə zəngin zeytun yağının istifadəsi ürək-damar xəstəlikləri-nin, diabetin, piylənmənin qarşısını alır. Aparılmış tədqiqatlarda müəyyən olunmuşdu ki, zeytun yağı istifadəsi ürək-damar xəstəliklərinə tutulma riskini 40% azaldır. Tədqiqatlarda Böyük Britaniya, İtaliya, Yunanıstan, İspaniya, Fransanın 8200-dən çox sakini iştirak edib. Mütəxəssislər iştirakçıların gündəlik qida rasionunu öyrənmişlər. Ən çox Britaniya sakinlərinin ürək xəstəliklərindən əziyyət çəkdiyi aşkarlanıb. Tədqiqatçılar bunu Britaniya sakinlərinin qidalarında heyvani yağlardan daha çox istifadə etmələri ilə izah ediblər. Aralıq dənizi ətrafında yaşayanlar isə qida rasionunda zeytun yağından istifadə etdiklərinə görə ürək-damar xəstəliklərinə buradakı sakinlərdə demək olar ki, rast gəlinmir.

# Dişlərini özü çəkdi

Müharibə dövründə tibb sahəsində çalışan İan Boynton diş həkiminə verməyə pulu olmadığı üçün dişlərini özü çəkib. Boytonun hekayəsi İngiltərədə bir çox insanın ortaq dərdidir. Belə ki, Zira NHS adlı dövlət sığortası diş müalicəsi xərclərini qarşılamadığı üçün onlarla insan dişlərini özləri çəkməyə məcbur olurlar. İmkanı olanlar isə yüksək miqdarda pullar ödəyərək dişlərini müalicə etdirə bilirlər. Boyton da sonuncu dəfə 2003-cü ildə orduda olarkən diş həkiminə gedib. Həmin gündən sonra ağrıyan dişlərini ya çəkib, ya da müalicə edib. 12 ildir dişlərində problem olan kişini müalicə etməkdən 30 stomatoloq imtina edib. Bir müddət sonra həkimə getməməyə qərar verən kişi mağazada satılan xüsusi maddələrlə dişlərini müalicə etməyə başlayıb.



# Tanımadığı qadın maşın hədiyyə etdi

**Almaniyada eşidənləri heyrətə salan bir hal yaşanıb. Baden-Vürttemberq əyalətində Lörrak şəhərində 21 yaşlı gənc həyatının hədiyyəsini alıb. Ona bu hədiyyəni verən isə küçədən keçən bir qadın olub. "Bild" qəzetinin məlumatına görə, gəncin qarşısına çıxan qadın "sizə öz maşınımı bağışlaya bilərəm?" deyə, sual verib. 53 yaşlı qadın xaricə getdiyini, həyatında yeni səhifə açmaq istədiyini deyib.**

"Volkswagen Polo" markalı maşınını gəncə bağışlayan qadın bütün sənədləri də ona təqdim edib. Əlində sənədlər və maşının açarı ilə heyrətə düşən gənc dərhal polisə məlumat verib. Hadisə yerinə gələn polis qadını yoxlayıb onun ağlının başında olduğunu müəyyən edəndən sonra gəncə istəsə hədiyyəni qəbul edə biləcəyini deyib. Bundan sonra Florian adlı oğlan 10 min avro qiyməti olan hədiyyəni qəbul edib.





## Yalan danışmaq xəstəlik imiş

Mitomani yalan danışma xəstəliyi olaraq tanınır. Xəstəlik ciddi ölçülərdə yalanlar uydurma, bu yalanlara inanma və ətrafındakıları inandırmaq kimi xarakterizə olunur. Mitomani bir çox hallarda xəstənin diqqət çəkib mərkəz nöqtəsi halına gəlmək adına etməyə başladığı yalan danışma vərdişinin gedərək heç bir səbəbə ehtiyac duyulmadan davam etməsi və dozasının artmasıdır. Mitomaninin ən çox yoldaşlıq etdiyi xəstəlik histrionik-şəxsiyyət pozuqluğudur. Diqqətləri üzərinə çəkmək üçün sıx bir istək və arzu duyan adam bunu bacara bilmək adına hadisələri inanılmayacaq dərəcədə böyütməyə, şişirtməyə, dramatizə etməyə başlar. Bunu təmin etmək üçün də məcbur olaraq yalan danışar.

## Brilyant gitara satışa çıxarılır

Məşhur gitara ustası Yuri Şişov "Faberge" şirkətinin 1900-cü ildə hazırladığı "Şam qozası" adlı zərgər yumurtasından ruhlanaraq dünyanın ən bahalı gitaralarından birini ərsəyə gətirib. Mil.az bildirir ki, "Faberge & Fender Stratocaster Pine Cone" adlı gitaranın ilkin satış qiyməti 1 milyon dollardır. Gitaranın vələs ağacından hazırlanmış korpusu gümüşlə, daha sonra 18 karatlıq qızılla örtülüb, sonda da 550 brilyant qaşla bəzədilib. Kaliforniyanın Anahaym şəhərində keçirilmiş "NAMM Show 2015" şousunda göstərilmiş gitara bu yaxınlarda keçiriləcək hərracda satılacaq.



Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300